RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 145 (9600) 13 iyul 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan və Pakistan daim bir-birini dəstəkləyir

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri



Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri iyulun 12-də davam edib. Səfər çərçivəsində prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olub.

İslamabadda Preziden Asif Əli Zərdarinin adından Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilib.

Dövlət başçısı İlham Əliyev İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda (NASTP) hərbi sərgi ilə tanış olub.

Prezident İlham Əliyevin Pakistana dövlət səfəri başa çatıb.

→ 2-3

## İki dost ölkənin münasibətləri daha da möhkəmlənir

Pakistan həmişə Azərbaycanın yanında olub, ərazi bütövlüyünü tanıyıb, ölkəmizlə bütün sahələrdə əməkdaşlıq edib. Bu dostluq təkcə rəsmi səviyyədə deyil, xalqlar arasında da mövcuddur. Ayrı-ayrı ziyalı təbəqələri, universitet əməkdaşları, iş adamları arasında da sıx əlaqələr var. Prezidentimizin bu ölkəyə dövlət səfəri münasibətləri daha da yaxşılaşdıracaq. Pakistan tərəfi Azərbaycan Prezidentinin səfərinə çox böyük həvəslə hazırlaşırdı. Pakistanın tarixində ilk dəfədir ki, ölkəyə səfər edən dövlət başçısının təyyarəsini qırıcı təyyarələr qarşıladılar və müşayiət etdilər.

→ 11

## Qarşılıqlı səfərlər uğurlu perspektiv vəd edir

Hazırda Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər. Pakistan şirkətləri işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticari əlaqələrinin genişləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyevin tapşırığı ilə Pakistandan idxal olunan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib.

Prezident İlham Əliyevin Pakistana son səfəri ölkələr arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Səfər zamanı Prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif və Prezident Asif Əli Zərdari ilə keçirilən ikitərəfli görüşləri, həmçinin səfər çərçivəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 10-dan çox sənədin imzalanması ölkələrimiz arasında yeni uğurlu perspektivlərin yarandığından xəbər verir .

→ 11

## Hədəf Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirməkdir

Prezident İlham Əliyevin apardığı islahatların hədəfi - Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirmək yolunda görülən işlər dünyada yüksək qiymətləndirilir və nüfuzlu beynəlxalq qurumlar ölkəmizlə əməkdaşlıq edirlər. Davos Dünya İqtisadi Forumu kimi bir mötəbər təşkilatın Azərbaycanda öz mərkəzinin yaradılması barədə niyyət protokolu imzalaması da bunu sübut edir.

Azərbaycan qlobal çağırışlara və tendensiyalara vaxtında adekvat cavab verərək yeni inkişaf trendlərinin tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun, o cümlədən Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır.

→ 13

## "Makron dağıdıcıdır"

### Fransadakı siyasi böhran daha ağır rejim böhranına çevrilə bilər

Fransa lideri "institusional sabitliyin təmin edilməsi" üçün tərəflərdən ümumi dəyərlər və aydın proqram əsasında belə bir çoxluq qurmağı tələb edib və baş nazirin təyinatı ilə bağlı bu əsasda qərar qəbul edəcəyinə söz verib. Eyni zamanda Makron bildirib ki, Fransanın hazırkı hökuməti hələlik öz vəzifələrini yerinə yetirməyə davam edəcək.

Bundan əvvəl Fransanın keçmiş baş naziri Eduard Filipp mərkəz və sağ mərkəzçi deputatları yeni parlamentdə nisbi çoxluq yaratmaq üçün birləşməyə çağırıb. O, hazırda bunu bacaracaq blokun yaradılmasının mümkün olduğunu bildirib.

Xatırladaq ki, Fransada iyun və iyul aylarında parlament seçkiləri keçirilib. Nəticədə solçu partiyaların "Yeni Xalq Cəbhəsi" koalisiyası qalib gələrək Milli Assambleyada 182 yer qazanıb. "Birgə" prezident koalisiyası 168 yerə, millətçi Marin Le Penin "Milli Birlik" Partiyasının başçılıq etdiyi sağçı koalisiya 143 yerə yiyələnib. Seçkilərin nəticələrindən sonra Makrondan məğlubiyyətini etiraf etmək tələb olunub.

→ 16

## Ekoloji gərginlik ümumbəşəri qlobal problemdir

### Onu aradan qaldırmaq üçün hər birimiz səy göstərək



→ 12

## Azərbaycanın özü qədər əbədi

### 55 il öncə Azərbaycanda Heydər Əliyev dövrü - güclü dövlət, iqtisadi yüksəliş, milli-mənəvi intibah mərhələsi başladı



## İlk Qurtuluş günü

55 il öncə - 1969-cu ilin qızmar 14 iyul günündə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumuna toplaşan insanlar dövlətçilik tariximizin şanlı səhifəsinə imza atacaqlarını yəqin ki, heç bilmirdilər. Onların nəzərində Sovet Azərbaycanı sadəcə növbəti rəhbərini dəyişirdi.

Bu dəfə gənc və inzibati intizama böyük üstünlük verən generalı, nüfuzlu ictimai xadimi hakimiyyətə gətirirdilər.

Amma hər kəs Azərbaycanın düşdüyü vəziyyətdən narazı idi. Hər kəs vəziyyətin dəyişməsini istəyirdi. Hər kəsin ümidi yeni liderə idi...

Bu dövr Azərbaycanın xilasının birinci mərhələsi, yəni ilk Qurtuluş mərhələsi hesab olunur. Çünki həmin dövrdə Azərbaycan imperiyanın 15 respublikası arasında sosial-iqtisadi duruma görə 14-cü yerdə idi. Ölkədə böyük tənəzzül yaşanırdı. Məhz belə bir çətin dönəmdə Ümummilli Lider Heydər Əliyev üzərinə böyük məsuliyyət götürdü və sovet imperiyasının bütün ideoloji-siyasi maneələrinə baxmayaraq, ən ağır vəzifənin öhdəsindən gəlməyi bacardı, Azərbaycanın inkişaf konsepsiyasını formalaşdırdı.

Məhz buna görə də həmin tarixə, 55 il öncəyə müxtəlif kontestlərdə yanaşmaq olar. Amma hansı istiqaməti təhlil etsək görərik ki, orada istinasız olaraq inkişaf, yüksəliş, intibah, müsbət dəyişikliklər, səmərəli islahatlar, effektiv nəticələr - ən yaxşı göstəricilər öz əksini tapıb. Bu baxımdan tam əminliklə deyə bilərik ki, Azərbaycan tarixində 1969-cu il Ulu Öndər Heydər Əliyevin ilk Qurtuluş missiyası idi.

Bəs, Azərbaycan nədən qurtulurdu?!

→ 6

## Heydər Əliyevin enerji siyasətinin şah əsəri




### BTC-nin fasiləsiz və təhlükəsiz fəaliyyətinin 18 ili tamam olur

Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biri olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri 18 ildir tam bir sistem olaraq fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir. BTC istismara veriləndən bu ilin birinci rübünün sonunadək ümumilikdə təqribən 568 milyon ton (4,3 milyard barel) xam neft nəql edib. Bu neft həcmləri Ceyhanda 5629 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Cari ilin birinci rübü ərzində isə BTC vasitəsilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 54 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 72 tankerə yüklənib və yola salınıb. Bu barədə kəmərin operatoru olan BP şirkəti məlumat verib. Yeri gəlmişkən, Bakı-Tbilisi-Ceyhan boru kəməri şirkətinin (BTC Ko.) səhmdarları bunlardır: BP (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC ilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də nəql olunur.

→ 8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri

# Azərbaycan və Pakistan daim bir-birini dəstəkləyir

## Prezident Asif Əli Zərdari ilə geniş tərkibdə görüş





**İyulun 12-də İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Pakistanın və Azərbaycanın daim bir-birini dəstəkləməsi, xüsusilə torpaqlarımız otuz il ərzində işğal altında olduğu dövrdə Pakistanın ölkəmizə siyasi dəstəyi, Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi, beynəlxalq hüququn prinsiplərini rəhbər tutması yüksək qiymətləndirildi.

Hazırda ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğu vurğulandı.

Prezident Asif Əli Zərdari Azərbaycanın COP29-a evsahibliyi etməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Dövlətimizin başçısı Pakistan Prezidentini COP29-a dəvət etdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, investisiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidentinin şərəfinə dövlət ziyafəti



*İyulun 12-də İslamabadda Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə dövlət ziyafəti verilib.*

*AZƏRTAC*

Azərbaycan Prezidenti İlham Əliyevin Pakistana dövlət səfəri

# Azərbaycan və Pakistan daim bir-birini dəstəkləyir

## "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda hərbi sərgi ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də İslamabadda Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasının ərazisindəki "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nda (NASTP) hərbi sərgi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına sərgi haqqında məlumat verildi.

Bildirildi ki, müxtəlif bölmələrdən ibarət sərginin "NASTP Alpha" hissəsində Pakistan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri, kosmos, radar, simsiz rabitə sistemləri, simulyatorlar, kibertexnologiyalar, informasiya texnologiyaları, proqram təminatı və süni intellekt sahələrində məhsullar nümayiş etdirilir. Bu bölmədə, həmçinin "NASTP PSDP", Təlim, Sertifikatlaşdırma və Aviasiya Xidmətləri bölmələri yerləşir. NASTP özündə İnkişaf etməkdə olan Sistemlər və Texnologiyalar İnstitutu (NIEST) bir neçə imza təlim mərkəzini, eyni zamanda İnkişaf Edən Texnologiyalar və Sistemlər Məktəbini birləşdirir. Sərginin "NASTP Alpha" hissəsində Aviasiya Universitetinin Milli Kibertəhlükəsizlik Mərkəzi yerləşir.

NASTP Aviasiya Akademiyası "Milli Aerokosmik Elm və Texnologiya Parkı"nın qabaqcıl layihəsi olmaqla dünyasəviyyəli təlim institutu və uçuş, təhlükəsizlik və texniki xidmət üzrə təlimlər üçün regional mərkəzə çevrilmək niyyətindədir.

Sərginin "Alpha Techno" guşəsində isə istər startap, istərsə də yaradılmış biznes və ya müəssisələrlə bağlı maneəsiz və sərfəli iş sahəsi həlləri təqdim olunur.

## Prezident İlham Əliyevin Pakistana dövlət səfəri başa çatıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri iyulun 12-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Pakistan Hərbi Hava Qüvvələrinin Nur Xan bazasında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Pakistanın daxili işlər naziri Syed Mohsin Raza Naqvi və digər rəsmi şəxslər yola saldılar.



# Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA Şurasının iclasında iştirak edib

**Milli Məclisin Sədri Sahibə Qafarova iyulun 12-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Parlamentlərarası Assambleyası (MDB PA) Şurasının iclasında iştirak edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasda bir sıra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

Azərbaycan Respublikasında keçirilən növbədənkənar prezident seçkilərində MDB PA müşahidəçilərinin iştirakı haqqında məsələnin müzakirəsi zamanı çıxış edən spiker Sahibə Qafarova deyib ki, seçkilərdə aidiyyəti dövlət orqanları tərəfindən prosesin ən yüksək səviyyədə keçirilməsi üçün hər cür şərait yaradılıb, seçki prosesinin tam şəffaflığı təmin edilib ki, seçicilər öz iradələrini sərbəst və maneəsiz ifadə edə bilsinlər. Bunu beynəlxalq müşahidəçilər də ifadə ediblər.

Seçkilərin monitorinqində 89 ölkəni və 72 beynəlxalq təşkilatı, o cümlədən 22 parlamenti və 12 parlamentlərarası təşkilatı təmsil edən 790 beynəlxalq müşahidəçinin iştirak etdiyini xatırladan Milli Məclisin Sədri seçkilərlə bağlı əsas məsələ olaraq, onu qeyd edib ki, bu seçkilərdə xalqımız ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Azərbaycanın gələcək inkişafına səs verib. Qeyd olunub ki, İlham Heydər oğlu Əliyev seçkilərdə iştirak etmiş seçicilərin 92 faizdən çoxunun səsini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Çıxışında Sahibə Qafarova deyib ki, seçki proseslərinin müşahidəsi MDB PA çərçivəsində əməkdaşlığın mühüm sahəsidir. Bu, seçki prosesinin təşkili və keçirilməsi sahəsində təcrübə mübadiləsi kimi üzv dövlətlərin ərazisində demokratiyanın və qanunun aliliyinin inkişafına töhfə verir. Bu baxımdan MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq İnstitutunun (DİMBİ), o cümlədən onun Bakı filialının seçkilərin müşahidəsi prosesində fəaliyyəti və verdiyi töhfə də xüsusi diqqətə layiqdir.

Spiker Sahibə Qafarova çıxışında seçki proseslərinin monitorinqi sahəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayaraq, Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2024-cü il sentyabrın 1-də ölkəmizdə növbədənkənar parlament seçkilərinin keçiriləcəyi haqda məlumat verib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Belarus və Efiopiyanın parlament spikerləri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri çərçivəsində Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova və Efiopiya Federal Şurasının spikeri Aqeqnehu Teşager ilə görüşlər keçirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Respublika Şurasının sədri Natalya Koçanova ilə görüşdə Azərbaycan və Belarus arasında dostluq prinsiplərinə əsaslanan tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Tərəflər ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyədə inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolunu qeyd edərək, son dövrlərdə Azərbaycan və Belarus arasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivləşdiyini, imzalanan sənədlərin əlaqələrin daha da dərinləşməsini təmin etdiyini bildiriblər.

Söhbət zamanı ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə daha da inkişafının əhəmiyyəti vurğulanaraq, bu istiqamətlərdə mövcud imkanlarla bağlı fikir mübadiləsi də aparılıb.

Görüşdə Azərbaycan və Belarus parlamentlərinin əlaqələrin həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığından məmnunluq ifadə edilib.

Spiker Sahibə Qafarova özünün ötən ay Belarus Respublikasına rəsmi səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayıb.

Efiopiya Federal Şurasının spikeri Aqeqnehu Teşager ilə görüşdə də iki ölkə arasındakı əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri ilə bağlı müzakirələr aparılıb, bir sıra sahələrdə əməkdaşlıq imkanlarının olduğu bildirilib.

Görüşdə iki ölkənin parlamentlərinin müxtəlif beynəxalq təşkilatlarda birgə fəaliyyət göstərdiyi vurğulanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib. Efiopiyanın təşkilatın konfransında iştirakı xatırladılıb. Həmçinin qanunverici orqanlarımızda dostluq qruplarının fəaliyyət göstərdiyi, bu qruplar arasında qarşılıqlı səfərlərin həyata keçirilməsinin əhəmiyyəti bildirilib.

Efiopiya Federal Şurasının sədri Azərbaycanın Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində fəaliyyətini yüksək qiymətləndirərək, Azərbaycanın hərəkata sədrliyi dövründə irəli sürdüyü təşəbbüsləri təqdir edib.

Görüşlərdə bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da söhbət açılıb və Milli Məclisin Sədri Sahibə Qafarova COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə təşkil edəcəyi Parlament konfransı haqqında məlumat verib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sankt-Peterburqda bir sıra görüşlər keçirib

BRİCS ölkələrinin Parlament Forumu və Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Parlamentlərarası Assambleyası (MDB PA) Şurasının iclasında iştirak etmək məqsədilə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova tədbirlər çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko, Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin sədri Leji Jao, Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşlərdə parlamentlərarası əlaqələr və beynəlxalq əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*









# "Birləşdik-2024" təliminin açılış mərasimi olub





**Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının Müdafiə nazirlikləri arasında imzalanmış birgə plana əsasən, Qazaxıstanın Aktau şəhərində keçirilən "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təliminin təntənəli açılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iştirakçı ölkələrin hərbi qulluqçuları, media nümayəndələri və digər qonaqların qatıldığı tədbirdə təlimə cəlb edilən heyətin təmsil olunduğu ölkələrin Dövlət himnləri səsləndirilib, Dövlət bayraqları qaldırılıb.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan respublikalarının təlimdə iştirak edən hərbi qulluqçularının təntənəli keçidi olub.

Açılış mərasimində çıxış edənlər bu cür təlimlərin keçirilməsinin birgə fəaliyyətlərin planlaşdırılması və qarşılıqlı təcrübə mübadiləsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb, təlim iştirakçılarına uğurlar arzulayıblar.

Çıxışlardan sonra iştirakçılar üçün hazırlanan konsert proqramı tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, "Birləşdik-2024" beynəlxalq təlimində ölkəmiz Quru Qoşunlarının, Hərbi Hava Qüvvələrinin və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları, gəmi və aviasiya vasitələri ilə təmsil olunur.

# Genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlətimizin başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, həmin sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə:

- şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min nəfərə ümumilikdə 118 min manat məbləğində aylıq sosial ödəniş, 23,2 min şəxsə birdəfəlik ödəmə təyin olunub;
- şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6072 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil verilib;
- şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 65,6 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
- müharibə ilə əlaqədar əlilliyi olan 2173 nəfər 58,7 min reabilitasiya vasitəsi, o cümlədən 476 nəfər 572 ədəd yüksək texnologiyalı protezlə təmin olunub;
- şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 22 min nəfərin məşğulluğu təmin edilib, o cümlədən 10,6 min nəfər özünüməşğulluq proqramına cəlb olunub;




Postmüharibə dövründə həmin sosial dəstək paketi 128 min şəxsi əhatə edərək, onlara dəstəkyönümlü 350 min xidmət göstərilib.

# Prezident İlham Əliyevin Pakistana dövlət səfəri bu ölkənin və dünya mediasının diqqət mərkəzindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri bu ölkənin nüfuzlu media orqanlarının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, ingilis dilində nəşr olunan "The Express Tribune" qəzeti "Pakistanla Azərbaycan arasında əlaqələrin möhkəmləndirilməsinə dair 15 sənəd imzalanıb" sərlövhəli məqaləsində İslamabadda Azərbaycan ilə Pakistan arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə mübadiləsi mərasimi barədə məlumat verilib. Oxucuların diqqətinə çatdırılıb ki, iki ölkənin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu, tranzit və preferensial ticarət, mineral ehtiyatlar və geologiya, informasiya texnologiyaları və kommunikasiyalar, elm və texnologiya, kiçik və orta sahibkarlıq və digər sahələr üzrə sazişlər imzalanıb, həmçinin 2024-2029-cu illər üzrə mədəni mübadilə proqramının mübadiləsi olub.

"Whenewsenenglish" nəşrinin "Azərbaycan Prezidenti İlham Əliyev İslamabada iqtisadi əməkdaşlıq gündəliyi ilə gəlib" və "The İnternational News" qəzetinin "Azərbaycan Prezidenti Pakistanda iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edir" sərlövhəli məqalələrində vurğulanır ki, iki ölkə energetika, infrastruktur, nəqliyyat daşımaları və bir sıra digər sahələrdə, o cümlədən müdafiə sənayesində bir sıra layihələri nəzərdən keçirib. Prezident İlham Əliyev qeyd edib ki, iqtisadiyyat, ticarət və sərmayələr sahələrində güclü əlaqələr qurulacaq, qarşılıqlı ticarətin həcmi artırılacaq. Bu məqsədlə ilkin mərhələdə güzəştli ticarət formatına aid 9 maddə müəyyən edilib və bu, yalnız başlanğıcdır.

Pakistan dövlət radiosunun və "Associated Press of Pakistan" agentliyinin saytlarında dərc olunan "Prezident İlham Əliyev Pakistan milli abidəsinə əklil qoyub" sərlövhəli xəbərlərdə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı İslamabadda Pakistan xalqının milli birliyini təcəssüm etdirən monumentin önünə əklil qoyaraq qardaş xalqa dərin ehtiramını ifadə edib.

"Radio Pakistan"ın və "Associated Press of Pakistan" agentliyinin saytında, habelə "News of Pakistan" portalında Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərifin iştirakı ilə iki ölkə arasında sənədlərin imzalanması, həmçinin geniş tərkibdə keçirilən görüş haqqında məlumat verilib.

Materiallarda qeyd olunub ki, Baş nazir Şahbaz Şərif Pakistan xalqının Azərbaycan Prezidentinə olan ehtiramını ifadə edib, iki xalq arasında qarşılıqlı sevgi və qardaşlıq hisslərinin olduğunu bildirib. O, İslamabadın Qarabağ məsələsində Bakıya, Azərbaycanın isə Kəşmir probleminin nizamlanmasında Pakistana güclü dəstəyini xatırladıb. Prezident İlham Əliyev isə Pakistan və Azərbaycan xalqlarının çətin zamanlarda bir-birinin yanında olduğunu, 2020-ci ildə Vətən müharibəsi zamanı İslamabadın öz bəyanatları ilə Azərbaycana açıq şəkildə siyasi dəstək verdiyini qeyd edib, eyni zamanda Bakının Cəmmu və Kəşmir əhalisinin hüquqlarını qətiyyətlə dəstəklədiyini deyib.

"Minute Mirror" nəşrində dərc olunmuş "Şahbaz Şərif Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığı gücləndirir" sərlövhəli məqalədə qeyd edilib ki, Pakistanın Baş naziri qarşılıqlı mənfəətli layihələrə ilkin olaraq 2 milyard dollar dəyərində investisiyalarla bağlı müzakirə aparıldığını, noyabrda onun Azərbaycana səfəri zamanı bu sərmayəyə dair razılaşmaların imzalanmağa hazır olacağını deyib. Diqqətə çatdırılıb ki, tərəflər qarşıdakı illərdə bu rəqəmi daha da artırmağı planlaşdırır.

"İslamad Post", "Pakistan Today" qəzetləri" və "The İnternational News", "Mettis Qlobal" portalları da "Pakistan və Azərbaycan sərmayələrin həcmini 2 milyard dolara çatdırmaq barədə razılıq əldə ediblər" sərlövhəsi altında materiallar dərc ediblər.

Geniş oxucu auditoriyasına malik olan "Nation" qəzetində isə Azərbaycan Prezidenti İlham Əliyevin səfəri ilə bağlı analitik məqalə dərc olunub. Tanınmış pakistanlı siyasi icmalçı Tazin Axtarın müəllifi olduğu məqalədə qeyd olunur ki, Şərqlə Qərbin qovuşduğu və Avropaya qapı açan Cənubi Qafqazın inkişaf edən iqtisadi gücü olan Azərbaycan Respublikasının Prezidenti Pakistanda ikigünlük səfərdədir. O, ikitərəfli münasibətlərin əsl qurucusu olan atası, Ümummilli Lider Heydər Əliyevdən hərarətli hissləri və qardaşlıq qurmaq həvəsini miras almış lider, Pakistanın böyük dostudur.

Müəllif yazır ki, tarixən hər iki ölkə bir-biri ilə sıx bağlı olub. Qədimlərdə Multani tacirləri Bakıya səfər edirdilər. Bakının köhnə şəhərindəki Multan Saray onların bu gözəl küləklər şəhərinə ticarət səfərlərinin xatirəsidir. Pakistanın Qızılbaş icması Azərbaycandan köçərək torpaqları öz yurdlarına çevirib, sonralar burada Pakistan dövləti yaranıb.

Məqalədə diqqətə çatdırılıb ki, son bir neçə ildə liderlərin müxtəlif beynəlxalq forumlarda, xüsusən də cari ayın əvvəlində Astanada keçirilən ŞƏT-in Zirvə toplantısında görüşləri nəticəsində Azərbaycan ilə Pakistan arasında əlaqələr sürətlə inkişaf edir. Prezident İlham Əliyevin Pakistana səfəri bu təmasların kulminasiya nöqtəsidir. Hər iki ölkə demək olar ki, bütün istiqamətlər üzrə, o cümlədən ticarət, enerji və müdafiə sahələrində sıx, səmimi və inamlı əməkdaşlıq edir. Ona görə də Prezidentin səfəri ikitərəfli əməkdaşlıqda yeni səhifə açır.

Müəllif diqqətə çatdırır ki, Azərbaycan karbohidrogen ehtiyatları ilə zəngindir və hazırda Rusiya enerjisinin Avropaya nəqlinin qadağan olunduğu bir vaxtda Avropa İttifaqı ölkələrinin tələbatını ödəyir.

Məqalənin sonunda deyilir: "Pakistan-Azərbaycan qardaşlığı təkcə onillikləri əhatə etmir, onun kökləri əsrlərə gedib çıxır. İndi iki dövlət arasında münasibətlər ideal olduğundan, hər iki ölkənin liderləri bu nəhəng potensialı onların rifahı naminə əməkdaşlığa yönəldirlər".

Pakistanın urdu dilində nəşr olunan "Urdu.point", "Urdu. Dunya News" qəzetlərində və "Urdu.Dunya TV" telekanalının saytında da Prezident İlham Əliyevin dövlət səfəri çərçivəsində Pakistan Prezidenti Asif Əli Zərdari ilə geniş tərkibdə görüşü, Məhəmməd Şahbaz Şəriflə apardığı danışıqlar və liderlərin bəyanatları, həmçinin imzalanan sənədlər haqqında müfəssəl məlumatlar yer alıb.

Dövlətimizin başçısının Pakistana dövlət səfəri bu ölkənin mediası ilə yanaşı, dünyanın bir çox nüfuzlu mətbuat orqanları tərəfindən də geniş işıqlandırılıb. Səudiyyə Ərəbistanın "Arab News", "Əl Mədinə" qəzetləri, Küveytin KUNA rəsmi agentliyi, Bəhreynin BNA rəsmi xəbər agentliyi, Qətərin QNA informasiya agentliyi, Çinin "China.org.cn" portalı, Türkiyənin "Yeni Akit", "Akşam" qəzetləri, "24", "Haber Türk", EkolTV" telekanalları, Rusiyanın TASS agentliyi, "Vestikavkaza" portalı da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasına dövlət səfəri, bu çərçivədə aparılan danışıqlar və imzalanan sənədlər, Azərbaycanın qardaş ölkənin iqtisadiyyatına investisiya qoyacağı haqqında geniş materiallar yayıb.

# Cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin etibarlı təminində müsbət nəticələr əldə edilib

## Daxili İşlər Nazirliyində 6 ayın yekunları müzakirə olunub





**İyulun 12-də Daxili İşlər Nazirliyində 2024-cü ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısında cinayətkarlıqla mübarizədə müsbət nəticələrin əldə edildiyini, beynəlxalq və respublikaəhəmiyyətli kütləvi tədbirlərdə asayişin və təhlükəsizliyin etibarlı təmin olunduğunu, eyni zamanda qarşıda mühüm vəzifələrin durduğunu və onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib.

Qeyd olunub ki, ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 18518 cinayət qeydə alınıb, onların 94,5 faizi daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olub. 2023-cü ilin analoji dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər 21,7, mülkiyyət əleyhinə olanlar 11,4, oğurluqlar 38,9, quldurluqlar 10,3, soyğunçuluqlar 41,3, yetkinlik yaşına çatmayanların cinayətləri 27,4, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 3,9 faiz azalıb.

Həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə cinayətlərin 90,7 faizi, o cümlədən prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 246, görülmüş operativ cavab tədbirləri ilə 2314 cinayət açılıb, 4407 hüquqa zidd əməlin qarşısı alınıb, axtarışda olan təqsirləndirilən şəxslərin 79 faizi tutulub, 5053 ədəd müxtəlif növ atıcı silah yığılıb və tapılıb.

Mütəşəkkil cinayətkarlıqla mübarizə tədbirləri çərçivəsində 356, o cümlədən ağır və xüsusilə ağır cinayətlər törətmiş 119 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 179 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Qeyri-leqal dövriyyədən 2 ton 844 kiloqram narkotik vasitə çıxarılıb və 296 tondan artıq narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrasının davamlı nəzarətdə olduğu, bu baxımdan mediada qabaqcadan məlumat verilməklə 2764 şəxsin qəbul edildiyi və qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığı vurğulanıb.

Kollegiya iclasına yekun vuran nazir general-polkovnik V.Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində əldə olunmuş müsbət nəticələrin hesabat dövründə inkişaf etdirildiyini qeyd edib, eyni zamanda profilaktik tədbirlərin, kadr hazırlığı işinin, təhsil və təlim prosesinin təkmilləşdirilməsinin zəruriliyinə diqqət çəkərək müvafiq tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu vurğulayaraq cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə də toxunaraq son illər müvafiq sahədə əldə olunmuş müsbət nəticələrdə vətəndaşların fəal rolunu və mövqeyini yüksək qiymətləndirib, habelə polis-vətəndaş münasibətlərinin effektivliyinin, özünü daha çox mütəşəkkil qrup və dəstələr tərəfindən törədilən cinayətlərin azalmasında, o cümlədən narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılmasının artım tempində göstərməsindən, xüsusən vətəndaşların günbəgün artan köməkliklərindən məmnunluq ifadə edib.

İnsan haqlarının müdafiəsinə xidmət edən və cəmiyyətə fayda gətirən bu münasibətdən daha böyük gözləntilərin olduğunu vurğulayan nazir davamlı dəstəyə görə hər bir vətəndaşa təşəkkürünü bildirib, eləcə də qarşılıqlı əlaqələrin cəmiyyətdə sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması naminə inkişaf etdirilməsi üzrə polisin konkret vəzifələrini müəyyən edib.

Həmçinin yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında nəzərəçarpan azalmanın qeydə alındığını bildirərək dövlətin gələcəyi olan gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

Ölkədə aparılan antinarkotik təbliğatın gücləndirilməsini, əməliyyat-xidməti fəaliyyətin narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulmasını, respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksəkixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

Çıxışında gənclərin Polis Akademiyasında təhsilə təşviq edilməsi sahəsində son bir neçə ildə tətbiq olunan yenilikləri, xüsusən Elm və Təhsil Nazirliyi ilə birgə yaradılmış işçi qrupun fəaliyyətini dəyərləndirən nazir dövlət səviyyəsində keçirilən imtahanlarda yüksək nəticələr göstərən, polis peşəsini sevən və fiziki hazırlıqlı abituriyentlərin hər tədris dövründə artdığını, bu işin müasir polis əməkdaşının hazırlanmasında əhəmiyyətli rolunu təqdir edib, müvafiq tədbirlərin sistemli və əlaqəli davam etdirilməsi üçün nazirliyin aidiyyəti qurumlarına lazımi göstərişlər verib.

Prokurorluq orqanları ilə sıx qarşılıqlı əlaqədə həyata keçirilən tədbirlərin də önəmli nəticələr verdiyini, vətəndaşların qanuni mənafelərinin qorunmasına və qanunçuluğun möhkəmlənməsinə xidmət etdiyini, o cümlədən cinayətlərin, onların ağır və xüsusilə ağır növlərinin azaldığını, açılması və istintaqı sahəsində əhəmiyyətli irəliləyişlərin əldə olunduğunu vurğulayıb.

Eyni zamanda əvvəllər məhkum olunmuş şəxslər və qrup halında törədilən cinayətlərin azalmasına diqqət çəkərək bu sahədə Ədliyyə Nazirliyinin Penitensiar xidməti ilə birgə görülən işlərin səmərəli nəticələrini yüksək qiymətləndirib.

Yekunda general-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, vətəndaşların qanuni mənafelərinin və hüquq qaydasının qorunması sahəsində vəzifələr tam və layiqincə yerinə yetiriləcəkdir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir





İyulun 12-də Baş prokuror Kamran Əliyev Daşkəsən rayon prokurorluğunun inzibati binasında Daşkəsən, Göygöl, Samux, Kəlbəcər rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbulda iştirak edən 18 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov iyulun 12-də Sumqayıt şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Sumqayıt, Abşeron, Xızı, Cəbrayıl, Qubadlı, Şuşa, Zəngilan şəhər və rayonlarından olan vətəndaşları qəbul edib.

Dövlət Xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbulda 20 vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, övladlarının gələcək müddətli həqiqi hərbi xidmət yerinin müəyyənləşdirilməsi və s. məsələlərlə bağlı müraciət ediblər.

Xidmət rəisi qəbul zamanı hər bir vətəndaşın müraciətini dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. SHXÇDX-nin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara yönəldilib.



Azərbaycanın özü qədər əbədi

1969 2024

**55 il öncə - 1969-cu ilin qızmar 14 iyul günündə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumuna toplaşan insanlar dövlətçilik tariximizin şanlı səhifəsinə imza atacaqlarını yəqin ki, heç bilmirdilər. Onların nəzərində sovet Azərbaycanı sadəcə növbəti rəhbərini dəyişirdi.**

**Bu dəfə gənc və inzibati intizama böyük üstünlük verən generalı, nüfuzlu ictimai xadimi hakimiyyətə gətirirdilər.**

**Amma hər kəs Azərbaycanın düşdüyü vəziyyətdən narazı idi. Hər kəs vəziyyətin dəyişməsini istəyirdi. Hər kəsin ümidi yeni liderə idi...**



# İlk Qurtuluş günü

## 55 il öncə Azərbaycanda Heydər Əliyev dövrü - güclü dövlət, iqtisadi yüksəliş, milli-mənəvi intibah mərhələsi başladı

### Heydər Əliyev dövrü

Bu dövr Azərbaycanın xilasının birinci mərhələsi, yəni ilk Qurtuluş mərhələsi hesab olunur. Çünki həmin dövrdə Azərbaycan imperiyanın 15 respublikası arasında sosial-iqtisadi duruma görə 14-cü yerdə idi. Ölkədə böyük tənəzzül yaşanırdı. Məhz belə bir çətin dönəmdə Ümummilli Lider Heydər Əliyev üzərinə böyük məsuliyyət götürdü və sovet imperiyasının bütün ideoloji-siyasi maneələrinə baxmayaraq, ən ağır vəzifənin öhdəsindən gəlməyi bacardı, Azərbaycanın inkişaf konsepsiyasını formalaşdırdı.

Məhz buna görə də həmin tarixə, 55 il öncəyə müxtəlif kontekstlərdə yanaşmaq olar. Amma hansı istiqaməti təhlil etsək görərik ki, orada istinasız olaraq inkişaf, yüksəliş, intibah, müsbət dəyişikliklər, səmərəli islahatlar, effektiv nəticələr - ən yaxşı göstəricilər öz əksini tapıb. Bu baxımdan tam əminliklə deyə bilərik ki, Azərbaycan tarixində 1969-cu il Ulu Öndər Heydər Əliyevin ilk Qurtuluş missiyası idi.

Bəs, Azərbaycan nədən qurtulurdu?!

Bu suala cavab tapmaq üçün məhz 1969-cu ilin mənzərəsinə nəzər yetirmək kifayətdir. Danılmaz həqiqətdir ki, 1960-cı illərin axırlarında Azərbaycan iqtisadi-sosial, həmçinin milli-mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş oldu. Milli ruhun inkişafı və intibahı dövrü başladı. Həmin zamanda Azərbaycan keçmiş ittifaqda sosial-iqtisadi göstəricilərinə görə geridə idi. Amma Ulu Öndər qeyri-adi idarəçilik bacarığı, polad iradəsi ilə respublikamızda bütün sahələrin inkişafında böyük sıçrayışa nail oldu və Azərbaycanı inkişaf səviyyəsinə görə ittifaqda 14-cü yerdən 4-cü yerə yüksəltdi.

Bu o demək deyildir ki, digər respublikalarda inkişaf, quruculuq yox idi. Xeyr, hamısı inkişaf edirdi. Sadəcə, Heydər Əliyevin idarəçilikdə dinamikası, bacarığı, qabiliyyəti, liderliyi elə möhtəşəm səviyyədə idi ki, Azərbaycan daha sürətlə irəliləyir, daha böyük nailiyyətlər qazanırdı. Azərbaycan məhz müstəqillik dövrünə hazırlanırdı. Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu, əslində, 1969-cu ildən - məhz Ulu Öndərin hakimiyyətə gəlişindən sonra başladı.

### İqtisadi yüksəliş, hərtərəfli tərəqqi, inqilabi dəyişikliklər

Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə görülən işlərin miqyasına nəzər yetirsək, həqiqətən bu qısa zamanda respublikamızın sürətli inkişaf yolu keçdiyinə şahidlik etmiş olarıq. Gəlin həmin dövrdə Heydər Əliyevin kreativ ideyaları, təşəbbüsləri ilə Azərbaycanın əldə edilən davamlı sosial-iqtisadi inkişaf göstəricilərinə və ölkəmizdə yaradılan infrastrukturlara nəzər yetirək.

Məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 13 ildə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verildi. Sənaye və kənd təsərrüfatı istehsalı 2,7 dəfə artdı, tələbat mallarının istehsalı 3 dəfə yüksəldi, taxıl, pambıq, üzüm, ipək, tərəvəz, tütün, bostançılıq məhsulları istehsalı sahəsində məhsuldarlıq 2,6 dəfə çoxaldı. Taxıl istehsalı 573,9 min tondan 1 milyon 211,3 min tona, üzüm istehsalı 272 min tondan 1 milyon 725,4 min tona, pambıq istehsalı 299,4 min tondan 831,2 min tona qalxdı. Neft hasilatı 2,8 dəfə, maşınqayırma və metal emalı 3,3 dəfə, kimya və neft kimyası 2,8 dəfə artdı.

Sənayedə 4400 adda yeni maşın, cihaz, avadanlıq və digər məmulatlar istehsal olundu. Bunlardan 400-ü keçmiş SSRİ-də ilk dəfə istehsal edilirdi.

Əgər 1969-cu ilədək olan 100 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə - cəmi 13 il ərzində onların sayı 1048-ə çatdırıldı. 1972-ci ildə Bakıda indiki Heydər Əliyev Sarayı, 1975-ci ildə isə Bakı Məişət Kondisionerləri zavodunun açılışı oldu. 1976-cı ildə Yuxarı Xanbulançay su anbarının tikintisi başa çatdırıldı, daha sonra Sərsəng su anbarı, Bakı Dərin Özüllər Zavodu istifadəyə verildi. 1980-ci ildə "Gülüstan" sarayı tikildi, Yeni Əhmədli, Günəşli kimi böyük yaşayış massivləri, həmçinin mikrorayonlar salındı. 1969-1982-ci illərdə ölkəmizdə ümumilikdə 20,4 min kilometr uzunluğunda asfalt yollar çəkildi.

Azərbaycan neft ölkəsi olsa da, əslində, neft sənayesində də ciddi axsamalar var idi. Bu da əlbəttə ki, Heydər Əliyevi narahat etməyə bilməzdi. Məhz Heydər Əliyevin sayəsində bu sahədə həyata keçirilən tədbirlər nəticəsində respublikamızda neft hasilatı 2,8 dəfə, kimya və neft kimya istehsalı 2,8 dəfə artdı.

Bunlar sadəcə rəqəmlər deyil. Bu göstəricilər Heydər Əliyevin neft strategiyasında, Azərbaycan iqtisadiyyatında baş vermiş inqilabi dəyişikliklərin bariz təcəssümü idi.

### Azərbaycançılıq ideologiyası və milli özünəqayıdışın başlanğıcı

Tarixdən bəllidir ki, sovet hakimiyyətinin ilk dövrlərindən etibarən bu quruluşda kommunist ideologiyasına bağlı olmayan hər şeyin üzərindən xətt çəkirdilər. İnanclar, ənənələr, hətta milli musiqi belə keçmişin qalığı hesab olunurdu. Təbii ki, bütün bunlar Azərbaycana da çox ağır şəkildə təsir etmişdi. Ölkəmizdə güclü milli-mənəvi aşınma getmişdi.

Amma Ümummilli Lider qısa müddət ərzində xalqda milli özünüdərk hissini gücləndirə, milli kimliyi, düşüncə sistemi barədə dolğun təsəvvür formalaşdıra bildi. Həmin illərdə milli-mənəvi dəyərlərə yad baxış aradan qalxdı, möhkəm mənəvi-ideoloji bünövrə formalaşdı.

Heydər Əliyevin respublikaya rəhbərliyinin əsas fəaliyyət istiqaməti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanışı məramına hesablanmışdı. Bu hədəfə nail olmaq üçün Heydər Əliyev rejimin ideoloji repressiya maşınının azərbaycançılıq məfkurəsini boğmasına imkan vermədi, düşüncə sahibi olan ziyalıları qorudu. Heydər Əliyevin azərbaycançılıq ideologiyası sayəsində xalqımızın, o cümlədən soydaşlarımızın birlik və həmrəyliyinə nail olundu. Bu ideyanın əsas qayəsini Azərbaycan dilinə həqiqi dövlət dili statusunun qazandırılması, dilimizin qorunmasına və inkişafına yüksək diqqət göstərilməsi təşkil edirdi.

Ulu Öndər ana dilini milli özünüdərk yolunda ən mühüm amillərdən biri kimi dəyərləndirir, bu istiqamətdə cəsarətli və uzaqgörən addımlar atırdı. Böyük şəxsiyyət sanki gələcəyi görür, Azərbaycanın gələcək müstəqilliyi üçün hələ sovet dövründə mütəmadi iş aparırdı. Bu ideyanın əsasında, ilk növbədə, yüksəkixtisaslı milli kadr potensialının yaradılması dayanırdı.

Heydər Əliyevin Azərbaycan dilinə həqiqi dövlət dili statusu qazandırmağa yönəlmiş fəaliyyətinin bəhrəsi olaraq, 1978-ci il Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit olundu. Azərbaycandilli məktəbin, maarifin inkişafına diqqət artırıldı, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edildi, ana dilində təhsilə üstünlük verildi. Azərbaycandilli mətbuatın inkişafı təmin olundu. Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırıldı, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları nəşr edildi. Ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Dövlət mükafatına layiq görüldü. Ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə ana dilinin nüfuzu bir daha təsdiq edildi. Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutu yaradıldı.

1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verildi. Respublikada ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırıldı. Keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəblərində 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin olundu.

Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələnə qədər respublikamızdan kənara hər il 47 nəfər ali təhsil almağa göndərilirdi. Göndərilən 47 nəfərin də az bir hissəsini azərbaycanlılar təşkil edirdi. 1975-ci ildə isə onların sayı 700 nəfərə çatdı. Həmin dövrdən başlayaraq azərbaycanlı gənclərin respublikadan kənarda təhsil alması intensiv xarakter aldı. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ilk növbədə ziyalılarımız azad nəfəs almağa başladılar.

Azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılıb. Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsindən sonrakı dövr həm də milli özünüdərkin, milli özünəqayıdışın başlanğıcı kimi qəbul edilir.

### Heydər Əliyevsizlik dövrü və ikinci Qurtuluş missiyası

Təəssüflə qeyd etməliyik ki, 1980-ci illərin sonunda, yəni Heydər Əliyevsizlik dövründə Azərbaycan qazanılan nailiyyətləri itirdi, böyük problemlərə, böhrana, tənəzzülə sürükləndi. Heydər Əliyevsizlik dövrü ilə Azərbaycanın təlatümlü, böhranlı, məğlubiyyət tarixi başladı. Qarabağda separatçılıq ocağı qalandı. Ardınca isə qanlı savaş, torpaq itkiləri, vətəndaş müharibəsi, iqtisadi-sosial tənəzzül dövrü gəldi. Azərbaycan təkləndi.

1988-1993-cü illərin məşəqqətlərini, böhranlarını, məğlubiyyətlərini hamılıqla yaşamışıq. Yarıtmaz, xəyanətkar, avantürist rəhbərlərin və onların millilikdən uzaq komandalarının səhvlərini, bəzən isə bilərəkdən törətdikləri fəsadlarını dövlətimiz, xalqımız taleyimizin ən acı günləri kimi yaşayıb.

Heydər Əliyevsizlik dövründə Ermənistandan həmvətənlərimizin köçürülməsinə, Qarabağda isə işğala başlanıldı. Sovet respublikalarında mərkəzdənqaçma meyillərinin gücləndiyi, müstəqillik ideyalarının geniş yayıldığı həmin dövrdə Azərbaycana başçılıq edənlər SSRİ rəhbərliyinin erməni təəssübünü çəkən fəaliyyəti qarşısında qətiyyətsizlik nümayiş etdirir, etirazlarını ifadə edə bilmirdilər. Sovet ordusu tərəfindən Bakıda 20 Yanvar faciəsinin törədilməsi də odövrkü Azərbaycan rəhbərliyinin öz millətinə qarşı xəyanətinin nəticəsi idi.

Amma xüsusilə qeyd etməliyik ki, Heydər Əliyev kimi şəxsiyyətlər harada və hansı vəzifədə çalışmalarından asılı olmayaraq, cəmiyyətin milli amallar uğrunda mübarizəsinin önündə gəlirlər. Təsadüfi deyil ki, Azərbaycana rəhbərlik etdiyi, habelə SSRİ rəhbərliyində çalışdığı illərdə respublikamızın yüksəlişi üçün əlindən gələni əsirgəməyən Heydər Əliyev 1990-cı illərin əvvəllərində özünün vətən sevgisi, xarizması və liderlik keyfiyyətləri ilə xalqımızın müstəqillik mübarizəsini yeni mərhələyə yüksəltdi. Tarix Ulu Öndərə 1969-cu ildə başlatmış olduğu Qurtuluşu 1993-cü ildə də ikinci dəfə yazmağı nəsib etdi.

1969-cu ilin iyulunda Azərbaycanın vəziyyəti necə idisə, 1993-cü ilin iyununda ondan da qat-qat artıq təhlükəli, fəlakətli, faciəli idi. Heydər Əliyev 1993-cü ildə tarixi qayıdışı ilə ikinci xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi. Ulu Öndərin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan xilas oldu. Məhz Heydər Əliyevin qətiyyəti, xalqın öz rəhbərinin ətrafında sıx səfərbər olmasının nəticəsində antiazərbaycançı şəbəkələrin planları iflasa uğradı. Ümummilli Liderimiz qısa vaxt içərisində ölkədə sabitliyi və əmin-amanlığı bərpa etdi.

Heydər Əliyev ikinci Qurtuluş missiyasını da uğurla yekunlaşdırdı və müstəqilliyini itirmək təhlükəsində olan respublikamızı nicat, yüksəliş yoluna istiqamətləndirdi.

Məhz buna görə də Azərbaycan xalqı Ulu Öndəri həm də xilaskar lider adlandırır və onun dövlət, millət üçün ərsəyə gətirdiyi misli görünməyən uğurları heç zaman unutmur. Əməlləri, ideyaları, uzaqgörən siyasəti, böyük cəsarət və siyasi iradəsi, fenomenal yaddaşı ilə xalqın qəlbində əbədi heykəlini ucaldan Ulu Öndər olmasaydı, bəlkə də bu gün müstəqil Azərbaycan yox idi.

Heydər Əliyevin şanlı adını yaşadan Azərbaycan xalqıdır, sadə Azərbaycan vətəndaşlarıdır. Amma Ulu Öndərin adını yaşadan bir ünvan da onun ideyalarını təcəssüm etdirən Heydər Əliyev Fondudur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fondun missiyası, həyata keçirdiyi çoxşaxəli layihələr bu gün Ulu Öndərin ruhunu şad edir. 2004-cü ildən fəaliyyətə başlayan fond ötən 20 ildə ölkəmizdə təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, Azərbaycanın sosial-iqtisadi inkişafına misilsiz töhfələr verir. Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələr reallaşdırır.

Saysız-hesabsız layihələri, təşəbbüsləri, xeyirxahlıqları ilə bunlara nail olmağı bacaran fond Azərbaycanda insanların mənəvi dostuna çevrilib. İnsanlar nicat qapısının açarının bu xeyirxah fondda olduğuna inanaraq əminliklə oraya üz tutur və ümidlərində yanılmadıqlarını görürlər.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fond Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə başlanmış genişmiqyaslı abadlıq və yenidənqurma işlərinin reallaşdırılmasına da layiqli töhfələrini verib. Qarabağ və Şərqi Zəngəzurdakı tarixi, dini-mədəni abidələrimizin bərpası və təmiri prosesini məhz Heydər Əliyev Fondu həyata keçirib, elə bu gün də müxtəlif layihələr reallaşdırmaqdadır.

### Heydər Əliyevin ordu quruculuğundan İlham Əliyevin şanlı Zəfərinədək

İkinci Qarabağ müharibəsindəki şanlı Zəfər, 2023-cü ildə həyata keçirilən antiterror tədbirlərindən sonra ərazi bütövlüyünü, suverenliyini tam təmin edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Əlbəttə ki, bütün bunların memarı Ulu Öndərin siyasi məktəbinin ən layiqli məzunu Müzəffər Ali Baş Komandan, tariximizin ən güclü sərkərdəsi cənab İlham Əliyevdir.

Əldə etdiyimiz hərbi Zəfərin əsası Heydər Əliyevin ordu quruculuğu siyasəti ilə qoyulub. 1969-cu ildə hakimiyyətə gəlişindən 2 il sonra Ulu Öndər dövlətin hərbi qüdrətini gücləndirmək, gələcəkdə etibarlı əllərə təhvil vermək üçün milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbi yaratdı. Məhz həmin dövrdən başlayaraq Ulu Öndər azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə nail oldu. Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və digər hərbi məktəblərdə yetişən milli zabit kadrlarımızın Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci və İkinci Qarabağ müharibəsində misilsiz igidliklər göstərdilər.

Ulu Öndərin siyasi kursunun davamçısı cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan xalqından etimad mandatı alarkən dahi şəxsiyyətin müəyyənləşdirdiyi yolla davam edəcəyinə və onun ideyalarını, ən əsası isə müqəddəs Ata vəsiyyətini yerinə yetirəcəyinə söz vermişdi. Azərbaycan xalqının 30 illik həsrətinə, keçmiş Dağlıq Qarabağ münaqişəsinə birdəfəlik son qoyacağına verdiyi sözü tutmaq üçün cənab İlham Əliyev ilk növbədə dövlətin iqtisadi qüdrətini gücləndirdi və bundan sonra həm tariximizin, həm də regionun ən güclü ordusunu və ən nəhəng müdafiə sənayesini qurdu, vətənpərvər gənclik yetişdirdi. 30 ildir işğalda qalan Qarabağ və Şərqi Zəngəzuru azad etməklə, ərazi bütövlüyü və suverenliyimizi tam bərpa etməklə, cənab İlham Əliyev Müzəffər Ali Baş Komandan kimi Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müəssər olmayan zirvəyə ucaldı.

Azərbaycan Respublikası isə tarixinin ən qüdrətli dövrünə qədəm qoydu. Ümummilli Lider Heydər Əliyevin görmək istədiyi mənzərə də məhz bu idi!

Bu gün ölkəmiz, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə qüdrətli, qalib Azərbaycanının qürurunu, fəxarətini yaşayır. Bu gün inkişaf, yüksəliş nəyə deyiriksə, onların hər birinin əsası Ulu Öndər tərəfindən qoyulub.

Bu gün Şuşada, Xankəndidə və bütün sərhədlərimiz boyu bayrağımızın dalğalanmasının səbəbi də məhz Heydər Əliyevin Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəbini açması və oradan başlanan Zəfər yoludur.

Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminatçısı, Qərb dövlətlərinin bir çoxunun enerji ixracatçısıdırsa, bunun əsasını 1994-cü ilin sentyabrında Ulu Öndərin imzaladığı "Əsrin müqaviləsi" təşkil edir.

Bu gün Azərbaycan Avrasiyanın logistika və tranzit mərkəzi kimi tanınırsa, Şərq-Qərb, Şimal-Cənub və eləcə də Orta dəhlizin formalaşmasında mühüm aktor kimi Avropa ilə Asiya arasında körpü rolunu oynayırsa, bunun bünövrəsi Heydər Əliyevin gərgin əməyi sayəsində Naxçıvanda Araz çayı üzərində salınan "Ümid körpüsü"ndən başlayır.

Bu gün Azərbaycan bütün göstəricilər üzrə Qafqazın lider dövləti hesab olunursa, bunun da əsasını Heydər Əliyevin sosial-iqtisadi inkişaf konsepsiyası təşkil edir.

Birmənalı şəkildə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin layiqli varisi kimi cənab İlham Əliyev dünya miqyasında qlobal lider kimi qəbul edilir. Bunu Azərbaycan Prezidenti verdiyi sözə sadiqliyi, etibarlı tərəfdaşlığı və ən əsası da yürütdüyü tam müstəqil siyasət sayəsində qazanıb. Dünyada elə bir mötəbər beynəlxalq toplantı yoxdur ki, Azərbaycan Prezidenti oraya dəvət almasın və çıxış etməsin. Çünki cənab İlham Əliyev bütün konfranslarda, sammitlərdə dünyanı narahat edən məsələləri, həqiqətləri səsləndirir və güclü dövlətləri bəşəriyyəti təhdid edən problemlərlə mübarizəyə, həmrəyliyə çağırır. Bunu BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatına sədrliyi dövründə Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslər, reallaşdırdığı layihələr bir daha təsdiqləyir.

Əlbəttə ki, bütün bunlar cənab İlham Əliyevin yüksələn beynəlxalq nüfuzunun əyani təzahürüdür. Ötən həftə Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə görüşünə Azərbaycan Prezidentinin ikinci dəfə fəxri qonaq kimi dəvət edilməsi, eyni zamanda türk dünyasının liderlərinin Qarabağdan bir daha birlik, həmrəylik nümayiş etdirmələri cənab İlham Əliyevin diplomatiyası sayəsində Azərbaycanın artan nüfuzu və dövlət başçımızın qlobal miqyaslı lider kimi şəxsiyyətinə dərin hörmət və ehtiramın göstəricisidir.

Dünya siyasətində önəmli rolunu getdikcə artıran Azərbaycan Prezidentinin Cənubi Qafqazda yaratdığı reallıqlar da beynəlxalq birlik tərəfindən qəbul edilir. Regionda təhlükəsizliyin təminatı isə Azərbaycanla Ermənistan arasında imzalanacaq sülh müqaviləsindən keçir. Bu müqavilə qalib tərəf kimi cənab İlham Əliyevin irəli sürdüyü şərtlər əsasında imzalana bilər. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması dövlət başçısının da qeyd etdiyi kimi, yalnız Ermənistan konstitusiyasına dəyişiklik ediləcəyi halda mümkündür. Yəni Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır. Əks təqdirdə sülh olmayacaq. Ancaq son danışıqlar, sərhədlərin demarkasiya və delimitasiya prosesi göstərir ki, sülh müqaviləsi yaxın zamanlarda imzalana bilər.

*Əgər sülh müqaviləsi imzalanarsa, bu, bölgənin hərtərəfli inkişaf edəcəyini, həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevlə Azərbaycanın yeni-yeni zəfərlərə doğru inamla addımlayacağını söyləməyə əsas verir.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***



## Azərbaycanın özü qədər əbədi

1969 2024

# Milli intibahın başlanğıcı





**Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsinin 55-ci ildönümü münasibətilə Naxçıvanda "14 iyul 1969-cu il: Azərbaycanda milli intibahın başlanğıcı" adlı konfrans keçirilib.**



Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.

Sonra Heydər Əliyev Sarayının foyesində təşkil olunan sərgiyə baxış olub. Sərgidə Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsində mühafizə olunan və 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Ulu Öndərin Naxçıvan səfərlərinin yaddaqalan məqamlarını, muxtar respublika sakinləri ilə səmimi görüşlərini və mətbuatda çıxışlarını əks etdirən fotolar nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli 2024-cü il iyulun 14-də Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 55-ci ildönümü münasibətilə hər kəsi təbrik edib. Səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir.

Səlahiyyətli nümayəndə bildirib ki, ötən əsrin 60-cı illərində Azərbaycanda durğunluq hökm sürürdü, respublika iqtisadi göstəricilərinə görə, ittifaq miqyasında sonuncu yerlərdən birində idi. Bu acınacaqlı vəziyyətə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra son qoyulub. Beləliklə, 1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil olub. Həmin illərdə 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektlər istifadəyə verilib, 630 min yeni iş yeri açılıb. Sənaye istehsalı 2,7, tələbat mallarının istehsalı 3, kənd təsərrüfatı istehsalı 2,7, neft hasilatı 2,8, maşınqayırma və metal emalı 3,3 dəfə artıb. Əgər 1969-cu ilədək olan 50 il ərzində Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə onların sayı 1048 olub. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilib, respublikada ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılıb.

Fuad Nəcəfli diqqətə çatdırıb ki, ötən əsrin 70-ci illərində Ulu Öndər xalqın yaradıcılıq enerjisini vahid məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində gələcəyə hesablanmış qətiyyətli addımlar atıb, mühüm qərarlar qəbul edib. Milli hərbi kadrların yetişdirilməsi məqsədilə 1971-ci ildə Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılıb. Məhz görülən bu işlərin sayəsində Azərbaycanda milli ruh canlanıb, özünüdərk və soykökə qayıdışı təmin edilib, azadlıq və müstəqillik duyğuları milli düşüncədə üstünlük təşkil etməyə başlayıb, bir sözlə, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşları qoyulub.

Səlahiyyətli nümayəndə 1982-ci ildə Ümummilli Liderin Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilməsini və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmasını Azərbaycan tarixində mühüm hadisə kimi dəyərləndirib. Vurğulayıb ki, ittifaq idarəçiliyində ən yüksək pilləyə yüksələn yeganə azərbaycanlı kimi Ulu Öndər o illərdə də Azərbaycana diqqət və qayğısını əsirgəməyib, respublikamızın ictimai-mədəni həyatı ilə daim maraqlanaraq Azərbaycanın gələcək müstəqilliyi üçün ciddi əsaslar yaradıb.

Fuad Nəcəfli Ümummilli Liderin dövlətçilik fəaliyyətindən danışarkən böyük ömrün 1990-1993-cü illəri əhatə edən Naxçıvan mərhələsindən xüsusi bəhs edib. Qeyd edib ki, həmin illərdə dahi şəxsiyyət, bütövlükdə, müstəqil dövlətçiliyimizin əsaslarını işləyib hazırlayıb. Ulu Öndərin hakimiyyətə qayıtdığı 1993-cü ilin 15 iyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazılıb. Bu dövrdən etibarən Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoyub. İqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasət nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artıb. "Əsrin müqaviləsi"nin praktiki cəhətdən reallaşması və bir çox sahələrə sərmayələrin yönəldilməsi sayəsində sənayedə dirçəlişin təməli qoyulub. 1993-cü ildən başlayaraq kənd təsərrüfatı sahəsi yenidən dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilib. 1993-2002-ci illərdə istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən 70-dən çox yeni obyekt inşa edilib, bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının və sosial sahələrin inkişafına 8,2 milyard manat investisiya yönəldilib. 2002-ci ildə əsas kapitala yönəldilmiş investisiyanın həcmi 1993-cü ilə nisbətən 36,3 dəfə, dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artıb, 74 mindən artıq yeni mənzil, 82 yeni ümumtəhsil məktəbi istifadəyə verilib.

"Bu gün Azərbaycan dünyada sürətlə və dinamik inkişaf edən dövlətdir", - deyən Fuad Nəcəfli vurğulayıb ki, ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. İkinci Qarabağ müharibəsində qazanılmış tarixi qələbə güclü dövlət-güclü ordu konsepsiyasının və xalq-Lider birliyinin təntənəsidir. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanı böyük qələbəyə və uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirib. Bu gün dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq nəhəng transmilli nəqliyyat və enerji layihələri həyata keçirən Azərbaycanın bu təşəbbüsləri dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənir, ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır. Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım almadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük qayıdış proqramı çərçivəsində uğurlu addımlar atılır.

Səlahiyyətli nümayəndə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işləri də xüsusi qeyd edib. Vurğulayıb ki, Ümummilli Liderin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədilə mühüm addımlar atan Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilib. Mehriban xanım Əliyevanın sivilizasiyalararası dialoqa verdiyi töhfələr, Azərbaycanın siyasi, ictimai, sosial və mədəni həyatında fəal iştirakı, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətləri, həmçinin ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyi, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyi ona böyük xalq sevgisi qazandırıb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli çıxışının sonunda Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib və fəxrlə vurğulayıb ki, müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrü respublikamızın inkişaf və tərəqqi illəri kimi səciyyələndirib. Qeyd edib ki, Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ərəfəsində respublikamız çox ciddi problemlərlə üz-üzə idi. Amma dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələr inkişaf etməyə başladı. Bir sıra mühüm qərarlar qəbul edildi və nəticədə, Azərbaycan keçmiş ittifaq respublikaları arasında ön sıralara çıxdı.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxışında diqqətə çatdırıb ki, Ulu Öndərin respublikamızın problemlərini dərindən bilməsi, onların həlli yollarını müəyyənləşdirməsi, ən başlıcası isə bütün xalqı vahid məqsəd ətrafında birləşdirməsi gələcək uğurlar və inkişaf üçün əsas oldu. Heydər Əliyev hakimiyyətinin birinci mərhələsində Azərbaycanı geridə qalmış aqrar ölkədən inkişaf etmiş aqrar-sənaye ölkəsinə çevirdi.

Konfrans Naxçıvan Televiziyasının təqdim etdiyi "14 iyul Zirvəsi" adlı sənədli filmin nümayişi ilə başa çatıb. Filmdə Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illərdə milli dövlətçiliyimizin yaradılması və gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən bəhs edən arxiv materialları, çıxışları təqdim olunub.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# Şərəf salnaməsi

**Azərbaycanın uğur tarixi 55 il öncə başlayıb. 55 il əvvəl - 1969-cu ilin iyulunda Ümummilli Lider Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Məhz bu tarixdən başlayaraq ölkəmizdə inkişaf mərhələsinin əsası qoyuldu. Hər şeydən öncə, Azərbaycan xalqının milli ruhunun oyadılması istiqamətində addımlar atıldı. Həqiqətən də bir ölkədə milli kimliyə, identikliyə istinad etmək, əsl tərəqqini təmin etmək, gələcəyi qurmaq olduqca çətindir.**



Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldikdən sonra xalqımızın milli-mənəvi dəyərlərini ümummilli inkişafın əsas hərəkətverici elementinə çevirdi. O, keçmiş sovet siyasi sistemində çox böyük nüfuza sahib idi, SSRİ-nin ali idarəetmə orqanı olan Siyasi Büronun üzvü idi. Bu amillər və yüksək idarəçilik keyfiyyətləri Heydər Əliyevə imkan verdi ki, qısa zaman kəsiyində Azərbaycanda, sözün əsl mənasında, iqtisadi sıçrayışı təmin etsin.

Azərbaycan zəif aqrar ölkədən sürətlə inkişaf edən sənaye ölkəsinə çevrildi. Məhz Heydər Əliyevin nüfuzu, iradəsi və qətiyyəti sayəsində ittifaqın başqa yerləri üçün nəzərdə tutulmuş mühüm layihələr Azərbaycanda həyata keçirildi. Tez bir zamanda ölkəmizdə iri sənaye obyektləri, müxtəlif istehsal sahələri yaradıldı və Azərbaycan SSRİ-nin ən sürətlə inkişaf edən respublikalarından birinə çevrildi. Əslində, bu, həm də Azərbaycanın digər respublikalardan asılılığının aradan qaldırılmasına hesablanmış addımlar idi. Ölkəmizlə bərabər xalqımız da ən qabaqcıl xalqa çevrilirdi. Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə daim öndə olmağı, davamlı uğur qazanmağı, öz kimliyini daha yaxından dərk etməyi və tanımağı öyrəndi.

Ulu Öndər Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, tanıdılması, milli identiklik hisslərinin gücləndirilməsi məsələlərini daim öz şəxsi nəzarətində saxlayırdı. Xalqımızın tarixi yaddaşının yenilənməsi, uğurlu dövlətçilik ideyalarının formalaşdırılması və həyata keçirilməsi sonrakı mərhələdə daha güclü Azərbaycan dövlətinin qurulmasının ən vacib şərtlərini təşkil edirdi. Azərbaycan xalqının görkəmli nümayəndələrinin daim anılması, xatirələrinin əbədiləşdirilməsi istiqamətində xüsusi tədbirlərin keçirilməsi, yubileylərinin qeyd edilməsi ənənəsinin formalaşdırılması Heydər Əliyevin xalqımız qarşısında çoxsaylı xidmətlərindən idi.

SSRİ-nin süqutundan sonrakı müstəqilliyinin ilk illərində olduğu kimi, Heydər Əliyev Azərbaycanın rəhbəri seçildiyi dövrə qədər də ölkənin həm sosial-iqtisadi, həm də siyasi həyatında ciddi böhran hökm sürürdü. Belə ki, elə həmin dövrdə hakimiyyət uğrunda gizli mübarizə, siyasi intriqalar sosial-iqtisadi inkişaf, milli-mənəvi birlik məsələlərini tam arxa plana keçirmişdi. Bu baxımdan, tam əsasla deyə bilərik ki, Heydər Əliyev 1969-cu ildə də ölkəmizin rəhbərliyinə gəlməklə ilk xilaskarlıq missiyasını yerinə yetirdi. Hər şeydən öncə xalqın mənəvi-psixoloji vəziyyətinə neqativ təsir göstərən halların aradan qaldırılması üçün olduqca təsirli addımlar atdı, soydaşlarımızı böyük uğurlara, zəfərlərə köklədi. Həmin dövrdə də keyfiyyətli, çevik dövlət idarəçiliyi sisteminin qurulmasını inkişafın əsas şərti kimi görən Ümummilli Lider Heydər Əliyev sözügedən istiqamətdə də qısa zaman kəsiyində ciddi proqressiv dəyişiklikləri şərtləndirən tədbirlər gördü, addımlar atdı.

Azərbaycan xalqının rifahı, davamlı milli inkişafı şərtləndirəcək dövlət idarəçiliyi sisteminin qurulması istiqamətində Heydər Əliyevin atdığı ən təsirli addımlardan biri də milli kadrların hazırlanmasından ibarət oldu.

Ötən əsrin 90-cı illəri ilə paralellik aparmış olsaq, Heydər Əliyev birinci dəfə də hakimiyyətə gələndə həmin dövrün reallıqlarına uyğun olaraq ölkəmizin unikal inkişaf konsepsiyasını yaratdı. Çünki o vaxt da ölkəni dərin və uzunmüddətli sosial-iqtisadi böhrandan xilas etmək üçün düşünülmüş, hərtərəfli fəaliyyətləri özündə ifadə edən inkişaf strategiyasının hazırlanmasına böyük ehtiyac var idi.

Dahi lider özünün unikal idarəçilik keyfiyyətlərinə, qətiyyətinə və siyasi iradəsinə söykənərək ölkənin sosial və iqtisadi sahələrində köklü müsbət dəyişiklikləri şərtləndirən və bununla da, keyfiyyətcə yeni inkişaf mərhələsinin əsasını qoyan strategiyanı formalaşdırdı. Bu yeni inkişaf strategiyası sosial-iqtisadi, mənəvi-mədəni inkişafa mane olan bütün halların aradan qaldırılması ilə yanaşı, həm də yeni inkişaf hədəflərinin müəyyənləşdirilməsinə və onlara effektiv çatmağı şərtləndirəcək mexanizmlərin tətbiqinə imkan verdi. Beləliklə, bugünkü inkişafımızda təsirli rol oynayan müxtəlif sahələrdəki resurs potensialları həmin dövrdə Heydər Əliyev tərəfindən artıq formalaşdırılmışdı.

Azərbaycan xalqının sosial-iqtisadi tərəqqisi onun milli özünüdərk hisslərini də oyadır və gücləndirirdi. Ölkəmizlə bərabər xalqımızın obrazı da yenilənirdi.

Ümummilli Lider müstəqil fikir sahibləri olan yaradıcı insanları irəli çəkirdi, onlara hər cür şərait yaradırdı. Ölkənin hər yerində geniş infrastruktur quruculuğu həyata keçirilirdi, inzibati mərkəzlər, ali məktəblər, mədəniyyət sarayları və s. yaradılırdı. Heydər Əliyev böyük uzaqgörənliklə hesab edirdi ki, xalqın mənəvi-psixoloji ruhunun yenilənməsi, milli-mədəni dəyərlərə həssaslıq onun milli özünüdərk hisslərinin gücləndirilməsinin ən vacib şərtləridir. Bu mənada, Azərbaycan dilinin qorunub saxlanılması, inkişaf etdirilməsi Ümummilli Liderin ölkəmizin inkişaf strategiyasının mərkəzi xəttini təşkil etdi. Belə ki, məhz Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində Azərbaycan SSRİ-nin 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu təsbit edildi. Bu, Azərbaycan xalqının və dövlətçiliyinin gələcəyi üçün misilsiz tarixi töhfə idi. Dövlət idarəçiliyində Azərbaycan dilinin geniş istifadə olunması məsələsinə Heydər Əliyev ciddi diqqət yetirirdi. Gənclərin öz doğma dillərində təhsil almaları üçün bütün imkanlar yaradılırdı.

Bununla yanaşı, Ulu Öndər azərbaycanlı gənclərin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil alaraq yüksəkixtisaslı kadrlar kimi yetişməsi üçün də geniş imkanlar yaratmışdı. Bu gənclər sonradan vətənə qayıdaraq ümummilli inkişafda mühüm rol oynayırdılar. Bütün bunlarla yanaşı, ayrıca qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə ermənilərin əsas ərazi iddiaları cəhdləri onun tərəfindən qətiyyətlə fiaskoya uğradıldı. O, Qarabağın inkişafına, oradakı soydaşlarımızın vəziyyətinə xüsusi həssaslıqla yanaşırdı.

Göründüyü kimi, Ümummilli Liderin ölkəmizə rəhbərliyi dövrlərində milli tariximizin ən qürurverici səhifələri formalaşıb. Prezident İlham Əliyev Heydər Əliyev irsinə sadiqlik nümayiş etdirərək, onun müəyyənləşdirdiyi strateji xətti davam etdirməklə xalqımızı çox böyük zəfərlərə çatdırdı. Torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi, bütün ərazilərimiz üzərində müstəqillik tariximizdə ilk dəfə olaraq tam suverenliyimizin təmin olunması bir daha sübut etdi ki, Heydər Əliyev strategiyası məğlubedilməzdir və ölkəmiz etibarlı əllərdədir.

**Elşad MİRBƏŞİROĞLU,**
***Milli Məclisin deputatı***



# Azərbaycanın özü qədər əbədi 1969 2024

# Heydər Əliyevin enerji siyasətinin şah əsəri

## BTC-nin fasiləsiz və təhlükəsiz fəaliyyətinin 18 ili tamam olur






**Ulu Öndər Heydər Əliyevin şah əsərlərindən biri olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri 18 ildir tam bir sistem olaraq fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir. BTC istismara veriləndən bu ilin birinci rübünün sonunadək ümumilikdə təqribən 568 milyon ton (4,3 milyard barel) xam neft nəql edib. Bu neft həcmləri Ceyhanda 5629 tankerə yüklənərək dünya bazarlarına göndərilib.**

Cari ilin birinci rübü ərzində isə BTC vasitəsilə ixrac olunmuş təqribən 7 milyon ton (təxminən 54 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 72 tankerə yüklənib və yola salınıb. Bu barədə kəmərin operatoru olan BP şirkəti məlumat verib. Yeri gəlmişkən, Bakı-Tbilisi-Ceyhan boru kəməri şirkətinin (BTC Ko.) səhmdarları bunlardır: BP (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

Hazırda BTC, əsasən, Azərbaycandan "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, BTC ilə Xəzərin digər regional xam neft və kondensat həcmləri (Qazaxıstan, Türkmənistan, SOCAR-ın AÇG-dən kənar hasilat həcmləri) də nəql olunur.

Bunlar bir daha deməyə əsas verir ki, BTC regionun neft ixracı arteriyasıdır. BTC-nin Azərbaycan üçün daşıdığı əhəmiyyəti daim yüksək qiymətləndirən Prezident İlham Əliyev keçən ayın əvvəlində Bakı Enerji Həftəsinin açılışındakı çıxışında bu kəmərin tarixini yenidən vərəqləmişdir: "Üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi. Bu, bizim iqtisadiyyatımıza sanki bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı".

BTC-yə ilk neft 2005-ci ilın mayında Səngəçal terminalından vuruldu. Bununla kəmərin Azərbaycan hissəsi işə düşdü. Həmin ilin oktyabrında Gürcüstan hissəsi də istifadəyə verildi. BTC-nin Ceyhan terminalına çatdırdığı xam neftlə ilk tanker 2006-cı il iyunun 4-də yükləndi. O vaxt təqribən 600 min barel "Azəri-Çıraq-Günəşli" nefti "British Hawthorn" tankerinə vurularaq dünya bazarlarına göndərildi. Həmin il iyulun 13-də BTC-nin tam sistem kimi istismara başlaması Ceyhan şəhərində təntənə ilə qeyd olundu. Tədbirdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları, səhmdar şirkətlərin rəhbərləri, hörmətli qonaqlar iştirak etdilər.

BTC-nin müəllifi Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Liderimiz bu layihəni bir çox sınaqlardan çıxarmış və təməlini qoymuşdur. Kəmərin sonrakı uğur salnaməsini Prezident İlham Əliyev davam etdirir. Onu da qeyd edək ki, BTC istifadəyə verilərkən kəmərin səhmdarları bu möhtəşəm ixrac xəttinə Heydər Əliyevin adının verilməsi təşəbbüsü ilə çıxış etmişlər. BTC bu adı layiqincə doğruldur.

BTC Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçərək 1768 kilometr məsafə qət edir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik yolboyu uzanır. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür.

Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə Azərbaycanda - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyə ərazisindədir.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsi qət edir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə ekoloji riskləri azaldır. Başlıca nailiyyətlərdən biri də kəmərin təhlükəsizliyidir. Boruları etibarlı şəkildə örtüklənmiş və bütün marşrutu boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işləyir. Bir sözlə, BTC bütün sınaqlardan şərəflə çıxır. Məlum olduğu kimi, Türkiyədə kəmərin bir hissəsinin keçdiyi bölgələrdə keçən ilin fevral ayında zəlzələ baş vermişdi. Lakin istər nefti nəql edən borular, istərsə də yerüstü qurğular heç bir mənfi təsirə məruz qalmamışdı. Bu da BTC-nin necə keyfiyyətlə inşa olunduğunun, möhkəmliyinin daha bir təsdiqi!



Zaman irəlilədikcə BTC-nin önəmi artır. Kəmər ahəngdar işləyərək ölkəmizə, eləcə də regiona gətirdiyi gəlirləri çoxaldır. Beləliklə, bu boru xətti istifadəyə veriləndən sonrakı illərdə ölkəmiz böyük həcmdə valyuta ehtiyatları əldə edib. Azərbaycan dövləti bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəldib. Ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib.

Başqa sözlə, BTC möhtəşəm, uğurlu, əgər belə ifadə etmək mümkünsə, xeyirxah bir kəmərdir. O, təkcə ölkəmizə deyil, bütün regiona xeyir-bərəkət bəxş edir. Həm birbaşa gəlirləri, həm də kəmərboyu ərazilərdəki sosial layihələri ilə.

Bu kəmərin bir əhəmiyyəti də ondan ibarətdir ki, özündən sonra neçə-neçə digər layihəyə yol açıb. Bu gün Xəzərin sahilindən başlayıb bir çox coğrafi ərazilərdən, o cümlədən Adriatik dənizinin altından keçərək İtaliyaya çatan və marşrutu boyu neçə-neçə ölkəyə şaxələnən "Cənub qaz dəhlizi"nin uğurlu fəaliyyəti də BTC-nin təcrübəsinə əsaslanır.

İllər keçir, zaman yeni qlobal layihələrin yerinə yetirilməsini gündəmə gətirir. Lakin onlar BTC-nin əhəmiyyətini azaltmır, əksinə, bu kəmər böyük yolun başlanğıcında daha əzəmətli görünür və regionun neft ixracı arteriyası kimi öz yoluna inamla davam edir.

"Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür". Bu sözləri Ulu Öndər Heydər Əliyev 2002-ci il sentyabrın 18-də Səngəçal terminalında BTC-nin təməlqoyma mərasimində demişdi. Ümummilli Lider tərəfindən gələcəyə hesablanaraq görülən qlobal işlərdən biri də elə məhz BTC-nin çəkilişi idi.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Dirçəliş və inkişaf strategiyasının təməl günü

**Ulu Öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ilin 14 iyul günü xalqımızın taleyində misilsiz rol oynayıb. Bu tarix Azərbaycanın xilasının başlanğıcı hesab olunur. Məhz bu dövr xalqımızın özünə qayıdışı mərhələsidir.**



Müdrik dövlət xadimi öz fəaliyyəti ilə müasir tariximizin ən şanlı və parlaq salnaməsini yaradıb. Bu mənada Ulu Öndərin xalqa xidmətdə keçmiş parlaq və mənalı ömrü ölkəmizin siyasi təqvimində özünəməxsus yer tutur.

Ümummilli Lider Heydər Əliyev taktiki addımlarla mənsub olduğu xalq üçün strateji planları həyata keçirib. Xalqın özünüdərkinə nail olmaq, etnokulturoloji və azərbaycançılıq ideyasını təbliğ etmək dahi liderin əsas amalı idi.

Ulu Öndər dövrünün bütün ideoloji-siyasi maneələrinə baxmayaraq, Azərbaycan xalqının milli inkişaf konsepsiyasını formalaşdırmağa nail oldu. Onun milli ictimai şüuru özünə yönəltmək qabiliyyəti və cəmiyyəti bütün sahələr üzrə gələcək yüksəlişlərə ruhlandırması mühüm önəm kəsb edirdi.

Azərbaycan vətəndaşının müstəqil dövlət anlayışına sahib olması anlayışının təbliği və ona inanması böyük şəxsiyyətin amalı idi. Ulu Öndər məhz Azərbaycan xalqının şüurunda bu inqilabi dəyişikliyi yaratmağa nail olmuşdu. Bu mənada görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyinin birinci dövrü, eyni zamanda milli özünüdərkin oyanmasının, soykökə qayıdışın başlanğıc dövrüdür. Tarixi şəxsiyyətin bütün fəaliyyəti xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı.

1969-cu ildən başlayaraq Azərbaycan iqtisadiyyatının gücləndirilməsi Ulu Öndərin uğurlu siyasi xəttinin əsasında gerçəkləşdi. Həmin illərdə ölkəmiz iqtisadi vəziyyətinə görə keçmiş SSRİ-də ən geridə qalmış respublikalardan biri idi. Məhz Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü iqtisadi siyasət nəticəsində 1969-cu ilə qədər SSRİ-nin aqrar əyaləti kimi tanınan Azərbaycan həmin tarixdən sonra inkişaf etmiş sənaye ölkəsinə, elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya çevrildi.

1969-1982-ci illərdə müstəqil dövlətçiliyimiz üçün həyati əhəmiyyət kəsb edən milli kadr hazırlığı da ön planda olub. Ulu Öndər həmin dövrdə milli kadrların hazırlanması istiqamətində mühüm baza rolunu oynayan elmin, təhsilin inkişafına xüsusi diqqət ayırırdı. Bunun nəticəsi olaraq məhz həmin illər Azərbaycanda elm və təhsilin inkişaf mərhələsi kimi xatırlanır.

Ümummilli Liderin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə gənclərin müxtəlif elmi biliklərlə yanaşı, hərb sahəsinə də yaxından bələd olması, mənimsəməsi üçün ciddi addımlar atıldı. O dövrün çətinliklərinə və etirazlarına baxmayaraq, Heydər Əliyev Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin açılmasına nail oldu. Bu hərbi məktəbin yaradılması Azərbaycanda milli hərbçi kadrların hazırlanmasına və yetişdirilməsinə mühüm töhfə verdi. Eyni zamanda yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-nin qabaqcıl ali hərbi məktəblərinə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan mühüm addımlardan idi.

1976-1982-ci illərdə yüzlərlə azərbaycanlı gənc Sovetlər Birliyinin müxtəlif respublikalarında yerləşən 54 ən qabaqcıl ali hərbi məktəblərə və akademiyalara hərbi təhsil almağa göndərilmişdi. Nəticədə, Ümummilli Liderin hərbi quruculuq prosesi ikinci dəfə müstəqillik qazanan Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında mühüm rol oynadı.

1978-ci il sovet Azərbaycanının Konstitusiyasının qəbul edilməsi mühüm tarixi hadisə, o dövr üçün inqilabi dəyişiklik idi. Ümummilli Lider Heydər Əliyevin xalqımız üçün göstərdiyi misilsiz xidmətlərindən biri də hər bir xalqın varlığını təsdiq edən başlıca amil, milli-mənəvi dəyərlərini yaşadan, mənəvi sərvəti olan ana dilinin qorunub saxlanması və inkişafı sahəsində fəaliyyətidir.

Hələ sovetlər dövründə Ulu Öndər Azərbaycanın gələcək müstəqilliyi üçün zəruri olacaq ana dilinin inkişafına xüsusi diqqət yetirmişdi. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən Ulu Öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi yüksək dəyəri göstərirdi. O, həmçinin rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Ulu Öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, Heydər Əliyevin təşəbbüsü və qətiyyəti nəticəsində həmin ildə qəbul olunan Azərbaycan SSR-in Konstitusiyasında ilk dəfə olaraq Azərbaycan dili rəsmi dil statusu kimi təsbit olundu. Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Liderin xalq qarşısında ən böyük tarixi xidmətlərindən biri oldu.

1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qısa zamanda ölkədə iqtisadi, ictimai-siyasi, ideoloji-mənəvi həyatın normallaşmasına, stabilləşməsinə nail oldu. O dövr və ondan sonrakı mərhələdə Azərbaycanın inkişaf strategiyasının əsası, əslində, 1969-cu ilin 14 iyul tarixindən qoyulmuşdu. Bu, tariximizə Azərbaycanın özünəqayıdışının, dirçəliş və inkişaf yolunun başlanğıcı kimi düşüb. Çünki məhz həmin tarixdən etibarən Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyev qüdrətli dövlət xadimi, mahir siyasətçi kimi Azərbaycanı dünyada tanıdıb, həm də milli varlığımızı qoruyub saxlayıb. O illərin rəşadəti və şöhrəti XX əsr tariximizə qızıl hərflərlə yazılıb. Buna görə də 14 iyul tarixi xalqımızın qəlbində həm də milliliyin, azərbaycançılığın, tarix səhifəsində milli dövlətçiliyimizin əbədi mövcudiyyət günü kimi qəbul edilir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi təmin edən mühüm faktor oldu.

Bir sözlə, Ulu Öndər Azərbaycanı, sözün əsl mənasında, güclü ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi. Praqmatik xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu dövlətə çevrildi, ölkəmizin dostlarının və tərəfdaşlarının sayı artdı. Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail olub.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət isə Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi düşüb. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib.

*Ən mühüm məqam isə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımızın 44 günlük Vətən müharibəsində azad edilməsi və ərazi bütövlüyümüzün bərpa olunmasıdır.*

**Sevinc HÜSEYNOVA,**
***Milli Məclisin deputatı,***
***YAP Təftiş Komissiyasının sədri***



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib

**Məzahir Pənahovun sədrliyi ilə iyulun 12-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə MSK-nın 9 iyul 2024-cü il tarixli iclas protokolu təsdiq edilib.

Sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azad Vətən Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Yeni Zaman Partiyası, Haqq Ədalət Partiyası və Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb. Sözügedən hər bir siyasi partiyanın MSK-ya müvafiq müraciəti barədə komissiya üzvləri məlumatlandırılıb və siyasi partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verilib.

İclasda daha sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib.

Xarici qurum və media subyektlərinin nümayəndələrinin iştirak etdiyi iclasın sonunda cari məsələlərə də baxılıb.

QƏRAR № 19/83

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 iyul tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 9 iyul tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

## *MSK sədrinin müavini:* "Namizədlərin qeydiyyatı prosesində kifayət qədər diqqətli olmaq lazımdır"

**"Biz sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərə namizədlik iddiasında olan vətəndaşlarımıza qanun çərçivəsində bütün şəraiti yaradırıq. Hesab edirəm ki, seçki prosesi kifayət qədər rəvan keçəcək".**



AZƏRTAC xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Rövzət Qasımov namizədlərin qeydiyyatı prosesinə həsr olunmuş tədbirdə çıxış edərkən deyib. R.Qasımov bildirib ki, dairə və məntəqə seçki komissiyalarının üzvləri Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması istiqamətində qanunvericiliyin tələblərinə uyğun olaraq bütün addımları atacaqlar. "Bilirsiniz ki, namizədlər üçün "Yaddaş kitabçası" hazırlanıb. Bu, namizədlərin işinin asanlaşdırılması üçün nəzərdə tutulub. Namizədlərin qeydiyyatı prosesində kifayət qədər diqqətli olmaq lazımdır" - deyə o vurğulayıb.

## Mərkəzi Seçki Komissiyası 26 ölkənin seçki qurumunu parlament seçkilərinin müşahidəsi üçün ölkəyə dəvət edib

**"Beynəlxalq müşahidəçilər Azərbaycanda gedən prosesləri hər zaman yaxından izləyiblər".**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov deyib. O bildirib ki, istər beynəlxalq, istərsə də yerli müşahidəçilərin Milli Məclisə növbədənkənar seçkiləri izləməsinə tam şərait yaradılacaq.

"Azərbaycana dəvət edilən beynəlxalq müşahidəçilər barədə yaxın vaxtlarda məlumat veriləcək. Mərkəzi Seçki Komissiyası isə 26 ölkənin seçki qurumunu prosesin müşahidəsi üçün ölkəyə dəvət edib", - deyə MSK sədrinin müavini vurğulayıb.

QƏRAR № 19/84

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azad Vətən Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Azad Vətən Partiyası Siyasi Şurasının 2024-cü il 5 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Azad Vətən Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Novruz İbrahim oğlu Novruzov
Səid Müştəba oğlu Əli
Şamil Famil oğlu Mehdi
İlham Əmir oğlu Quluyev
Əkbər Məhəmməd oğlu Rüstəmov
Haşim İsgəndər oğlu İsgəndərli
Ceyhun İslam oğlu Tağıyev
Fəzli Fizuli oğlu Qasımov

Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə
Tofiq İsa oğlu Məmmədov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

QƏRAR № 19/85

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Milli Dirçəliş Hərəkatı Partiyası Kuralının 2024-cü il 2 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Şakir Pünhan oğlu Ağayev
Arzu Sədrəddin oğlu Məlikov
Aydın Məmməd oğlu Lətifov
Əli Allahverdi oğlu Rzayev
Həsrət Əhməd oğlu Fərzəliyev
Namik Qədir oğlu Bəbirov
Abduləziz Abdulla oğlu Abşarov
Hənif Adil oğlu Məmmədov
Mətin Fərəc oğlu Quliyev
Rəşad Əbülfəz oğlu Məmmədov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Çingiz Yusif oğlu Əhədli.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

QƏRAR № 19/86

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Yeni Zaman Partiyası Mərkəzi Şurasının 2024-cü il 5 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Yeni Zaman Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Məhəmməd İbrahim oğlu Farazi
Şahin Musa oğlu Quliyev

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**
Habil Famil oğlu Ələkbərov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

QƏRAR № 19/87

### 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Haqq Ədalət Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Haqq Ədalət Partiyası İdarə Heyətinin 2024-cü il 10 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Haqq Ədalət Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Yusif İbrahim oğlu Vəliyev
Fərrux Əhməd oğlu Binnətzadə
Samir Qulu oğlu Nəsirov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Əmir Ziyad oğlu Çıraqəliyev
Rəşad Haşim oğlu Abbasov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

QƏRAR № 19/88

## 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Ağ Partiyası İdarə Heyətinin 2024-cü il 1 iyul tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə aşağıdakı şəxslər Ağ Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Fərid İlham oğlu Əhmədli
Azər Səfər oğlu Ələkbərov
Hüseyn Allahverdi oğlu Qasımov
Rəşad Sərdar oğlu Kazımov
Elməddin Məzahir oğlu Əhmədov
Mais Babulla oğlu Məmiyev
Emin İspər oğlu Babayev
Eldar Balakərim oğlu Həsənli

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**

Araz Mahir oğlu Teymurov
Mətləb Məhərrəm oğlu Aslanov
Ariz Xudaverdi oğlu Zeynalov
Rüfət İbrahim oğlu Hacıbəyli
Cəlil İsa oğlu Abbasov
İlhamə Paşa qızı Aslanova
Kamran Hakim oğlu Məmmədov
Ceyhun Sulduz oğlu Rzayev
Ağaəli Böyükağa oğlu Manafov
Nəsimi Hüseyn oğlu Hüseynov
Səbuhi Əlixan oğlu Babayev
Malvina Adilovna Amirova
Mahmud Nəsrəddin Məmmədli
Sərvan İlham oğlu Məmmədov
Nəcəf Qardaş oğlu Nəcəfov
Pərviz Hacbala oğlu Əliosmanov
Şahin Cəfər oğlu Abdullayev
Zabit Mürşüd oğlu Hacıyev
İmran Zakir oğlu Məmmədov
Elşən Misir oğlu Qafarov
İbrahim Rəhim oğlu Hacıyev
Vüsal Balacan oğlu Quliyev
Təranə Yusif qızı Əskərova
Vüsal Şövkət oğlu Əliyev
Səxavət Ədalət oğlu Rəhimov.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

QƏRAR № 19/89

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

Lamiyə Fərhad qızı Əliyeva 16 saylı Yasamal ikinci, Tamilla Əsədulla qızı Abdullayeva 44 saylı Sumqayıt üçüncü, Aygün Fərhad qızı Musayeva 70 saylı Neftçala, Xatirə Dadaş qızı Şərifova 84 saylı Füzuli, Səbinə Məhərrəm qızı Həmidova 117 saylı Oğuz - Qəbələ - Şəki seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*12.07.2024*

## Mərkəzi Seçki Komissiyası deputatlığa namizədlərin qeydiyyatı prosesinə həsr olunan seminar keçirib



**Mərkəzi Seçki Komissiyası (MSK) 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar fərqli statuslu seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə intensiv maarifləndirmə layihələrini davam etdirir.**

AZƏRTAC xəbər verir ki, MSK-nın maarifləndirmə proqramı əsasında iyulun 12-də növbəti tədbir - Milli Məclisə seçkilər zamanı deputatlığa namizədlərin qeydiyyatı prosesinə həsr olunan seminar keçirilib.

Tədbir MSK sədrinin müavini Rövzət Qasımovun çıxışı ilə başlayıb. Sonra gündəliyə uyğun olaraq, Komissiya üzvlərinin Milli Məclisə seçkilərdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı qanunvericiliyin tələbləri, namizəd irəli sürmək hüququna malik subyektlər, namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması şərtləri və qaydası, habelə imza vərəqələrində və namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının təqdim etdikləri sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınmasının əsaslarına dair təqdimatları dinlənilib.

Əyani vəsaitlərdən istifadə edilməklə keçirilən təqdimatlarda mövzular barədə ətraflı məlumat verilib, tədbirin praktik hissəsində geniş müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Seminar zamanı hər bir iştirakçıya tanışlıq məqsədilə MSK-nın deputatlığa namizədlər üçün hazırladığı yaddaş kitabçası təqdim olunub.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan seminarda deputatlığa namizədliyin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə 125 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birinin nəzdində yaradılan işçi qrupunun rəhbəri iştirak edib.

Qeyd etmək lazımdır ki, mühüm maarifləndirmə layihələrindən olan bu tədbir Milli Məclisə seçkilərdə deputatlığa namizədliyin irəli sürülməsi və qeydə alınması ilə bağlı dairə seçki komissiyalarının məlumatının artırılması, onların bilik, bacarıq və işgüzar vərdişlərinin daha da təkmilləşdirilməsinə hədəflənib.

## "Qərbi Azərbaycana qayıdış" olimpiadasının qalibləri ilə görüş



**Qərbi Azərbaycan İcmasında Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdış" festival-konqresi zamanı mükafatlandırılan eyniadlı olimpiadanın qalibləri ilə görüş keçirilib.**

Bu barədə AZƏRTAC-a Qərbi Azərbaycan İcmasından məlumat verilib.

Görüşdə çıxış edən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, VI çağırış Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, son 200 ildə ata-baba torpaqlarından zorla qoparılan soydaşlarımız, onların yaşadıqları ağrıacı ilə bağlı gənclərin məlumatlı olması, Qərbi Azərbaycana geniş maraq göstərmələri onların milli ruhunun yüksək səviyyədə olması və vətənə bağlılığının göstəricilərindən biridir. Sədr qeyd edib ki, Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin gənc nəslə ötürülməsində sözügedən olimpiada mühüm əhəmiyyət daşıyıb.

Daha sonra Elm və Təhsil Nazirliyinin aparat rəhbəri Mətin Kərimli çıxış edərək olimpiadanın keçirilməsində icma ilə yaxından əməkdaşlığın xüsusi önəmini vurğulayıb. Mətin Kərimli qalibləri təbrik edərək onlara göstərdiyi əzm və bacarıq üçün təşəkkür edib.

Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, VI çağırış Milli Məclisin deputatı, olimpiadanın keçirilməsində mühüm rolu olan Məlahət İbrahimqızı çıxışında gənclərin ümummilli məsələmiz olan Qərbi Azərbaycanla bağlı geniş marağını təqdir edərək onlara bundan sonrakı fəaliyyətləri və olimpiadalar zamanı uğurlar arzulayıb, vurğulayıb ki, bu, onların da gələcək nəsillərə ötürməli olduqları müqəddəs missiyadır.

Təhsil İnstitutunun direktor müavini Fuad Qarayev bildirib ki, olimpiadada 10 mindən çox şagird iştirak edib, onlara 30 sual təqdim olunub. Sualların cavablandırılması üçün onlara 70 dəqiqə vaxt verilib. Fuad Qarayev vurğulayıb ki, olimpiadada iştirak edən bütün şagirdlər böyük həvəslə finala can atırdılar.

Daha sonra olimpiadanın hazırlanmasında və keçirilməsində mühüm rolu olan ekspertlər çıxış ediblər.

Sonda şagirdlərə Qərbi Azərbaycan İcması adından hədiyyə və mükafatlar təqdim olunub.

Qeyd edək ki, olimpiadanın təşkilində məqsəd şagirdlər arasında Qərbi Azərbaycanın tarixi, coğrafiyası, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai xadimləri, tarixi şəxsiyyətləri, toponimləri, folkloru haqqında maarifləndirmə işlərini aparmaq və biliklərin dərindən öyrənilməsini təmin etmək olub. Ölkənin ümumi təhsil müəssisələrinin IX və X sinif şagirdlərinin iştirak edəcəyi olimpiada 3 mərhələli olub. Olimpiadanın yarımfinal turu may ayında bölgələr üzrə, final mərhələsi isə iyun ayında Naxçıvan Muxtar Respublikasında keçirilib.

## Şuşada "Rəqəmsallaşma üzrə Yol Xəritəsi" təqdim edilib

**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşəbbüsü ilə keçirilən və 60-dan çox dövlət qurumunun 80-dən çox səlahiyyətli nümayəndəsinin iştirak etdiyi "Rəqəmsal liderlik" proqramının növbəti görüşü Şuşa şəhərində keçirilib.**

Bu barədə AZƏRTAC-a agentlikdən məlumat verilib.

Tədbiri giriş nitqi ilə açan İRİA-nın sədr müavini Rəşad Xalıqov budəfəki "Rəqəmsal liderlik" görüşünün Şuşada keçirilməsinin rəmzi əhəmiyyətini vurğulayıb: "Şuşa Zəfər tariximizin simvoludur, bizim üçün ilham mənbəyidir. Məqsədimiz ortaq səylərimizlə Azərbaycanın rəqəmsallaşmasını yeni zirvələrə yüksəltməkdir".

Daha sonra mövzular üzrə sessiyalara start verilib. İlk olaraq İRİA-nın Monitorinq və hesabatlılıq şöbəsinin müdiri İlham Salmanov "Rəqəmsallaşma üzrə Yol Xəritəsi" mövzusunda çıxış edib. Çıxışında o, ölkənin rəqəmsal inkişaf konsepsiyanın təməl sütunları olan rəqəmsal hökumət, rəqəmsal cəmiyyət və rəqəmsal biznes, o cümlədən konsepsiyanın Əsas Hədəf Göstəriciləri və əldə olunan irəliləyiş barədə ətraflı məlumat verib. İ.Salmanov bildirib ki, indiyə qədər "Rəqəmsal liderlik" proqramı çərçivəsində vətəndaşyönümlü xidmətlər göstərən 7 dövlət qurumunun rəqəmsal transformasiya üzrə yol xəritələri razılaşdırılıb və yaxın zamanda icrasına başlanılacaq. "Bu prosesə cari ilin mart ayından ƏƏSMN ilə başladıq və ilin sonunadək 10 dövlət qurumunun rəqəmsal yol xəritəsinin tamamlanması nəzərdə tutulub", - deyə o qeyd edib.

Növbəti sessiyada İRİA-nın Data təhlili şöbəsinin müdiri Behbud Ramazan data keyfiyyəti və data əsaslı qərarvermə sahələrində İRİA-nın qabaqcıl təcrübəsi haqqında təqdimat edib. Belə ki, İRİA 5 dövlət qurumu ilə data keyfiyyətinin artırılması məqsədilə finləşmə prosesinin təkmilləşdirilməsi layihəsini həyata keçirib. Bu prosesdə müxtəlif dövlət qurumlarının məlumat bazaları arasında müqayisəli təhlillər aparılmış və nəticə etibarilə datalar dürüstləşdirilmiş və zənginləşdirilmişdir. B.Ramazan, eyni zamanda, İRİA-nın data əsaslı qərarvermə istiqamətində qurumlarla fəaliyyətini də tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Müxtəlif dövlət qurumları üçün başlanğıc olaraq həm data mühəndisliyi, həm də analitik işlərin görülməsi, o cümlədən hesabatlılıq, audit və KPI göstəricilərinin ölçülməsi və real zamanda izlənilməsi üçün platforma hazırlanıb". Əlavə olaraq, İRİA rəsmisi qeyd edib ki, bu mexanizm qurumlarda data əsaslı effektiv qərarvermə prosedurlarının sürətlənməsinə mühüm töhfə verəcək.

Proqramın ikinci günündə Strateji tərəfdaşlıq və beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Orxan İsmayılov "Rəqəmsal şəxsiyyət vəsiqəsi" mövzusu ilə çıxış edib. O, vətəndaşların "mygov" platforması üzərindən 4 fiziki sənədin eyni hüquqi əsasa malik rəqəmsal analoqundan istifadəsinin tezliklə mümkün olacağını bildirib. Təqdimatında o, həmçinin "mygov"dan əldə olunan məlumatların həqiqiliyinin yoxlanılması üçün tətbiq - "mygov Checker" haqqında ətraflı məlumat verib: "Bu tətbiqin xüsusiyyəti ondan ibarətdir ki, 'mygov'la QR kod əsasında təqdim edilən məlumatın həqiqiliyini təsdiqləmək mümkündür ".

Tədbirin ikinci gününün digər sessiyalarında beynəlxalq səviyyəli data mütəxəssisləri Vüsal Dadalov və İqbal Səfərov müvafiq olaraq "Data Lakehouse" və "Data əsaslı idarəetmə" mövzularında, o cümlədən İRİA-nın Data mühəndisliyi şöbəsinin baş mütəxəssisi Həsənağa Əliyev "Açıq məlumatlar portalı" mövzularında təqdimatlarla çıxış ediblər. Təqdimatlar interaktiv sual-cavab sessiyası ilə davam edib.

Qeyd edək ki, Şuşada baş tutan görüş "BESTCOMP Group" şirkətinin tərəfdaşlığı ilə keçirilib. Bundan əvvəlki "Rəqəmsal liderlik" görüşlərində, əsasən, vörkşoplar keçirilib və müxtəlif dövlət qurumlarını təmsil edən rəqəmsal transformasiya üzrə rəhbər şəxslərin bu mövzuda 500-dən çox təklifi toplanıb. Təkliflər müvafiq klasterlərə uyğun kateqoriyalaşdırılıb və rəqəmsallaşma üzrə yol xəritələrinin hazırlanması zamanı nəzərə alınıb.

"Rəqəmsal liderlik" proqramının əsas məqsədi rəqəmsal hökumətin inkişafı və təşviqi üzrə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinin və rəqəmsal hökumətə sürətli keçidin təmin edilməsi, o cümlədən rəqəmsallaşma sahəsində beynəlxalq rəqabətliliyin artırılmasına töhfə verməkdir.

## Tbilisidə COP29-la bağlı seminar keçirilib

**Gürcüstanda fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzinin müəllim və tələbələri Tbilisinin Nəbatat bağında açıq səma altında 2024-cü ilin noyabrında Azərbaycanda reallaşacaq BMT-nin İqlim Dəyişikliyi Konfransı - COP29-a həsr olunmuş seminar keçiriblər.**

AZƏRTAC xəbər verir ki, gənclər əvvəlcə Botanika bağında yerləşən görkəmli azərbaycanlıların panteonunda Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Fətəli xan Xoyski və Həsən bəy Ağayevin, eləcə də maarifçi, şair, ictimai xadim, Azərbaycan dramaturgiyası və ədəbiyyatında ədəbi tənqidin banisi M.F.Axundzadənin xatirəsini anıblar.

Tələbələr ədibin ad günü ilə əlaqədar maraqlı kompozisiya nümayiş etdiriblər.

Sonra mərkəzin müəllim və tələbələri Botanika bağında salınmış Heydər Əliyev adına xatirə bağında olublar. Bildirilib ki, Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar Azərbaycanın Gürcüstandakı səfirliyinin təşəbbüsü ilə burada 100 ədəd nar ağacı əkilib. Bu ağacların əkilməsi Azərbaycan dövlətinin qonşu Gürcüstanda da ekologiya və ətraf mühitin mühafizəsinə töhfəsi kimi qiymətləndirilib.

Mərkəzin icraçı direktoru Rəna Hüseynova Azərbaycan dövlətinin ekologiya, ətraf mühitin mühafizəsi ilə əlaqədar gördüyü işlər, COP29 barədə ətraflı məlumat verib. Bildirib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Hər il dünyanın müxtəlif ölkələrindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edirlər.

Onun sözlərinə görə, Azərbaycanın 2024-cü ildə dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Azərbaycan Prezidentinin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a evsahibliyi etmək və namizədliyini dəstəkləməsi bugünkü uğurumuzda həlledici rol oynayıb.

Mərkəz rəhbəri deyib ki, Azərbaycanda keçiriləcək COP29-da on minlərlə xarici qonağın iştirakı nəzərdə tutulub. Bu da Azərbaycanın belə mötəbər tədbirlərə evsahibliyi etməsi sahəsindəki zəngin təcrübəsinin əyani sübutudur.

R.Hüseynova Gürcüstanda da iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, ətraf mühitin mühafizəsi, flora və faunanın inkişafı istiqamətində Azərbaycan və Gürcüstanın müvafiq dövlət strukturları birgə layihələr həyata keçirirlər.

# Azərbaycanın xarici siyasətinin uğurları

## İki dost ölkənin münasibətləri daha da möhkəmlənir

**"Azərbaycan və Pakistan dost ölkələrdir. Bizim dostluğumuzun qədim tarixi var. Bu qardaş ölkə 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biridir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib. Deputat bildirib ki, Pakistan, həm də indiyə qədər Ermənistanla diplomatik əlaqəsi olmayan dörd ölkədən biridir və bunun səbəbi isə Ermənistanın vaxtilə Azərbaycana qarşı etdiyi təcavüz və torpaqlarımızı işğalda saxlaması olub. Bu gün isə həmin ölkələr Azərbaycanın Ermənistanla sülh müqaviləsinin bağlanmasını gözləyirlər. Pakistan həmişə Azərbaycanın yanında olub, ərazi bütövlüyünü tanıyıb, ölkəmizlə bütün sahələrdə əməkdaşlıq edib. Bu dostluq təkcə rəsmi səviyyədə deyil, xalqlar arasında da mövcuddur. "Ayrı-ayrı ziyalı təbəqələri, universitet əməkdaşları, iş adamları arasında da sıx əlaqələr var. Prezidentimizin bu ölkəyə dövlət səfəri münasibətləri daha da yaxşılaşdıracaq. Pakistan tərəfi Azərbaycan Prezidentinin səfərinə çox böyük həvəslə hazırlaşırdı. Pakistanın tarixində ilk dəfədir ki, ölkəyə səfər edən dövlət başçısının təyyarəsini qırıcı təyyarələr qarşıladılar və müşayiət etdilər", - deyə o əlavə edib.

Deputat xatırladıb ki, Prezident İlham Əliyevin İslamabada səfəri zamanı bütün sahələr üzrə fikir mübadiləsi aparılıb. Pakistan tərəfi yenə də Azərbaycanın haqq işini müdafiə etdiyini, ölkəmizin zəfərinin böyük tarixi əhəmiyyətli hadisə olduğunu bildirdi. Prezident İlham Əliyev də Azərbaycanın Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəklədiyini, bu məsələdə həmişə onun yanında olacağını bəyan etdi. Tərəflər müxtəlif sahələr üzrə, ilk növbədə, iqtisadi sahədə əməkdaşlığı genişləndirmək barəsində qərara gəldilər.

A.Mirzəzadə vurğulayıb ki, Azərbaycan Pakistan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayələr yatırmaq istəyir və bunun üzərində çox ciddi işlər gedir: "Bu səfər iki ölkə arasındakı münasibətləri daha da möhkəmləndirəcək. Dövlətlər bir-birinə daha da yaxınlaşacaq".

Deputat hesab edir ki, Azərbaycan-Pakistan dostluğu ölkəmizin dünya birliyində nüfuzunun daha da artmasına dəstək olacaq.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## İlham Əliyevin Pakistana səfəri qardaş ölkələrin gələcək birgə fəaliyyətinə töhfə verəcək

**"Azərbaycan və Pakistanı tarixi köklər bir-birinə bağlayır. Pakistan 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci ölkədir. 1992-ci ildən iki ölkə arasında diplomatik əlaqələr qurulub".**



Bu sözləri Azərbaycan qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. O xatırladıb ki, 1993-cü ildə Kəlbəcərin işğalından sonra BMT-nin Təhlükəsizlik Şurasının iclasına sədrlik edən Pakistan həmin işğalı kəskin pisləyib və 822-ci nömrəli qətnamənin qəbul olunmasında böyük rol oynayıb. Azərbaycan-Pakistan münasibətləri dərin köklərə söykənir. İndi isə əməkdaşlığın inkişafının ən yüksək mərhələsinə qədəm qoyulub.

O vurğulayıb ki, Ulu Öndər və sonrakı dövlət rəhbərləri iki ölkə arasında münasibətlərin daha da möhkəmlənməsi və strateji tərəfdaşlıq, qardaşlıq, dostluq əlaqələrinin dərinləşməsi üçün çox vacib addımlar atıblar: "1996-cı ildə Ulu Öndər Pakistana rəsmi səfər edib. Sonra qarşılıqlı səfərlər, Tehranda İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə ölkə rəhbərlərinin görüşləri və vacib qərarların verilməsi, iki dövlətin daim bir-birini dəstəkləməsi, bu gün də Pakistanın Ermənistanı dövlət kimi tanımaması, Azərbaycanın Kəşmir məsələsində Pakistanı tam dəstəkləməsi münasibətlərin inkişafına təkan verib. Azərbaycan və Pakistan, sözün əsl mənasında, tarixin sınağından çıxmış əsl qardaş ölkələrdir".

Prezident İlham Əliyevin 2005 və 2017-ci illərdə Pakistana səfər etdiyini xatırladan V.İskəndərov qeyd edib ki, sonuncu dövlət səfəri isə indiyə qədərki səfərlərin zirvəsi hesab edilməlidir. Bu səfər çərçivəsində iki ölkə arasında 15 sənəd imzalanıb və bu müqavilələr çox geniş spektri əhatə edir: hərbi, hərbi sənaye, mədəniyyət, təhsil, iqtisadiyyat, enerji sahələri ni . Demək olar ki, hər iki ölkənin əməkdaşlığının inkişafı üçün bütün sahələri əhatə edən çox vacib qərarlar verilib. Bakı şəhəri ilə İslamabadın qardaş şəhər olması, dövlət başçılarının mətbuata açıqlamasında bir-biri haqqında xoş sözlər ifadə etmələri, Azərbaycan Prezidentinin yüksək səviyyədə qarşılanması və bunun dünyaya nümayiş etdirilməsi həm də dünyaya bir mesaj kimi qəbul edilməlidir. "Bu, iki qardaş ölkənin münasibətlərini bir nümunə kimi ortaya qoyur. Ölkələrimiz həm iki, həm üç, həm də çoxtərəfli formatda çox yaxşı əməkdaşlıq qurub. Azərbaycan, Türkiyə və Pakistan ordularının mütəmadi birgə təlimləri, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər platformalarda iki ölkənin bir-birini dəstəkləməsi qardaşlıq nümunəsidir.

Deputat düşünür ki, Prezident İlham Əliyevin Pakistana dövlət səfəri, orada imzalanan sənədlər iki qardaş ölkənin gələcək birgə fəaliyyətinə və inkişafına dəyərli töhfə verəcək.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

## Qarşılıqlı səfərlər uğurlu perspektiv vəd edir

**Prezident İlham Əliyevin Pakistana rəsmi səfəri zamanı qarşılanma törənini, dövlətimizin başçısına və ölkəmizə olan diqqəti görüb qürurlanmamaq mümkün deyil. Xatırladaq ki, bu, dövlətimizin başçısının qardaş ölkəyə sayca üçüncü səfəridir. İnamla qeyd edə bilərik ki, bu səfərlərin sarsılmaz dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Pakistan münasibətlərində yeni səhifənin açılmasında, əməkdaşlığın bundan sonrakı yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsində müstəsna rolu var.**



Pakistan yeganə müsəlman ölkəsidir ki, nüvə silahına sahibdir. Üç əsas - quru qoşunları, hərbi hava qüvvələri, hərbi dəniz qüvvələrindən ibarət Pakistan Silahlı Qüvvələri aktiv şəxsi heyətin sayına görə dünyada 6-cı, müsəlman ölkələri arasında 1-ci yerdə durur.

1963-cü il razılaşmasına əsasən Çin və Pakistan yaxın hərbi əlaqələrə malikdir. 2013-cü ilin hesablamalarına görə, Çin Pakistanı ən çox silah və texnika ilə təmin edən ikinci ölkə hesab olunur. Hər iki ölkə bir-biri ilə nüvə enerjisi və aerokosmik texnologiyalar sahəsində də sıx əməkdaşlıq edirlər. 2004-cü ildə Pakistana ABŞ-nin NATO-ya daxil olmayan ölkələr arasında əsas müttəfiqi statusu verilib. Daxili təchizatdan sonra Pakistanı əsas hərbi məhsullarla təchiz edən ölkələr sırasında Çin və ABŞ ilk yerləri bölüşürlər. İki ölkə arasında diplomatik münasibətlər 1992-ci il iyunun 9-da yaradılıb.

Xatırladaq ki, 1993-cü il aprelin 30-da Ermənistan, Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT TŞ-nin 822 saylı qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib. Azərbaycanda səfirliyini ilk açan ölkələr sırasında da Pakistanın adını çəkmək olar.

1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Azərbaycanda rəsmi səfərdə olub. Yüksək səviyyədə keçən səfər zamanı iki ölkə arasında bir sıra sənədlər, o cümlədən Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında Azərbaycan-Pakistan Birgə Komissiyasının yaradılması haqqında protokol imzalanıb, "Azərbaycan Respublikası və Pakistan İslam Respublikası arasında Əməkdaşlıq haqqında Müqavilə" bağlanıb.

9 aprel 1996-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Pakistanda rəsmi səfərdə olub. İki ölkə arasında münasibətlərin inkişafına xüsusi təkan verən bu görüşdə 9 sənəd imzalanıb.

Bu məqamda xüsusi olaraq bir vacib məsələni də qeyd etməyi vacib sanırıq. Azərbaycan Respublikasının ərazilərini işğal etdiyinə görə Pakistan bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayan və bu ölkənin müstəqilliyini tanımayan dövlətlərdən biridir.

44 günlük Vətən müharibəsi zamanı Pakistanın mənəvi-siyasi cəhətdən Azərbaycanı dəstəkləməsinin şahidi olduq. Müharibədən az sonra Azərbaycana səfər edən Pakistan Quru Qoşunlarının komandanı, ordu generalı Qamar Caved Bacva "Azərbaycanın Qarabağ müharibəsində qələbəsi və öz ərazi bütövlüyünü bərpa etməsi hər bir müsəlman, hər bir pakistanlı üçün möhtəşəm hadisədir", - demişdi.

Dövlətimizin başçısının iyulun 11-də Pakistana səfəri zamanı qardaş ölkənin Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycanın Qarabağla bağlı haqq işini ölkəsinin hər zaman dəstəklədiyini bildirərək: "Qələbəniz ədalətin hərtərəfli təntənəsinin nümunəsidir" - deyib.

Ölkələrimiz müvafiq beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya Parlament Assambleyası, habelə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Konfrans çərçivəsində də uğurla əməkdaşlıq edib, bir-birilərinə həmişə dəstək verib. Xüsusən də 44 günlik Vətən müharibəsindən sonra Türkiyə-Pakistan-Azərbaycan "üçbucağı" formalaşmağa başlayıb. Hər üç ölkənin liderləri, parlament, hərbi və diplomatik heyətləri arasında üçtərəfli görüşlər və sənədlər imzalanıb, qeyri-rəsmi bir ittifaq formalaşıb. Xüsusən də İkinci Qarabağ müharibəsindən sonra Pakistan-Azərbaycan əlaqələri yeni bir mərhələnin başlandığına şahidlik edir.

Cari ilin iyununda Nyu Yorkda keçirilmiş BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2025-2027-ci illər üzrə üzvlüyünə seçkilərdə Azərbaycan Respublikasının namizədliyi, 2023-cü il yanvarın 24-də Daşkənddə keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 26-cı iclasında Şuşa şəhərinin 2026-cı ildə İƏT-in turizm paytaxtı elan edilməsi üçün irəli sürülmüş təşəbbüs, ötən il oktyabrın 12-də BMT-nin İnsan Hüquqları Şurasının 54-cü sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan tərəfindən irəli sürülmüş və yüzdən çox ölkənin həmmüəllif olaraq qoşulduğu inkişaf hüququ üzrə qəbul olunmuş qətnamə Pakistan tərəfindən dəstəklənib.

Son illərdə iki ölkə liderləri arasında təmaslar daha da intensivləşib. Azərbaycan Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının son iki Sammitində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb. Bundan əlavə, ötən ilin iyununda Pakistanın Baş naziri Azərbaycanda səfərdə olub.

İyulun 3-də Astanada "ŞƏT plyus" formatında görüş çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan üçtərəfli görüş Azərbaycan, Pakistan və Türkiyə arasında bütün tərəflərin qarşılıqlı maraqlarına xidmət edən və regional güc birliyini şərtləndirən çox önəmli bir görüş oldu. Həmin görüşdə iqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıqla yanaşı, "Üç qardaş" şüarı altında keçirilən hərbi təlimlərin əhəmiyyətinin vurğulanması və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklifinin irəli sürülməsi, müdafiə sənayesi sahəsində birgə istehsalın təşkili məsələsinin gündəmə gətirilməsi üç ölkə arasında hərbi-siyasi sahədə əlaqələrin bundan sonra daha da dərinləşəcəyini deməyə imkan verir.

2023-cü ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 27 milyon ABŞ dolları təşkil edib. Pakistan tərəfi Azərbaycan şirkətlərinin bu ölkəyə sərmayə qoymasında çox maraqlıdır.

Hazırda Azərbaycanda 3600-dən çox Pakistan şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərir. Pakistan şirkətləri işğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərində iştirak üçün də müraciət ediblər. Azərbaycan Pakistan ilə iqtisadi-ticari əlaqələrinin genişləndirilməsini vacib hesab edir. Prezident İlham Əliyevin tapşırığı ilə, Pakistandan idxal olunan düyü məhsullarının idxal rüsumu birtərəfli güzəşt tətbiq edilməklə 2027-ci il dekabrın 31-dək 15 faizdən 0 faizə endirilib.

Prezident İlham Əliyevin Pakistana son səfəri ölkələr arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və bütün sahələr üzrə əməkdaşlığın hərtərəfli genişləndirilməsi baxımından tarixi önəm kəsb edir. Səfər zamanı Prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif və Prezident Asif Əli Zərdari ilə keçirilən ikitərəfli görüşləri, həmçinin səfər çərçivəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə edən 10-dan çox sənədin imzalanması ölkələrimz arasında yeni uğurlu perspektivlərin yarandığından xəbər verir .

*Elşən QƏNİYEV, "Azərbaycan"*

## Azərbaycanla Pakistan arasında imzalanmış sənədlər əməkdaşlığın yeni səviyyəsinə çatmaq üçün zəmin yaradır

**Azərbaycan və Pakistan arasında möhkəm qardaşlıq əlaqələri hər iki ölkənin iqtisadi inkişafına mühüm töhfə verir.**

Prezident İlham Əliyevin Pakistana dövlət səfərini şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Vüsalə Cəfərova AZƏRTAC-a bildirib ki, Azərbaycanla Pakistan arasında imzalanmış sənədlər ticarət, investisiya, tranzit, kiçik və orta biznesin inkişafı, turizm və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın yeni səviyyəsinə çatmaq üçün zəmin yaradır. Hökumətlər arasında imzalanan tranzit ticarət və preferensial ticarət haqında sazişlər bu sahədə tarifləri azaltmağı, vergi və gömrük imtiyazlarının tətbiqini hədəfləyir. Prezident İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif mətbuata bəyanatlarında da qarşılıqlı ticarətin həcminin birmənalı olaraq artırılacağını vurğulayıblar. Artıq ilkin mərhələdə güzəştli ticarət formatına aid 9 maddə müəyyən olunub.

TDAM rəhbəri Pakistan iqtisadiyyatının aparıcı sahələrini təhlil edərkən bildirib ki, bu ölkənin kənd təsərrüfatı cari ilin yanvar-aprel aylarında 6,25 faiz artıb: "Azərbaycanın Pakistandan idxal edilən düyünü 2027-ci ilədək gömrük rüsumundan azad etməsi bu ölkənin kənd təsərrüfatı məhsullarının ixracını artırmaq və ikitərəfli ticarət əlaqələrini gücləndirmək üçün mühüm jestdir. Bununla yanaşı, Pakistan son dövrlər Xarici Birbaşa İnvestisiyaların (XBİ) cəlb edilməsində artım nümayiş etdirir. Belə ki, 2024-cü ilin aprel ayında (2023-cü ilin eyni dövrü ilə müqayisədə) XBİ 39,1 faiz artaraq 358,8 milyon dollar olub. Bu kimi göstəricilər Azərbaycanın güclənən və iqtisadiyyatını şaxələndirən bir dövlətlə əməkdaşlığını artırdığını göstərir".

Vüsalə Cəfərovanın sözlərinə görə, səfər zamanı enerji, infrastruktur və digər sektorlarda 2 milyard dollar məbləğində ilkin investisiyalara dair aparılan müzakirələr hər iki ölkədə iqtisadi inkişafı stimullaşdırmaq və birgə müəssisələr yaratmaq məqsədi daşıyır. Mineral resurslar və geologiya sahəsində əməkdaşlıq haqqında imzalanan anlaşma memorandumu enerji resurslarının araşdırılması və inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Rəqəmsal inkişaf və nəqliyyat sahələrindəki razılaşmalar isə infrastrukturun modernləşdirilməsi və texnoloji əməkdaşlığı gücləndirməyi hədəfləyir.

TDAM rəhbəri qeyd edib ki, 2024-2029-cu illər üçün mədəni mübadilə proqramı xalqlar arasında əlaqələri möhkəmləndirmək məqsədi daşıyır və bu, iqtisadi əlaqələri dəstəkləyə bilər.

"Elmi və texnoloji əməkdaşlıq haqqında razılaşmalar isə innovasiya və tədqiqat sahəsini inkişaf etdirərək, yeni iqtisadi imkanlar yaratmağı hədəfləyir. Azərbaycan-Pakistan arasında əməkdaşlığın şaxələndirilməsi Azərbaycanın regional iqtisadi inteqrasiyada rolunu gücləndirir. Bu əlaqələr türk dövlətləri üçün də sabitlik və iqtisadi inkişafı təşviq etmək baxımından önəmlidir. Çünki Pakistan hər zaman türk dövlətləri ilə qardaşlıq və həmrəylik nümayiş etdirir", - deyə o bildirib.

## ŞKTC mediası Şuşa zirvə görüşünün Kipr türkləri üçün əhəmiyyətindən yazır

**Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi zirvə görüşünün mövzusu Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) ictimaiyyətinin və mediasının gündəmindən düşmür.**




AZƏRTAC xəbər verir ki, TDT-nin zirvə görüşünün ŞKTC-nin maraqları üçün əhəmiyyətindən bəhs edən növbəti məqalə iyulun 12-də "Kıbrıs Gazetesi" nəşrində dərc olunub.

"Şuşada TDT zirvəsi - 2" sərlövhəli məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən tədbirin Kipr türklərinin hüquq və mənafelərinin təmin olunmasına verdiyi töhfədən bəhs edilir.

Müəllif diqqəti ŞKTC liderinin erməni işğalından azad edilmiş Xankəndi şəhərinə səfər etməsi faktına yönəldib. "Ersin Tatar Xankəndiyə səfər edən ilk xarici lider oldu", - deyə nəşr yazır.

Məqalədə Türkiyənin vitse-prezidenti və xarici işlər nazirinin Şuşadakı çıxışlarına da diqqət çəkilir, burada digər məsələlər ilə yanaşı, Ankaranın Kiprdəki problemlərin həllində "iki dövlət" ideyasını dəstəkləmək əzmi vurğulanır.

Müəllif ümidvar olduğunu bildirir ki, ŞKTC nümayəndə heyətinin Bişkekdə keçiriləcək TDT Zirvə görüşündə iştirakı da Şuşadakı kimi yüksək səviyyədə təşkil olunacaq.

Məqalənin müəllifi Gökhan Güler Avropa İttifaqının tənqidlərinə baxmayaraq, Lefkoşanın iştirakı ilə keçirilən TDT-nin zirvə görüşündə iştirak edən Macarıstanın Baş naziri Viktor Orbana təşəkkürünü bildirir. O vurğulayır ki, türk Kiprinin əleyhdarları nə qədər çalışsalar da, Lefkoşa öz inkişaf yolunda inamlı addımlar atmağa davam edəcək.




## ADA Universitetində bərpaolunan enerji mənbələrinə həsr edilmiş təlim keçirilib



**ADA Universitetində Energetika Nazirliyinin təşkilatçılığı, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Enerji Təhlükəsizliyi və Xalis Sıfır İdarəsinin dəstəyi ilə Azərbaycanda təmiz enerjiyə keçid mövzusunda təlim keçirilib.**

Renewables.az-a bu barədə nazirlikdən bildirilib.

Məlumata görə, təlimdə dənizdə külək enerjisi, "yaşıl hidrogen" istehsalı, istixana effekti yaradan qazların azaldılması, neft və qaz sektorunun dekarbonizasiyası üzrə təqdimatlar nümayiş edilib, Birləşmiş Krallıq tərəfi son dövrlərdə təmiz enerjiyə keçid sahəsində olan təcrübəsini iştirakçılarla bölüşüb. Sual-cavab sessiyasında iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Təlimdə Energetika Nazirliyi, nazirlik yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, nazirliyin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyi, eləcə də Ekologiya və Təbii Sərvətlər Nazirliyi, SOCAR, BP, "Azərenerji" ASC və "Azərişıq" ASC-nin nümayəndələri iştirak edib.

## SOCAR regionun enerji xəritəsinin formalaşmasında əsas rol oynamaq niyyətindədir

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) fəal iştirak edərək iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına kömək edəcək tədbirlər və müzakirələr təşkil etməyi planlaşdırır.**

Renewables.az-ın məlumatına görə, bunu SOCAR-ın vitse-prezidenti Əfqan İsayev "Euronews"a açıqlamasında deyib.

Ə.İsayev digər milli və beynəlxalq neft şirkətləri ilə birgə səylərin vacibliyini vurğulayıb: "Strateji tərəfdaşlıqlar və perspektivli layihələr vasitəsilə SOCAR gələcək nəsillər üçün dayanıqlı gələcəyi təmin etməyi hədəfləyir".

"SOCAR strateji mövqe tutur ki, regionun gələcək enerji xəritəsinin formalaşmasında əsas rol oynasın", - o vurğulayıb.

Vitse-prezident, həmçinin "Euronews"a şirkətin karbohidrogen və aşağı karbonlu biznes portfelini tarazlaşdırmaq məqsədilə ənənəvi neft-qaz müəssisəsindən 2035-ci ilə qədər enerji sahəsində şaxələndirilmiş lider şirkətə çevirmək planları və addımları barədə danışıb.

Ə.İsayev SOCAR karbonsuzlaşdırmaya sadiqliyini vurğulayaraq, emissiya səviyyəsini qlobal sənaye liderlərinin səviyyəsinə uyğunlaşdırmaq niyyətində olduğunu deyib.

O bildirib ki, dövlət şirkəti strateji qlobal oyunçularla əməkdaşlıq edir, o cümlədən 2 günəş və 1 külək-elektrik stansiyası da daxil olmaqla 1 qiqavat gücündə bərpaolunan enerji mənbələrinin, həmçinin ekoloji cəhətdən təmiz hidrogen istehsalına yönəlmiş 2 qiqavat gücündə dəniz külək enerjisi layihəsinin hazırlanmasına başlayıb.

## Çin şirkəti Azərbaycanda günəş panellərinin istehsalına investisiya yatırmaqda maraqlıdır



**Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin (BOEMDA) direktoru Cavid Abdullayev Çinin "Eqquo Limited" şirkətinin baş direktoru Michael Tunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Renewables.az BOEMDA-ya istinadən xəbər verir ki, görüşdə Azərbaycanda həyata keçirilən "yaşıl enerji" layihələri barədə ətraflı məlumat verilib. Çin şirkətlərinin bu layihələrdə aktiv iştirakından danışılıb.

"Eqquo Limited" şirkəti tərəfindən Azərbaycanda günəş panellərinin istehsalına investisiya yatırmaq istiqamətində maraq ifadə olunub.

Müvafiq sahələrdə əməkdaşlıq imkanları nəzərdən keçirilib və qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Ekoloji gərginlik ümumbəşəri qlobal problemdir

## Onu aradan qaldırmaq üçün hər birimiz səy göstərək

**Son illər planetdə qlobal iqlim dəyişikliyi ilə ekoloji təhlükənin baş verməsi geniş miqyaslı tədbirlərin həyata keçirilməsini məqsəd kimi qarşıya qoymuşdur. Bu baxımdan, Azərbaycanda keçiriləcək COP29 bəşəri əhəmiyyət kəsb edir.**



Planetdə qlobal ekoloji təhlükənin qarşısının alınması üçün təbiətə atılan kompleks şəkildə tullantıların miqdarının minimum həddə endirilməsi, hər yanda yaşıllıqların mütəmadi olaraq artırılması əsas amillərdən öncülü sayılır. Dünya alimlərinin bu qərarından hələ xeyli əvvəl Ulu Öndərimiz Heydər Əliyevin "Hərəyə bir ağac əkək", "Kim bir ağac kəssə, elə bil mənim qolumu kəsir, barmaqlarımı sındırır" kimi ibrətamiz kəlamları bu gün dövrün ən aktual təxirəsalınmaz proqramı sayıla bilər.

İnsanlıq üçün əhəmiyyətli olan bu ideyanın həyata keçirilməsində hər birimiz səy və bacarığımızı əsirgəməməliyik. Bu, hər bir vətəndaşın sağlam həyatı üçün mütləqdir, vacibdir, alidir. Müdrik Prezidentimiz İlham Əliyevin "Sağlam ekoloji mühit insanın həyatı üçün ən əhəmiyyətli məsələdir" sözləri hamımız üçün ömürlük bir proqramdır.

Bu gün ekoloji tarazlığın qorunmasında innovasiyayönümlü texnologiyaların, o cümlədən "az tullantılı" və ya "tullantısız" texnoloji proseslərin istehsalata geniş tətbiqi təxirəsalınmaz məsələdir. Bu sahədə hər birimiz səylərimizi artırmalıyıq, eləcə də yaşıllıqları qorumaq, yeni yaşıl zonalar yaratmaq uğrunda calışmalıyıq. Təbii sərvətlərimizdən səmərəli, məqsədyönlü istifadəyə nail olmaq hər birimizin vətəndaşlıq borcudur.

Sirr deyil ki, son dövrlərdə müxtəlif təhlükəli, yoluxucu xəstəliklər yayılmaqdadır. Bu qlobal problemin yaranmasının əsas səbəbi ekoloji tarazlığın pozulması, ətraf mühitin çirklənməsi, planetin hər yerində sənaye-məişət tullantılarının səliqəsiz atılmasıdır. Ətraf mühitə ögey münasibət, biganəlikdir.

Ekoloji problem ümumbəşəri qlobal məsələdir. Bu problemin həlli üçün yekdil, yığcam proqram-yanaşma hələlik məlum deyil. Atmosferdə karbon oksidləri qazlarının qatılığının minimum səviyyəyə endirilməsi ilə təbiəti belə bəlalardan mühafizə etmiş olarıq. Qeyd olunan tədbirlərin həyata keçirilməsi ilə, təbiətin flora və faunasını mühafizə etməklə atmosferin saflığını saxlamaq, toksiki, zərərli kimyəvi birləşmələrin minimum həddə endirilməsi əsas amildir.

Məlumdur ki, ətraf mühitdə qaz, maye və bərk aqreqat halında tullantılar mövcuddur. Hər bir tullantı üçün konkret olaraq fərdi yanaşma, elmi-tədqiqat işlərinin aparılması tələb olunur. Ətraf mühit üçün qaz, maye aqreqat halında tullantılarla yanaşı, əsası bərk halında olan zərərli tullantılar da problem yaradır. Onlar ciddi ekoloji gərginlik yaradırlar. Məhz bu tullantılar gündən-günə çoxalır. Bunlardan ətraf mühitə atılan ən çox polimer tullantılarıdır.

Qeyd edək ki, elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar plastik kütlə - polimer materiallarına böyük ehtiyac duyulduğundan, onların istehsalı mütəmadi artdığından istehsalatda, məişətdə, o cümlədən tibdə tullantıların yan (aralıq) məhsulların da miqdarları artır. Polimer, plastik kütlə materialları ətraf mühitdə özü-özünə uzun müddət çürüməmədiyindən, həll olunmadığından qaldıqca ciddi ekoloji gərginlik yaradır. Beləliklə, ekoloji balans pozulur. Aparılan elmi-tədqiqat işlərinin nəticəsi olaraq polimer-plastik kütlə tullantılarının utilləşdirilməsində təkrar emal üsulundan geniş istifadə edilir. Nəticədə alınan məqsədyönlü məhsul fiziki-mexaniki göstəricilərlə yüksək istismar xassələrinə malik polimer kompozitlərin alınması sahəsində əsas yer tutur. Bu üsul ekoloji-iqtisadi baxımdan qənaətbəxş hesab edilir.

Bu məqsədlə Yüksək Təzyiqli Polietilendən (YTPE) qənaətbəxş, istismar xassəyə cavab verə bilən, nəzəri və təcrübi elmi əhəmiyyətli polimer kompozitlər yaradılmışdır. Təcrübi olaraq aparılan tədqiqatın nəticələrinə, fiziki-mexaniki göstəricilərinə əsasən alınmış polimer kompozitlərin sənaye və texnikanın müvafiq sahələrində, məişətdə, tibdə, tikintidə, yüngül sənayedə, kənd təsərrüfatında, o cümlədən suvarmada və digər müvafiq sahələrdə texniki məqsədlər üçün istifadəsi tövsiyə edilir. Təqdim edilən tədqiqat işləmədə, əsasən, ekologiyaya, iqtisadiyyata müsbət təsir etməklə mövcud az və bahalı ilkin xammala qənaət olunur.

Qeyd edilənlərə əsasən, ümidvar olaq ki, yaxın zamanlarda elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar bu gün tullantı (yan) məhsul sayılan maddələr tezliklə gərəkli, qiymətli, geniş tətbiq imkanlı məhsullara çevriləcək. İqtisadiyyatımız daha da yüksələcək, ekoloji gərginlik problemi aradan qalxacaq.

*Valeh CƏFƏROV,*
*AMEA-nın müxbir üzvü,*
*kimya elmləri doktoru,*
*professor, Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu laureatı*

## Anar RZAYEV: "COP29 tədbirinədək Bakıya 160 yeni elektrikli avtobus gətiriləcək istifadəyə veriləcək"

**Bu ilin əvvəlində paytaxtda 200 yeni avtobus xəttə buraxılıb və yaxın vaxtlarda daha 200 avtobus istifadəyə veriləcək.**

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) sədri Anar Rzayev bildirib.

Qeyd edib ki, COP29 tədbirinə qədər Bakıya 160 yeni elektrikli avtobus gətirilərək istifadəyə veriləcək. "Ümumilikdə, Bakıda 360 avtobusun istifadəyə verilməsi nəzərdə tutulub. Bakının avtobus nəqliyyatı ilə bağlı AYNA yeni şəbəkə hazırlayıb. Bu şəbəkə şəhərin rəqəmsal "əkiz"ində simulyasiya edilib. Hazırda şəbəkənin tətbiqinə başlanılıb", - deyə A.Rzayev əlavə edib.

AYNA-nın sədri qeyd edib ki, şəbəkə üzrə ilk beş marşrut artıq istifadəyə verilib. Bunlar şəhərin uzaq məntəqələrini Hövsan və Mərdəkanı mərkəzlə əlaqələndirən marşrutlardır.

## COP29 viza müraciət sistemi aktivləşdirildi

**Azərbaycanda qeydiyyatdan keçən iştirakçıların ölkəyə rahat girişini təmin etmək məqsədilə xüsusi COP29 viza müraciət sistemi yaradılıb.**




COP29-un rəsmi saytının bildirdiyinə görə, COP29 xüsusi vizası birdəfəlik giriş vizası olacaq. Əgər iştirakçı Azərbaycanı tərk etmək və COP29-un keçirildiyi müddətdə yenidən Azərbaycana geri qayıtmaq istəsə, o zaman UNFCCC qeydiyyat nömrəsindən istifadə edərək və daha əvvəl keçdiyi prosesi təkrarlayaraq, COP29 xüsusi vizası üçün bir daha müraciət etməli olacaq.

Qeyd edilib ki, COP29 və sessiya öncəsi görüşlər üçün Azərbaycan ərazisinə səfər edən bütün xarici iştirakçıların pasportlarının etibarlılıq müddəti ölkəyə daxil olduqları tarixdən ən azı altı ay sonrakı müddət üçün etibarlı olmalıdır.

Bundan əlavə, iştirakçıların qeydiyyatı UNFCCC-nin onlayn qeydiyyat sistemi vasitəsilə təsdiqləndikdən sonra onlara e-poçtla UNFCCC qeydiyyatını təsdiqləyən viza üçün müraciət linki göndəriləcək:

"COP29 xüsusi vizasında vizanın verilmə tarixi qeyd ediləcək və bu viza 30 noyabr 2024-cü il tarixinədək etibarlı olacaq. Viza sahibləri Azərbaycan Respublikasına bu tarixdən əvvəl daxil olmalıdırlar", - məlumatda bildirilib.

Bunun üçün iştirakçılar link vasitəsilə viza portalına daxil olaraq formanı doldurmalı və tələb olunan sənədləri yükləyərək təsdiq üçün təqdim etməlidir:

"Təsdiq edildikdən sonra COP29 xüsusi vizanızı vebsaytdan yükləməyiniz üçün sizə vizanızı təsdiq edən e-poçtla link göndəriləcəkdir. İştirakçılara UNFCCC-də qeydiyyat təsdiqləndikdən dərhal sonra COP29 xüsusi vizası üçün müraciət etmələri tövsiyə olunur. Vizanın statusunu izləmək üçün UNFCCC qeydiyyatını təsdiq edən e-poçtudakı viza portalı linkindən istifadə edilməlidir".

Həmçinin iştirakçılar vizaların verilməsi ilə bağlı suallar üçün visas@unfccc.int elektron poçt ünvanına müraciət edə bilərlər.

# Özbəkistan energetika sektorunda islahatlar aparır

**Özbəkistanın enerji sektorunda islahatların məqsədlərinə 2030-cu ilə qədər bərpaolunan mənbələrdən elektrik enerjisi istehsalının 40 faizə çatdırılması daxildir ki, bu da ildə 16 milyon ton CO2 emissiyasını kompensasiya edəcək.**

Renewables.az-ın məlumatına görə, bu barədə Özbəkistan Energetika Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.

Daşkənd bölgəsində yerləşən "Riversayd"da fotoelektrik qurğunun yaradılması bu planın mühüm tərkib hissəsidir. Energetika Nazirliyi qeyd edib ki, stansiya Özbəkistanda bir çox bərpaolunan enerji layihəsini əhatə edən daha geniş təşəbbüsün tərkib hissəsidir.

Zavodun təmiz enerji istehsal etmək qabiliyyəti qazıntı yanacaqlarından asılılığı əhəmiyyətli dərəcədə azaltmağa və istixana qazları emissiyalarını minimuma endirməyə kömək edəcək, eyni zamanda 500 meqavat-saatlıq batareya enerji saxlama sisteminin inteqrasiyası bərpaolunan enerjinin sabit və səmərəli təchizatını təmin edəcək.

Enerji istehsalı, duzsuzlaşdırma və "yaşıl hidrogen" qurğularının aparıcı inkişafetdiricisi, sərmayəçisi və operatoru olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti Özbəkistanın "Milli Elektrik Şəbəkəsi" səhmdar cəmiyyəti və İnvestisiya, Sənaye və Ticarət Nazirliyi ilə üç enerji alqı-satqısı müqaviləsi və investisiya kontraktı imzalayıb. Bu sənədlərə Daşkənd və Səmərqənddə üç günəş fotovoltaik layihəsinin, həmçinin Daşkənd, Buxara və Səmərqənddə üç akkumulyator enerjisinin saxlanması sisteminin inkişafı daxildir.

Mətbuat xidməti bildirir ki, bu layihələr Daşkənd, Səmərqənd və Buxarada bir milyondan çox ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməklə yanaşı, ildə təxminən 1,6 milyon ton karbon qazı emissiyasını kompensasiya etməklə, ölkəyə əhəmiyyətli sosial-iqtisadi fayda verəcək.

Xatırladaq ki, 2023-cü ilin dekabrında Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi vasitəsilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirə edildiyi üçtərəfli görüşün nəticəsi olaraq birgə kommünike imzalanıb. Sənəddə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olunub. Kommünikedə, həmçinin Xəzər-Qara dəniz-Avropa ixrac dəhlizinin birgə layihəsi və Naxçıvan-Türkiyə-Avropa enerji dəhlizinin perspektivləri göstərilib. Buna görə də Prezident İlham Əliyevin TDT Şuşadakı Zirə görüşündə çıxışında söylədiyi "Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir. Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək yolu" layihəsi də mühüm təşəbbüslərdən biridir" fikirləri onunla əsaslanır ki, Özbəkistanın və Qazaxıstanın Avropaya enerji ixracı üçün böyük potensialları var. Beynəlxalq



Enerji Agentliyinin hesabatına görə, Özbəkistanın illik tələbatdan 30 dəfə çox - 2091 milyard kilovat-saat elektrik enerjisi istehsal etmək imkanı var. Özbəkistanın iqlimi ildə 320 günəşli gündən ibarətdir ki, bu da böyük həcmdə alternativ enerji istehsalına imkan yaradır. Ölkənin Surxandərya, Buxara, Kaşkadərya vilayətləri coğrafi baxımdan elə iqlim qurşağında yerləşir ki, bu regionlarda ümumilikdə 2058 milyard kilovat-saat Günəş enerjisi hasil etmək olar. BMT-nin "yaşıl enerji"nin inkişafına dair hazırladığı hesabatda vurğulanır ki, Özbəkistanın şimal-qərb və cənub-qərb əraziləri 9,9 milyarda kilovat-saat külək enerjisi istehsal etmək iqtidarındadır.

Son 5 ildə Özbəkistan Prezidenti "yaşıl enerji"nin inkişaf etdirilməsi üçün 15 sərəncam imzalayıb. Hökumət "yaşıl enerji" potensialını düzgün qiymətləndirərək müxtəlif xarici şirkətlərlə 21 müqavilə imzalayıb. Bu gün Özbəkistanda "yaşıl enerji" istehsalı ilə əlaqədar olaraq 19 layihə icra olunur.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Türk İnvestisiya Fondunun məqsədi iqtisadi inkişafı dəstəkləməkdir

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələr Türk İnvestisiya Fondunun yaradılması ilə bağlı razılığa 2022-ci il noyabrın 11-də Səmərqənd sammitində gəliblər. Sənəd Prezident İlham Əliyevin təşəbbüsü ilə ötən il martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının fövqəladə Zirvə görüşündə imzalanıb.**




Türk dövlətlərinin başçıları, tədbirin digər iştirakçıları və ekspertlər belə bir fondun TDT-yə üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm təkan verəcəyini bildiriblər.

"Türk İnvestisiya Fondunun yaradılması haqqında" sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu isə Prezident İlham Əliyev tərəfindən 2023-cü il iyunun 14-də imzalanıb.

Qeyd edək ki, fondun 500 milyon dollar həcmində nizamnamə kapitalı 5 ölkənin - Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın vəsaiti (hər bir ölkə 100 milyon dollar) hesabına formalaşmalıdır. Təşkilatın mənzil qərargahı İstanbulda yerləşəcək. Nizamnamə kapitalı hər birinin nominal dəyəri 50 min dollarlıq 10 min ədəd səhmdən ibarət olacaq. Nizamnamə kapitalı 350 milyon dollar məbləğində ödənilmiş və 150 milyon dollar məbləğində cəlb olunan səhmlərə bölünür. Hər bir ölkə ödənilmiş səhmlərə görə 4 ödəniş həyata keçirəcək: ilkin ödəniş 5 milyon dollar, qalan ödənişlər müvafiq qaydada 18 milyon, 23 milyon və 24 milyon dollar (hər bir ölkə üçün cəmi 70 milyon dollar) olacaq. Cəlb olunan səhmlər çərçivəsində hər bir ölkənin payı 30 milyon dollar təşkil edəcək. Fond TDT-yə üzv ölkələrin iqtisadi potensialının inkişafına, eləcə də onlar arasında iqtisadi-ticarət əlaqələrinin möhkəmləndirilməsinə və birgə layihələrin həyata keçirilməsinə xidmət göstərəcək. Fond prezident, idarə heyəti, Direktorlar Şurası və baş direktordan ibarət olacaq.

Fondun qarşıya qoyulan məqsədə nail olmaq üçün investisiya fəaliyyəti ilə bir sıra funksiya və səlahiyyətləri nəzərdə tutulur. Bunlara regiondaxili ticarətin inkişafına yardım, layihələrin, xüsusilə mikro, kiçik və orta sahibkarlıq layihələrinin maliyyələşdirilməsi, beynəlxalq və milli maliyyə və inkişaf institutları, habelə ticarət palataları və özəl təşkilatlarla birgə əməkdaşlıq və maliyyələşdirmə, nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsinin dəstəklənməsidir. Fond tərəfindən, eləcə də dövlət-özəl tərəfdaşlıq da daxil olmaqla fiziki və rəqəmsal infrastrukturun yaradılması və modernləşdirilməsinin, sənaye istehsalı, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları və turizm də daxil olmaqla, qarşılıqlı maraq doğuran sahələrdə inkişaf layihələrinin dəstəklənməsi və s. nəzərdə tutulur.

Türk İnvestisiya Fondunun yaranması barədə sazişin imzalanması Türkiyədəki dəhşətli faciədən sonraya təsadüf etməsi də bir rəmzi çağırışdır. Prezident İlham Əliyev böyük uzaqgörənliklə həm TDT daxilində iqtisadi əlaqələrin rəvanlığı, həm də xarici təzyiqlərdən müdafiə və Fransa kimi müstəmləkəçilərin kolonizasiya eybəcərliyinə məruz qalmış xalqlara maddi dəstək, eyni zamanda COVID-19 pandemiyası zamanı vaksinlərin ədalətsiz bölgüsünə etirazı zəminində yoxsulluq səviyyəsindəki ölkələrə mümkün yardımlarla bağlı üstüörtülü mesajlar verdi. Ümumiyyətlə, bu təşkilatda birləşən dərin tarixi köklərə malik türk ailəsinin milli-mənəvi dəyərlərə önəmi səbəbindən bütün dünyada zalımlara, irticaya, hegemonluğa qarşı duracağı, haqqı-hüququ pozulmuş insanların yanında olacağı, məzlumlara dəstək nümayiş etdirəcəyi bir aksiomdur. Beynəlxalq aləmdə belə möhtəşəm humanitar missiyanı yerinə yetirməkdən ötrü türk dövlətlərinin birliyi təklifi də məhz bizim dövlətimizin rəhbərliyindən gəlib.

Xatırladaq ki, TDT 2009-cu il oktyabrın 3-də türkdilli dövlət başçılarının Naxçıvanda keçirilən zirvə görüşündə imzalanmış sazişə əsasən yaradılıb və "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası" (TDƏŞ) adlanıb. 2021-ci ildə adına dəyişiklik edilib və hazırda Türk Dövlətləri Təşkilatı kimi fəaliyyətini davam etdirir.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına böyük önəm verir: "Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox. Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

Dövlətimizin başçısı İlham Əliyev bu ay Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündəki çıxışında isə deyib: "Bu ilin may ayında İstanbulda Türk İnvestisiya Fondunun təsis iclasının keçirilməsi iqtisadi əlaqələrimizin daha da dərinləşməsinə xidmət edən növbəti uğurlu addımdır. İnanıram ki, fond vasitəsilə bir çox sahələrdə birgə layihələrə sərmayə qoyulacaqdır".

Deyilənlərə bir neçə fakt və rəqəm də əlavə etmək yerinə düşərdi. Belə ki, türk dövlətləri dünyanın ümumi ticarət dövriyyəsinin 2,4 faizini və qlobal ümumi daxili məhsulun 1,6 faizini təşkil edir. Bu günə qədər Azərbaycan türk dövlətlərinin iqtisadiyyatına 20 milyard dollardan çox sərmayə qoyub. 2024-cü ilin yanvar-mart ayları ərzində Azərbaycanın TDT-yə üzv və müşahidəçi statusa malik ölkələr ilə ticarət dövriyyəsi 1 milyard 709,1 milyon dollar təşkil edib. Bu, ümumi ticarət dövriyyəmizin 17,6 faizinə bərabərdir. Cari ilin birinci rübündə Azərbaycanın ticarət dövriyyəsi Türkiyə ilə 1 milyard 469,1 milyon, Türkmənistanla 96 milyon 926 min, Qazaxıstanla 70 milyon 829 min, Özbəkistanla 35 milyon 814 min, Qırğızıstanla 23 milyon 382 min, Macarıstanla isə 13 milyon dollar olub. 2024-cü ilin ilk üç ayı ərzində Azərbaycandan Türkiyəyə 150 milyon 291 min, Qırğızıstana 20 milyon 815 min, Türkmənistana 16 milyon 861 min, Qazaxıstana isə 11 milyon 731 min dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

## Azərbaycan ilə Macarıstan arasında aqrar sahədə əməkdaşlığın perspektivləri nəzərdən keçirilib

**Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstan Respublikasında rəsmi səfərdədir.**

Səfər çərçivəsində nazir Məcnun Məmmədov Macarıstanın kənd təsərrüfatı naziri İstvan Nagy ilə görüşüb. Görüşdə Kənd Təsərrüfatı Nazirliyinin, aqrar sahədə fəaliyyət göstərən şirkətlərin təmsilçiləri iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov indiyədək keçirilən görüşlərdə aqrar sahədə müasir texnologiyaların transferi, mütəxəssis hazırlığı, azərbaycanlı gənc mütəxəssislərin Macarıstanda uzunmüddətli təcrübə proqramlarına cəlb edilməsi, heyvandarlıq (embrion transferi) sahəsində əməkdaşlığın davam etdirilməsi, quşçuluq sahəsində Macarıstan təcrübəsinin öyrənilməsi və bu sahədə əməkdaşlığa başlanılması, aqrar sahədə fəaliyyət göstərən sahibkarlar arasında sıx əlaqələrin qurulması ilə bağlı razılıq əldə edildiyini xatırladıb. İki ölkə arasında kənd təsərrüfatı sahəsində əlaqələrin daha da genişləndirilməsinin vacib olduğu vurğulanıb, kənd təsərrüfatı sahəsində Azərbaycan-Macarıstan işçi qrupunun fəaliyyətinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Azərbaycan tərəfi iki ölkənin iqtisadi potensialını nəzərə alaraq ticarət əlaqələrinin daha da şaxələndirilməsinin, ticarət dövriyyəsinin artırılmasının vacibliyinə diqqət çəkib. Nazir Məcnun Məmmədov macar həmkarını Azərbaycana səfərə dəvət edib, ona işğaldan azad olunan tarixi torpaqlarımızda bərpa, yenidənqurma və zəruri infrastrukturun yaradılması istiqamətində genişmiqyaslı tədbirlərlə yaxından tanış olmağı təklif edib. Bu ərazilərdə kənd təsərrüfatının bərpası və inkişafı istiqamətində Azərbaycanın dost ölkələrlə əməkdaşlıq etdiyini diqqətə çatdıran nazir, macar sahibkarları bu ərazilərdə investisiya imkanlarını dəyərləndirməyə çağırıb.

Macarıstanın kənd təsərrüfatı naziri İstvan Nagy öz növbəsində Macarıstanla Azərbaycanın dost ölkələr olduğunu, bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraq göstərdiyini deyib. O qeyd edib ki, iki ölkə arasında ticarət əlaqələrinin intensivləşdirilməsi, aqrar sahədə əlaqələrin genişləndirilməsi istiqamətində işlərin aparılması vacib əhəmiyyət daşıyır. İstvan Nagy bu dəvəti məmnuniyyətlə qəbul edərək, yaxın zamanlarda Azərbaycana səfər edəcəyini vurğulayıb.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycanda ilk dəfə klasterləşmə formalaşacaq

**İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan, İmişli rayonunda yerləşən aqroparkın 5826 hektarlıq təsərrüfat sahəsinin Özbəkistan şirkətinin uzunmüddətli istifadəsinə verilməsinə dair müqavilə imzalanıb.**



Müqaviləni İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, "TST Textile Group" MMC-nin rəhbəri Rahib İsayev imzalayıblar.

AZƏRTAC xəbər verir ki, "TST Textile Group" MMC tərəfindən 5826 hektarlıq ərazidə pambıq sahəsi salınacaq, bu isə ölkəmizdə sözügedən sahənin inkişafında mühüm rol oynayacaq. İlkin mərhələdə pambıq sahəsinin yaradılmasına 28,7 milyon manat investisiya yatırılacaq.

Bundan başqa, 2025-2029-cu illər ərzində şirkət tərəfindən pambıq emalı, iplik, toxuculuq və tikiş fabriklərinin, həmçinin pambıq yağı zavodunun qurulması nəzərdə tutulur.

Bununla bağlı İmişlidə keçirilən tədbirdə İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Elkiyar Ziyadov, həmçinin hər iki ölkədən olan dövlət qurumlarının nümayəndələri, fermerlər, aqrar sahədə fəaliyyət göstərən şirkətlərin əməkdaşları iştirak ediblər.

Qeyd olunub ki, pambıq emalı və yağ zavodları İmişli rayonu ərazisində yerləşən 5826 hektar torpaq sahəsində, iplik, toxuculuq və tikiş fabrikləri isə Mingəçevir Sənaye Parkının ərazisində yaradılacaq. Layihə çərçivəsində xammaldan son məhsul istehsalına kimi proseslər həyata keçiriləcək, bu da klasterləşmənin qurulmasına təkan verəcək.

Ümumi investisiya həcmi 92,5 milyon manat təşkil edən layihə çərçivəsində 1130 nəfərlik iş yerinin yaradılması planlaşdırılır. Layihənin həyata keçirilməsinə şəxsi vəsaitlə yanaşı, Azərbaycan-Özbəkistan İnvestisiya Fondu tərəfindən də vəsait ayrılması nəzərdə tutulur.

## İlin əvvəlindən bəri 203 mindən çox şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi yanvar-iyun aylarında 203,1 min nəfəri aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlardan 84,4 min nəfərin münasib işlərlə təminatı həyata keçirilib. 1,9 min şəxs isə özünüməşğulluq proqramı çərçivəsində kiçik ailə təsərrüfatlarını yaratmaları üçün aktivlərlə təmin olunub.

Həmin dövrdə agentlik 8,5 min nəfər işsiz və işaxtaran şəxs üçün peşə hazırlığı kursları təşkil edib, 108,3 min şəxsə peşəyönümü xidmətlər göstərib.

## Biznesə başlamaq istəyən şəxslərə təlim və məsləhət xidməti göstərilib

**Bu ilin birinci yarısında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən sahibkarların, biznesə başlamaq istəyənlərin və startapların biznes sahəsində bilik və bacarıqlara yiyələnməsi, mövcud biliklərinin artırılması üçün 800-ə yaxın iştirakçı üçün 75 təlim keçirilib, 2293 saat məsləhət xidməti göstərilib və 152 biznes plan hazırlanıb.**




KOBİA-dan AZƏRTAC-a bildirilib ki, təlimlər biznesə başla, layihə idarəetməsi, maliyyənin idarə olunması, satış, marketinq, rəqəmsal bacarıqlar, "yaşıl iqtisadiyyat" və digər mövzuları əhatə edib.

Bu dövrdə 32 sahibkar və menecer beynəlxalq təcrübəyə yiyələnməsi üçün "Almaniya ilə biznes əməkdaşlığı" proqramı çərçivəsində Almaniyada ixtisasartırma kursu keçib.

Agentliyin video təlim platformasındakı onlayn təlim videolarından ödənişsiz olaraq 48 sahibkar və biznesə başlamaq istəyən şəxs faydalanıb. Satış kanallarına çıxış, marketinq, biznesin planlaşdırılması, mühasibatlıq, hüquqi məsələlərlə bağlı 208 sahibkara və biznesə başlamaq istəyən şəxsə 2293 saat məsləhət xidməti göstərilib.

Həmçinin bu ilin birinci yarısında kənd təsərrüfatı, istehsal, xidmət və digər istiqamətlərdə 152 biznes planın ödənişsiz olaraq hazırlanmasına dəstək verilib.

Ümumilikdə isə 2024-cü ilin I yarısında agentliyin KOB subyektlərinin biznes biliklərinin və bacarıqlarının artırılması istiqamətində göstərdiyi dəstək və xidmətlərdən 1000-dən çox KOB subyekti, startap və biznesə başlamaq istəyən şəxs yararlanıb.

## Hədəf Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirməkdir



**Prezident İlham Əliyevin apardığı iqtisadi siyasətin mühüm istiqamətlərindən biri də sənayenin inkişafıdır. Hədəf ölkədə sənayenin, xüsusilə qeyri-neft-qaz sənayesinin inkişafına nail olmaqdır. Bu istiqamətdə çox iş görülüb, lakin proses hələ başa çatmayıb.**

Sənayenin inkişafında sənaye parkları və sənaye məhəllələri önəmli rol oynayır. Belə ki, burada sahibkarlar tərəfindən ən son texnologiyalardan istifadə olunması istehsal edilən məhsulun xarici bazara ixracını asanlaşdırır. Son dövrlər ölkədən dünya bazarına qeyri-neft-qaz məhsullarının ixracının artması da bununla bağlıdır.

Məlumdur ki, hər bir sahənin inkişafı investisiya qoyuluşu tələb edir. Ona görə də dövlət qeyri-neft-qaz sənayesində çalışan sahibkarlara dəstək verir, onlara güzəştli kreditlərin əldə edilməsinə yardımçı olur. Bundan əlavə, sənaye parkları və sənaye məhəllələrində fəaliyyət göstərən yerli və xarici sahibkarlar bir çox vergi və rüsumlardan azad edilməklə yanaşı, əlavə güzəştlərdən də istifadə edirlər. Dövlət dəstəyi sahibkarların bu sektorda fəaliyyətlərini artırmaqlarına səbəb olur. Bunun nəticəsidir ki, 2004-2023-cü illərdə sənayeyə yönəldilən sərmayənin həcmi ölkə üzrə qoyulmuş ümumi investisiyaların 49,1 faizini təşkil etməklə 134 milyard manata çatmışdır. Ölkə üzrə sənaye məhsulunda özəl sektorun payı 2023-cü ildə 2003-cü illə müqayisədə 56,8 faizdən 84,5 faizədək yüksəlmişdir. Cari ilin yanvar-may aylarında sənayedə qeyri-dövlət sektorunun payının 81,2 faizə çatması da bu sahədə böyük irəliləyişin olduğunu göstərir.

Prezident İlham Əliyevin apardığı islahatların hədəfi - Azərbaycanı inkişaf etmiş sənaye ölkəsinə çevirmək yolunda görülən işlər dünyada yüksək qiymətləndirilir və nüfuzlu beynəlxalq qurumlar ölkəmizlə əməkdaşlıq edirlər. Davos Dünya İqtisadi Forumu kimi bir mötəbər təşkilatın Azərbaycanda öz mərkəzinin yaradılması barədə niyyət protokolu imzalaması da bunu sübut edir.

Azərbaycan qlobal çağırışlara və tendensiyalara vaxtında adekvat cavab verərək yeni inkişaf trendlərinin tətbiqində ön sıralarda olmaqda qərarlıdır. Bu baxımdan ölkəmizdə rəqəmsal iqtisadiyyatın və texnologiyaların inkişafı üçün əlverişli infrastrukturun, o cümlədən Dördüncü Sənaye İnqilabının standartlarına uyğun şəraitin formalaşdırılması istiqamətində fəal iş aparılır.

Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılmış Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi də yeni reallıqlar şəraitində ölkəmizin mövqeyini gücləndirmək, qabaqcıl texnoloji imkanlardan maksimum yararlanmaq, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlıq və koordinasiya həyata keçirmək məqsədinə xidmət edir. Mərkəz Azərbaycan Respublikası ilə Dördüncü Sənaye İnqilabı sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu sahədə əlaqələndirməni, həmçinin rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların və layihələrin təhlilini və koordinasiyasını həyata keçirir.

Qeyd edək ki, 2020-ci ilin 21 yanvar tarixində İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda Prezident İlham Əliyev və Dünya İqtisadi Forumunun prezidenti cənab Borge Brende arasında Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin yaradılması ilə bağlı niyyət protokolu imzalanmışdır. Bunun əsasında Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Mərkəzi yaradılıb ki, bu da ölkəmizi rəqəmsal və texnoloji mərkəzə çevirmək məqsədindən irəli gəlir. Azərbaycan Mərkəzi MDB məkanında yaradılan ilk bu cür mərkəzdir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi 2021-ci ilin 1 aprel tarixindən bugünədək mərkəzin fəaliyyətini də koordinasiya edir. Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Dünya İqtisadi Forumunun süni intellekt və maşın öyrənməsi, əşyaların interneti və şəhər transformasiyası, eləcə də rəqəmsal ticarət və iqtisadiyyat platformaları ilə əməkdaşlıq edir. Bu platformalar çərçivəsində iqtisadiyyatın bir çox sahələrində müxtəlif istiqamətlərdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Eyni zamanda Dördüncü Sənaye İnqilabı Şəbəkəsinin müxtəlif ölkələrdə yaradılmış mərkəzləri ilə (Türkiyə, BƏƏ, İsrail, Yaponiya) sıx əməkdaşlığın qurulması və genişləndirilməsi üçün işlər aparılır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Mədəniyyət



Mədəni irsimiz

# Heydər Əliyev Fondu çoxşaxəli və uğurlu fəaliyyət göstərir



**Elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə, idmanın inkişafına, sosial müdafiənin gücləndirilməsinə, ekoloji mühitin qorunmasına dair layihələrin, proqramların reallaşdırılması Heydər Əliyev Fondunun fəaliyyətinin mühüm istiqamətləridir. Fond yarandığı vaxtdan Azərbaycanda, eləcə də ölkəmizin hüdudlarından kənarda qeyd etdiyimiz sahələrdə çox əhəmiyyətli işlər görüb.**

İyirmi ildir ki, çoxşaxəli fəaliyyət göstərən Heydər Əliyev Fondunun dəstəyi ilə təhsil sahəsində irimiqyaslı proqramlar həyata keçirilib. Ötən il Qubada iki yeni məktəb binası istifadəyə verilib. Pirvahid kənd tam orta məktəbin yeni binası 320, Bağbanlı qəsəbə tam orta məktəbin yeni binası isə 360 şagirdlikdir. Həmçinin 2023-2024-cü tədris ilində Heydər Əliyev Fondu tərəfindən Bakıda və regionlarda əsaslı təmir və bərpa olunan, eləcə də yeni inşa edilən 22 təhsil müəssisəsi - 19 məktəb və 3 məktəbəqədər müəssisə istifadəyə verilib. Ümumiyyətlə isə Heydər Əliyev Fondunun təhsil sahəsində gerçəkləşdirdiyi layihələr çərçivəsində 500-dən çox məktəb inşa və təmir olunub.

Valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat məktəblərinin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması məqsədi ilə Heydər Əliyev Fondunun gördüyü işlər də təqdirəlayiqdir. Fondun reallaşdırdığı proqramlar çərçivəsində uşaq bağçaları üçün yeni binalar inşa edilib, onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir olunub. Əhali arasında ekoloji təbliğatın gücləndirilməsi, ekoloji tarazlığın qorunması, nəsli kəsilməkdə olan heyvan və bitki növlərinin mühafizəsi kimi əhəmiyyətli məsələlərdə də fondun fəaliyyəti diqqətçəkəndir.

Heydər Əliyev Fondu fəaliyyətinin ilk vaxtlarından zəngin mədəni irsimizin qorunması, inkişafı, tanıdılması və multikultural dəyərlərimizin təbliğində məqsədyönlü silsilə tədbirlər həyata keçirir. Beynəlxalq Muğam Mərkəzi, Müasir İncəsənət Muzeyi, Azərbaycan Xalça Muzeyi və bir sıra digər mədəniyyət ocaqları fondun təşəbbüsü ilə tikilib. Bundan başqa, dünyanın bir sıra ölkələrində də Azərbaycan Mədəniyyət Mərkəzləri yaradılıb. Qurumun təşkilatçılığı ilə keçirilən Beynəlxalq Muğam Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı və digər beynəlxalq festivallar çərçivəsində dünyanın bir sıra ölkələrinin musiqiçiləri ölkəmizə gəlib sənət nümunələrini təqdim edirlər. Bu tədbirlər mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsində mühüm rol oynayır.

"Tolerantlığın ünvanı - Azərbaycan" Heydər Əliyev Fondunun müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun dərinləşdirilməsi baxımından əhəmiyyətli layihələrindəndir.

2020-ci ildə Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi qəhrəman ordumuz Ermənistan silahlı qüvvələrinin işğalından azad etdi. Zəfərimizdən qısa müddət sonra Şuşaya səfər edən Prezident İlham Əliyev Ermənistanın işğalı nəticəsində otuz ilə yaxın keçirilməmiş mədəniyyət tədbirlərimizin bərpa ediləcəyi, düşmənin talan etdiyi, uçurub dağıtdığı tarixi-mədəni, dini ocaqlarımızda tikinti-təmir işləri aparılacağı müjdəsini verdi. Bu böyük işlərin həyata keçirilməsində Heydər Əliyev Fondunun töhfələri misilsizdir. Fond işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işlərində fəal iştirak edir. Heydər Əliyev Fondu tərəfindən Şuşa şəhərində Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Mehmandarovların malikanə kompleksi, Saatlı məscidi, İncəsənət qalereyası, Xalça muzeyi, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Mamayı məscidi, Üzeyir Hacıbəylinin ev-muzeyi, Yeni Şuşa məscidi, Ağdam Cümə məscidinin, Xocavənd rayonunun Susanlıq kəndindəki kilsənin, Xan qızı bulağı və digər tarixi binaların və abidələrin bərpasına dəstək verilib. Tarixi-mədəni, dini abidələrin bir çoxunun bərpası artıq başa çatdırılıb. 2021-ci ildən bəri hər il Şuşada təşkil olunan Vaqif Poeziya Günləri və "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının təşkilatçılarından biri də Heydər Əliev Fondudur.

Fondun dəstəyi ilə Bakıda və digər bölgələrdə yerləşən bir sıra məscidlərdə də əsaslı təmir və yenidənqurma işləri aparılıb. Qəbələ şəhərində yeni məscidin tikilməsi, Şəki Xan məscidi kompleksinin, Nic qəsəbəsində "Cotari" alban-udi və Müqəddəs Məryəm Ana alban kilsələrinin bərpası, Şamaxıda Pirsaat Baba ziyarətgah-məscid kompleksinin yenidən qurulmasını və digər işləri buna misal göstərə bilərik.

Fondun təşkilatçılığı və dəstəyi ilə dünyaşöhrətli müğənni Müslüm Maqomayevin, böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtımızda heykəllərinin açılışı olub.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti nəticəsində görülən bu böyük işlərlə yanaşı, qurum ICESCO, BMT-nin İnkişaf Proqramı, UNICEF və digər beynəlxalq təşkilatlarla birgə əməkdaşlıq çərçivəsində bir çox mədəniyyət layihələri həyata keçirib. UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, eləcə də mədəni irs nümunələrinin daxil edilməsi fondun Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində böyük xidmətləridir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Mədəni əlaqələr

# TÜRKSOY-un 31 yaşı tamam oldu

**Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının - TÜRKSOY-un yaranmasının dünən 31 ili tamam oldu. TÜRKSOY türkdilli ölkələr arasında qurulmuş ilk beynəlxalq təşkilatdır. İdeyası 1992-ci ildə irəli sürülmüşdü.**

Bununla bağlı Bakı və İstanbul şəhərlərində bir sıra görüşlər keçirilmişdi. 1993-cü il iyulun 12-də Almatı şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin mədəniyyət nazirlərinin iştirakı ilə olan toplantıda "Türk Kültür və Sənətləri Ortaq Yönətimi"nin (TÜRKSOY) yaradılması haqqında saziş imzalanmışdı. 2009-cu ildən qurum Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı adlanır. Katibliyi Ankara (Türkiyə) şəhərində yerləşir.

1993-cü ildən bəri TÜRKSOY bəşər mədəniyyəti xəzinəsinin nadir incilərinə çevrilmiş türk xalqlarının zəngin irsinin araşdırılması, öyrənilməsi və dünyada tanıdılmasında mühüm mədəni layihələr reallaşdırır. Təşkilat türkdilli xalqların sosial-mədəni oxşarlığının bir araya gətirilməsi, ortaq türk mədəniyyətinin, dilinin, tarixinin, incəsənətinin, adət-ənənələrinin, mədəni irsinin qorunması, öyrənilməsi, inkişaf etdirilməsi, dünyada tanıdılması və gələcək nəsillərə ötürülməsi məqsədilə qurulub. 6 qurucu üzv ölkəsindən başqa, Şimali Kipr Türk Cümhuriyyəti, həmçinin Rusiya Federasiyasının Altay, Başqırdıstan, Tatarıstan, Tıva, Xakasiya və Saxa-Yakut respublikaları, Moldovanın Qaqauz Yeri muxtar bölgəsi təşkilatda müşahidəçi üzvlük statusuna malikdir.

Fəaliyyəti hər il toplantıları keçirilən Mədəniyyət Nazirləri Daimi Şurası tərəfindən müəyyənləşdirilir. Təşkilatın cari fəaliyyətinə baş katib rəhbərlik edir. 1993-cü ildən TÜRKSOY-un ilk baş katibi Azərbaycan Respublikasının Rusiyadakı səfiri, keçmiş mədəniyyət naziri, Xalq artisti Polad Bülbüloğlu idi. Təşkilatın ikinci baş katibi - Qazaxıstanın keçmiş mədəniyyət naziri, musiqi xadimi Düsen Kaseinov (2008-ci ildən) seçildi. TÜRKSOY-un üçüncü baş katibi olan Qırğızıstanın keçmiş mədəniyyət naziri, həmin ölkənin Xalq yazıçısı Sultan Raev 2022-ci ilin martından bu təşkilata rəhbərlik edir.

TÜRKSOY yarandığı gündən olduqca əhəmiyyətli işlər həyata keçirir.

Tarixi, dili, mədəniyyəti ilə eyni kökə bağlı olan türk xalqları 31 ildir ki, bu beynəlxalq təşkilatda birləşərək sənət dəyərlərini bir araya gətirərək təbliğ edirlər. Ümumtürk mədəni irsinin təbliği və tanıdılması, türk xalqlarının mədəni irsinin öyrənilməsi, türkdilli xalqlar, ölkə və diyarlar arasında mədəniyyət, incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi baxımından təşkilatın fəaliyyəti təqdir olunur. Qurumun uğurlu layihələrinin bir çoxu artıq ənənəyə çevrilib, hər il davam etdirilir.

TÜRKSOY-un təşkilatçılığı ilə ənənəvi olaraq türk xalqlarının tarixində baş vermiş mühüm hadisələr, bəşər mədəniyyətinin xəzinəsinin inciləri sayılan milli eposların, dahi şəxsiyyətlərin, korifeylərin ildönümləri bayram edilir. "Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının, türkdilli xalqların milli eposu olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan və digər yubiley mərasimləri bu qəbildəndir. TÜRKSOY-un təşkilatçılığı ilə həyata keçirilən birgə tədbirlər, layihələr, xalqlarımız arasında əlaqələrin daha da genişləndirilməsi baxımından çox əhəmiyyətlidir.

Türk xalqları arasında əlaqələrin inkişafına, ortaq mədəni dəyərlər vasitəsilə dostluq və qardaşlıq bağlarının möhkəmləndirilməsinə səy göstərən bu beynəlxalq təşkilatın fəaliyyətində Azərbaycan yaxından iştirak edir. Ötən il TÜRKSOY-un 30 illiyi respublikamızda geniş qeyd olundu. Ölkəmizin müxtəlif bölgələrində bir-birindən maraqlı tədbirlər düzənləndi.

Təşkilatın digər üzvləri kimi, Azərbaycanın da görkəmli mədəniyyət, ədəbiyyat xadimlərinin adına hər il TÜRKSOY-un xatirə ili elan olunur. Ümumiyyətlə, bu beynəlxalq təşkilat ölkəmizlə bağlı maraqlı, əhəmiyyətli çoxsaylı birgə layihələr reallaşdırıb. TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsi iki dəfə Azərbaycanda gerçəkləşib. 2016-cı ildə "Türk dünyasının mədəniyyət paytaxtı" Şəki şəhəri, ötən il isə Şuşa şəhəri olub. 2023-cü ildə, eyni zamanda TÜRKSOY Daimi Şurasında dönəm koordinatorluğunu Azərbaycan həyata keçirib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Tarixi abidələrimizin siyahısı zənginləşir

## Daşınmaz mədəni sərvətlərin müəyyənləşdirilməsi üzrə işlər davam edir

**Bu günlərdə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyi yanında daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert Şurasının həyata keçirilmiş işlərə və qarşıda duran vəzifələrə dair iclası keçirilib.**



Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən verilən məlumata görə, şuranın sədri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru professor Gülçöhrə Məmmədova çıxış edərək şura tərəfindən həyata keçirilən işlər barədə məlumat verib. Sonra dövlət xidmətinin rəisi Səbinə Hacıyeva abidələrin qiymətləndirilməsi ilə bağlı mövcud çətinliklər və qarşıda duran məsələlər haqqında danışıb.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Mədəni irsin qorunması şöbəsinin Abidələrin qorunmasına nəzarət sektorunun müdiri Pərviz Nəcəfov bildirib ki, birinci mərhələdə Bakı şəhəri üzrə 6 və işğaldan azad edilmiş ərazilər üzrə 51 obyekt, ikinci mərhələdə Binəqədi rayonu üzrə 13 dövlət qeydiyyatında olan abidə və 12 tarix-memarlıq əhəmiyyətli tikili, üçüncü mərhələdə isə Memarlar İttifaqının Səbail rayonu üzrə təklif etdiyi 63 tikili - ümumilikdə cəmi 145 abidə baxılması üçün Ekspert Şurasına təqdim olunub.

Qeyd edilib ki, birinci mərhələdə Bakı şəhəri və işğaldan azad edilmiş ərazilər üzrə obyektlərlə bağlı şura üzvləri tərəfindən verilən təkliflər ümumiləşdirilərək Azərbaycan Milli Elmlər Akademiyasına (AMEA) göndərilib. AMEA tərəfindən 48 obyektin siyahıya daxil edilməsinə müsbət rəy verilib. Bu obyektlərin abidələr siyahısına daxil edilməsi üçün qərar layihəsi hazırlanıb və razılaşdırılma məqsədilə müvafiq orqanlara göndəriləcək.

İkinci mərhələdə Binəqədi rayonu üzrə dövlət qeydiyyatında olan 9 abidənin adı, tarixi və ünvanlarında dəqiqləşdirmə aparılaraq siyahıda düzəliş olunması təklif edilib. 12 tarix-memarlıqəhəmiyyətli tikiliyə dair məlumatlar hazırlanaraq şura üzvləri tərəfindən baxılıb. 8 obyektin abidələr siyahısına daxil edilməsi məqsədəuyğun hesab olunub.

Üçüncü mərhələdə isə Səbail rayonu üzrə 63 binaya dair hazırlanmış materiallara şura üzvləri tərəfindən baxış olub. Onlardan 49-nun abidələr siyahısına daxil edilməsi məqsədəuyğun sayılıb. Hər iki mərhələdə şura üzvləri tərəfindən verilən təkliflər əsasında AMEA-ya məktub hazırlanıb.

Sonda şura üzvlərinin həyata keçirilən işlərlə bağlı irad və təklifləri dinlənilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*

İncəsənət xadimləri

# Görkəmli rəssamın yaradıcılıq dünyası

**Sənətinə sadiq, xalqımızın milli adət-ənənələrinə bağlı, klassik yaradıcılıq üslubuna həmişə ciddi əməl edən, öz bədii yaradıcılıq dəst-xəti ilə seçilən, təsviri sənətin qrafika sahəsində uğurlu əsərlər yaradan Xalq rəssamı Cəmil Müfidzadənin bu il anadan olmasının 90 illiyidir.**

Cəmil Miryusif oğlu Müfidzadə Naxçıvanın Ordubad rayonunda doğulmuşdu. O, ixtisas təhsilini əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1948-1955), Kiyev orta rəssamlıq məktəbində (1955-1956), daha sonra isə Xarkov Dövlət Rəssamlıq İnstitutunda (1956-1962) almışdı. Rəssam qrafika sənətinin özünəməxsus və mürəkkəb sirlərini Xarkovda məşhur qrafiklər V.F.Mironenko və Q.A.Bondarenkodan öyrənmişdir.

C.Müfidzadənin yaradıcılığı dərin bədii-fəlsəfi mahiyyəti, yüksək estetik çalarları və bədii düşündürücülük xüsusiyyətləri ilə seçilir. O, uğurlu pedaqoji fəaliyyətlə də məşğul olub. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru kimi həm də kafedra müdiri vəzifəsində işləyib. C.Müfidzadə bir çox xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olub, fərdi sərgiləri təşkil edilib. Rəssamın davamlı bədii və pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Azərbaycanın Xalq rəssamı yüksək fəxri adına layiq görülüb, Prezident təqaüdçüsü olub.

C.Müfidzadə çoxsaylı silsilə qrafik əsərlər yaradıb. Bunlara misal olaraq, "Bakı albomu" (1962-1966), "Buhenvald" (1965-1967), "İçərişəhər" (1966-2000), "Abşeron nefti" (1967-1975), "Sülhün keşiyində" (1970-1972), "Şimal" (1976-1979), "Bu bir daha təkrar olunmamalıdır" (1980-1990), "Xınalıq" (1980-1990), "Monqolustan torpağında" (1982-1986), "Misir təəssüratları" (2004-2006) və digərlərini qeyd etmək olar.

Rəssamın diqqəti cəlb edən və demək olar ki, bütöv yaradıcılığı boyu həmişə dönə-dönə müraciət etdiyi mövzu "İçərişəhər" silsiləsidir. C.Müfidzadə bu silsiləyə daxil olan çoxsaylı qrafik əsərlərində sanki "itirilmiş və







ya unudulmuş keçmiş"in axtarışı izlərinə düşüb. Onun "Qədim Bakı" (1977), "Məhəllə məscidi" (1978), "Yeni məscid" (1977), "Köhnə məhəllələr" (1990), "İçərişəhər" (1991), "Qədim evlər" (1991), "Xan sarayı" (1992), "Karvansara" (2003) və başqa rəsmləri sanki "Min bir gecə" nağıllarını xatırladır.

C.Müfidzadənin "Abşeron nefti" silsiləsi yaradıcılığında mühüm yer tutur. Rəssam Abşeron yarımadasında və Xəzər dənizində mövcud olan neft sənayesinə həsr etdiyi əsərlərində əməyin romantikasını, neft sənayesini daha çox bədii təxəyyülün məhsulu kimi, yaradıcı fantaziyasının diktəsi əsasında ərsəyə gətirib. Bu silsiləyə daxil olan əsərlərinə "Abşeron motivi" (1968), "Neft çənləri" (1970), "Neft piramidası" (1970), "Neft eşalonu" (1971), "Dəniz mədəni" (1971), "Neft dənizi" (1971), "Mənim Bakım" (1971), "Neft məbədi" (1972), "Bakı - neft paytaxtıdır" (1974), "Abşeron mənzərəsi" (1975) və sairəni misal göstərmək olar.

C.Müfidzadə "Xınalıq" silsiləsində bir çox rəssamlarımızın ilham qaynağına çevrilmiş qədim tarixi və milli etnoqrafik xüsusiyyətləri ilə seçilən bu bölgənin özünəməxsus təbii görüntüsünü və əməksevər insanlarının gündəlik həyat şəraitini sənətin xüsusi dili və yaddaqalan təsirli bədii ifadə vasitələri ilə təsvir edib. "Xınalığın görünüşü" (1981), "Kəndin əvvəli" (1982), "İntizar" (1982), "Sudan gələn" (1982), "Üç qardaş" (1985), "Gün batarkən" (1986), "Suya gedən" (1986), "Evin qarşısında" (1990), "Rəfiqələr" (1996), "Xınalığın adi günü" (2000), "Sudan gələn qızlar" (2002), "Yaylağa hazırlıq" (2002) əsərlərində milli ənənələrə bağlılıq özünü qabarıq şəkildə büruzə verir.

C.Müfidzadə xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olmuş və zəngin müşahidələri nəticəsində maraqlı əsərlər yaratmışdır. Onun bu sırada "Monqolustan torpağında", "Misir təəssüratları" və başqa silsilələrini qeyd etmək olar.

Bu il həm də rəssamın dünyasını dəyişməsindən beş il ötür. Azərbaycan təsviri sənətinin, o cümlədən də qrafika sənətinin inkişafına özünəməxsus bədii yaradıcılıq töhfələri bəxş etmiş Cəmil Müfidzadənin yaradıcılıq dünyası onu tanıyanların və sənətsevərlərin yaddaşında həmişə yaşayacaq.

*Əsəd QULİYEV,*
*Rəssamlar İttifaqının üzvü, sənətşünas*

# Hacı Zeynalabdin Tağıyev haqqında film Kanadada fəxri mükafata layiq görülüb

**Azərbaycanın tanınmış xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevdən bəhs edən "100 il şərəfli ömür" filmi Kanadanın Toronto şəhərində keçirilən "WideScreen Film & Music Video" festivalında "Fəxri Ad" mükafatına layiq görülüb.**




Festivala dünyanın fərqli mədəniyyətlərinin tanıdılması mövzusunda çəkilmiş filmlər qəbul edilir.

Ekran əsərinin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov bildirib ki, filmin çəkilməsində əsas məqsəd Hacı Zeynalabdin Tağıyevi geniş coğrafiyada tanıtmaq, həm də onun timsalında ölkəmiz haqqında insanlara geniş məlumatlar verməkdir.

Festivalda "İkinci ömür" tammetrajlı bədii filminin ssenarisi də "Fəxri Ad" mükafatına layiq görülüb.

# "Solğun çiçəklər" tamaşası növbəti dəfə nümayiş olunacaq

**İyulun 13-də Şuşa Dövlət Musiqili Dram Teatrının yaradıcı kollektivi görkəmli dramaturq Cəfər Cabbarlının "Solğun çiçəklər" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa ilə yenidən teatrsevərlərin qarşısına çıxacaq.**




Teatrdan bildirilib ki, səhnə əsəri teatrın rejissoru Lalə Şirinovanın quruluşunda hazırlanıb.

Dəfələrlə teatrlarımızın yaradıcı kollektivlərinin səhnəyə qoyduğu əsər milli dramaturgiyamıza yeni ovqat, forma, məzmun və yeni keyfiyyətlər gətirdiyini bir daha sübuta yetirir. Bütün bunlar görkəmli dramaturqun ailə-məişət mövzusunda yazdığı ilk sentimental melodramatik əsərində özünəməxsusluğu, ayrıca bir fərdə və insanlar arasındakı münasibətlərə xüsusi görmə bucağından yanaşdığını önə çəkir.

Cəfər Cabbarlının "Solğun çiçəklər" əsəri Saranın əmisi oğluna olan saf məhəbbətindən və Saranın analığı olan Gülnisənin cinayətindən bəhs edir. Gülnisə Saranın atasını zəhərləməklə kifayətlənməyib onun bütün var-dövlətini də ələ keçirmək istəyir. Bütün bu işlərin üstü açılmasın deyə Bəhramı Saradan ayırıb öz doğma qızıyla evləndirir. Nəticədə Sara vəfasızlığın qurbanı olur.

# Mədəniyyət naziri ŞƏT-ə üzv ölkələrin mədəniyyət nazirlərinin görüşündə iştirak edib

**Dünən Belarus Respublikasında "Slavyan Bazarı Vitebskdə" XXXIII Beynəlxalq İncəsənət Festivalı çərçivəsində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv ölkələrin mədəniyyət nazirlərinin görüşü keçirilib. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tədbirdə iştirak edib.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə çıxış edən nazir Adil Kərimli Belarus Respublikasını bu yaxınlarda ŞƏT-ə tamhüquqlu üzv olması münasibətilə təbrik edib.

2016-cı ildə Azərbaycan və ŞƏT arasında memorandum imzalandığını xatırladan A. Kərimli qeyd edib ki, bu mühüm təşkilat kontekstində mədəniyyətin inkişafı bizim üçün böyük əhəmiyyət kəsb edir.

Vurğulanıb ki, bu il iyulun 4-də Astanada keçirilən ŞƏT-in sammitində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirak etməsi ölkəmizin bu təşkilat çərçivəsində əməkdaşlığı dərinləşdirmək niyyətini bir daha nümayiş etdirib.

"Biz ŞƏT-də dialoq üzrə tərəfdaş statusumuzu yüksək qiymətləndirir və müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, təhsil, elm və digər sahələrdə əməkdaşlığı dərinləşdirməyə çalışırıq. Məqsədimiz təkcə əlaqələri gücləndirmək deyil, həm də davamlı inkişafı dəstəkləmək üçün mövcud potensialdan istifadə etməkdir", - deyə nazir bildirib.

Adil Kərimli onu da diqqətə çatdırıb ki, bu il ərzində Azərbaycanda Belarus, Qırğız Respublikası, Tacikistan və Rusiya Federasiyasının mədəniyyət günləri, eləcə də Özbəkistanda Azərbaycanın mədəniyyət günləri təşkil olunub.

2024-cü ilin noyabr ayında Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a evsahibliyi edəcəyini deyən nazir bildirib ki, bu mötəbər tədbirin mədəni gündəliyi də var. COP29 çərçivəsində mədəniyyət nazirlərinin görüşü nəzərdə tutulub. Bu görüş, həmçinin iqlim dəyişikliyinin mədəni irsə mənfi təsirinin müzakirəsi üçün mühüm bir fürsət olacaq.

Qeyd edək ki, "Slavyan Bazarı Vitebskdə" festivalında ŞƏT ölkələrinin milli mədəniyyət günü keçirilir. Mədəniyyət günü iyulun 12-də Vitebskin Qələbə meydanında "ŞƏT ilə birlikdə sülh və yaradıcılıq naminə" adlı konsertlə başlayıb. Tədbirə təşkilata üzv ölkələrin nümayəndə heyətləri də qatılıb.

Şanxay Əməkdaşlıq Təşkilatının əsası 2001-ci ildə qoyulub. Hazırda Çin, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Pakistan, Hindistan, Belarus təşkilatın tamhüquqlu üzvləridir. Bir sıra ölkələr təşkilatda müşahidəçi statusuna, habelə dialoq üzrə tərəfdaş statusuna malikdir. Azərbaycan 2016-cı ildən ŞƏT-lə dialoq üzrə tərəfdaş statusunda fəal əməkdaşıq edir.

# Dördüncü "Yüksəliş" müsabiqəsinin finalçıları bəlli olub

**Dördüncü "Yüksəliş" müsabiqəsinin yarımfinal mərhələsinin nəticələri açıqlanıb. Müsabiqənin işçi qrupundan AZƏRTAC-a bildirilib ki, bu mərhələdə iştirak edən 315 namizəddən 118-i finala vəsiqə qazanıb.**



Bakıdan 74, regionlardan isə 44 nəfər final mərhələsinə keçib. Onlardan 99-u kişi, 19-u qadındır. Qeyd edək ki, finalçılar arasında beynəlxalq, özəl və dövlət şirkətlərində, həmçinin QHT-lərdə çalışan namizədlər yer alır.

Yarımfinal mərhələsində iştirakçılara 12 keys ünvanlanıb və onlar 4 fərqli komandada bu keysləri həll etməyə çalışıblar. Namizədlərin dinamik bölüşdürülməsi nəticəsində hər bir iştirakçı iki gün ərzində 8 ekspert tərəfindən qiymətləndirilib. Bu da öz növbəsində şəffaf dəyərləndirilmənin həyata keçirilməsinə imkan yaradıb.

Qeyd edək ki, final mərhələsinə keçid üçün minimal bal 15 müəyyən edilib.

Müsabiqənin son mərhələsi olan finalda iştirakçılar 2 gün ərzində qalibiyyət uğrunda bilik və bacarıqlarını nümayiş etdirəcəklər. İştirakçılar ekspertlər tərəfindən "İdarəçi rollar modeli" üzrə qiymətləndiriləcəklər. Qiymətləndirmə təqdim edilən keyslər üzrə aparılacaq.

Dördüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsi iyulun 19-21-də "Bakı-Ekspo" Mərkəzində keçiriləcək.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də sərəncam imzalanıb.



# Avro-2024





## Rodri çempionluğa inanır

**İspaniya millisinin yarımmüdafiəçisi Rodri final oyunu ərəfəsində İngiltərə millisindən danışıb.**



O rəqib komandanı çox yaxşı tanıdığını deyib: "İngilis futbolunun mədəniyyətini bilirəm. Onların çox istedadlı komandası, oyunun bütün aspektlərinin öhdəsindən gələ bilən çox bacarıqlı oyunçuları var. Yaxşı müdafiə olunurlar, hücum edə bilirlər, oyunları düzgün qurulub. Onlara zərər vurmağın yolları üzərində işləməliyik. Bizim bir silahımız var ki, o da onları məğlub edə biləcəyimizə inamdır.

Hansı ingilisi fərqləndirərdim sualına belə cavab verərdim: "Onlarda beləleri çoxdu. Fil Foden xoşuma gəlir, çünki onu tanıyıram, mənimlə oynayır. O, çox sıx saxlanmalı olan oyunçudur, çünki kiçik zonada hərəkət etmək üçün fitri qabiliyyətə malikdir. Ancaq onlarda böyük zərər verə biləcək bir çox oyunçu var. Bir oyunçuya diqqət yetirməyi xoşlamıram. Mən İngiltərəyə bütövlükdə baxmağı xoşlayıram".

## Kerem Aktürkoğlu transfer "radar"ında

**Son zamanlar adı məşhur Avropa klubları ilə çəkilən Türkiyə millisinin futbolçusu Kerem Aktürkoğlunun menecerindən açıqlama gəlib. Uilliam Davila Rusiya mətbuatına "Spartak Moskva"dan gələn təklifi qəbul etmədiklərini deyib.**



Davila buna səbəb kimi Keremin avrokuboklarda mübarizə aparan komandaya keçmək istəyini göstərib.

Bu açıqlamadan sonra "Spartak"ın cavabı gecikməyib. Klubun ümumi direktoru Oleq Malışev menecerin açıqlamalarına bu cür fikir bildirib: "Hər şeydən əvvəl başa düşməlisiniz ki, oyunçunun meneceri yalan danışır, futbolçunun reklamını aparır ki, onu yaxşı bir komandaya transfer edə bilsin. Bu səbəbdən xüsusilə onun haqqında şərh bildirmək istəmirəm. Rus klublarının avrokuboklara qatıla bilməməsi səbəbilə transfer imkanlarının məhdud olması isə heç kimə sirr deyil".

Kerem Aktürkoğlunun adı Moskva klubu ilə yanaşı, İspaniyadan "Real Sosyedad"la da çəkilirdi. Onun hazırkı bazar dəyəri 15 milyon avrodur.

Qeyd edək ki, milli komanda üzvünün "Qalatasaray"la müqavilə müddəti 2026-cı ilə qədərdir.



## Bellinqem əməliyyat oluna bilər

**İngiltərə yığmasının futbolçusu Cud Bellinqem "Avro-2024"dən sonra əməliyyat oluna bilər. Bu barədə İspaniya mətbuatında məlumat yer alıb.**

Ötən ilin noyabrında zədələnən "Real"ın futbolçusu yenidən ağrılar hiss edir. Cudun son oyunlarda ağrıkəsicilərlə meydana çıxdığı bildirilib. Cərrahiyyə əməliyyatı nəticəsində 21 yaşlı futbolçu təxminən 2 ay yaşıl sahələrdən kənarda qala bilər.

Qeyd edək ki, Bellinqemin çıxış etdiyi İngiltərə yığması Avropa çempionatının finalına vəsiqə qazanıb.

## Final matçının hakimləri açıqlandı

**"Avro-2024"ün finalında sabah keçiriləcək İspaniya - İngiltərə oyunu üçün hakim təyinatları açıqlanıb.**



Matçı Fransa Futbol Federasiyasından Fransua Leteksyer idarə edəcək. Ona həmyerliləri Kuril Munye, Mehdi Rahmouni kömək göstərəcək. Dördüncü hakim funksiyasını Szuman Marçiniak yerinə yetirəcək.

Bu arada final matçının hakimi Fransua Leteksyer turnirin tarixinə düşüb. O, həlledici oyunu idarə edəcək ən gənc hakim olacaq. Bu final 35 yaşlı Leteksyerin karyerasında ilk böyük sınağı olacaq. O, 2023-cü ildə "Mançester Siti" və "Sevilya" arasında oynanılan Avropa Superkubokunun həlledici oyununu idarə edib.

Qeyd edək ki, isveçli İvan Eklind "DÇ-1934"ün finalını 29 yaşında idarə edərək, böyük turnirlərin tarixində ən gənc hakim olub.

## Vatkins çox həyəcanlıdır

**İngiltərə millisinin futbolçusu Olle Vatkins "Avro-2024"də finala yüksəlmələrini şərh edib.**



Yarımfinalın Niderlandla oyununda sonradan meydana daxil olan və qələbə qolunu vuran forvard bunları deyib: "Sözüm yoxdur. Matçdan sonra meydanı tərk etməyə tələsmədim. Çünki nələr hiss etdiyimi anlamaq istəyirdim. Qol epizoduna gəlincə, Kol Palmeri görəndə qaçdım və düşünürdüm ki, ötürmə gələcək. Fikirləşdiyim kimi də oldu və qol vurdum. Qoldan daha vacibi komandanın qələbəsidir. Düzü, İngiltərə millisi ilə Avropa çempionatında oynayacağımı düşünməzdim".

## Sautqeytlə bağlı qərar



**İngiltərə Futbol Federasiyası milli komandanın başqa məşqçi postu ilə bağlı qərarını verib.**

Belə ki, hazırkı baş məşqçi Qaret Sautqeyt vəzifəsində qalacaq. Bu barədə məlumatı insayder Fanbrizio Romano paylaşıb. Federasiya Avropa çempionatının final oyununda nəticənin nə olacağından asılı olmayaraq, öz qərarında qalacaq.

İngiltərə millisinin baş məşqçisi Qaret Sautqeyt komandasının finalına yüksəlməsi barədə danışıb: "Çox yaxşı oynadıq. Çətin bir matç keçirdik və daim taktikamızı dəyişməli olduq. Xüsusən də müdafiədə. Futbolçularımız çox yaxşı qərarlar verdilər. Matçın sonu komanda üçün xüsusi oldu. Bu, bizim ümumi işimizin mükafatıdır".

## "İngiltərə tarixi nailiyyət ərəfəsindədir"

**İngiltərə millisinin sabiq hücumçusu Qari Lineker britaniyalıların İspaniya millisi ilə qarşılaşacağı 2024-cü il Avropa çempionatının final oyunu haqda danışıb.**

O, BBC-yə deyib: "Düşünürəm ki, bu, İngiltərə futbolu üçün çox vacibdir. Onlar bundan əvvəlki çempionatda da finalda idilər. "Uembli"dəki həlledici matç böyük məyusluqla başa çatdı (penaltilərdə İtaliyaya uduzdu - red.). Çətin olacaq, lakin onlar tarixi nailiyyətin astanasındadırlar. İngiltərənin heç bir milli futbol komandası xaricdə keçirilən böyük turnirdə qalib gəlməyib.

Onların əzmkarlığı və bu çox vacibdir. Yaxşı oynamayanda da nəticə əldə etdilər. Və bu, köhnə futbol klişesidir: əlinizdən gələni etmədiyiniz zaman qalib gəlirsinizsə, deməli, işlər o qədər də pis deyil".



ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Birinci Qarabağ müharibəsinin şəhidləri torpağa tapşırılıb

## Saatlı



Otuz bir il öncə törədilən erməni vəhşilikləri zamanı Saatlıdan olan bir ailənin beş üzvü itkin düşüb. İllər sonra onlardan iki nəfərinin - 1936-cı il təvəllüdlü Səfiyyə Mülәzim qızı Rəhimova və övladı 1963-cü il təvəllüdlü Müsaddin Sədri oğlu Rəhimovun nəşlərinin qalıqları azad olunmuş Füzuli rayonunun ərazisində aşkarlanıb və şəxsiyyətləri dəqiqləşdirilib. Ana və övladın nəşlərinin qalıqları ata-baba yurdu Saatlıda torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, ana və övladının nəşinin qalıqları Saatlıda izdihamla qarşılanıb, ailəsinin yaşadığı Saatlı rayon Orta Muğan kəndinə gətirilib. Vida mərasimindən sonra cənazə namazı qılınaraq, ruhlarına dualar oxunub.

Daha sonra ana və övladının nəşlərinin qalıqları dəfn üçün Saatlı rayon Orta Muğan kənd qəbiristanlığına gətirilib.

Dəfn mərasimində rayon icra hakimiyyətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələrinin üzvləri, media nümayəndələri iştirak ediblər.

Ana və övladının nəşlərinin qalıqları torpağa tapşırılıb.

Qeyd edək ki, Rəhimovlar ailəsindən 4 nəfər - 1933-cü il təvəllüdlü Sədri Rəhim oğlu Rəhimov və həyat yoldaşı Səfiyyə Mülәzim qızı Rəhimova, həmçinin iki övladı - 1963-cü il təvəllüdü Müsaddin Sədri oğlu Rəhimov və 1984-cü il təvəllüdlü Vaqif Sədri oğlu Rəhimov 1993-cü il oktyabrın 22-də Zəngilanda hərbi xidmətdə olan Fəhlul Sədri oğlu Rəhimov ilə görüşə gediblər. Onlar oktyabrın 23-də geri qayıdarkən Füzuli rayonunun Horadiz qəsəbəsində erməni hərbçilərinin hücumuna məruz qalıblar və həmin gündən itkin düşüblər. Ailənin xidmətdə olan digər üzvü F.Rəhimov da döyüşlərdə itkin düşüb və beş nəfərdən heç bir məlumat olmayıb.

## Füzuli



Muğan Gəray oğlu Əliyev Birinci Qarabağ müharibəsində könüllü olaraq Vətənin müdafiəsi üçün döyüşlərə qoşulmuşdu. Füzuli rayonunun Çimən və Cuvarlı kəndləri uğrunda gedən döyüşlərdə itkin düşüb. Şəhidin nəşinin qalıqları Xocavəndin Edilli kəndində kütləvi məzarlıqda aşkarlanıb və 32 ildən sonra Füzuli şəhərində torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, şəhid Muğan Əliyevin nəşi Füzuli sakinləri tərəfindən izdihamla qarşılanıb və İkinci Mahmudlu kənd məscidinə gətirilərək vida mərasimi təşkil olunub. Mərasimdə şəhidin ailə üzvləri ilə yanaşı, rayon rəhbərliyi, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Məsciddə cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub. Daha sonra şəhidin nəşinin qalıqları işğaldan azad olunan Füzuli şəhərində qəbiristanlıqda torpağa tapşırılıb.

Qeyd edək ki, Muğan Gəray oğlu Əliyev 1958-ci ildə Füzuli rayonu Çimən kəndində dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi başlayanda döyüşlərə qoşulub. 1992-ci il aprelin 12-də Füzuli rayonunun Çimən və Cuvarlı kəndləri uğrunda gedən döyüşlər zamanı itkin düşüb. Daha sonra ailə üzvləri ondan xəbər ala bilməyiblər.

## Quba



Birinci Qarabağ müharibəsinin şəhidi İdris Baxışovun cəsədinin qalıqları iyulun 12-də Qubada dəfn olunub.

AZƏRTAC xəbər verir ki, 1993-cü ilin aprel ayında Kəlbəcərdə şəhidlik zirvəsinə ucalan qəhrəman döyüşçü itkin düşmüş sayılırdı. Onun nəşinin qalıqları Vətən müharibəsində düşməndən azad edilən Kəlbəcərdə tapılıb və ölümündən 31 il sonra doğma yurdunda torpağa tapşırılıb.

Dəfn mərasimində şəhidin ailə üzvləri ilə yanaşı, Quba Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Quba rayon şöbəsinin, hüquq-mühafizə orqanlarının, rayon ictimaiyyətinin nümayəndələri, qazilər və kənd sakinləri iştirak ediblər.

İdris Osman oğlu Baxışov 1973-cü il dekabrın 25-də Quba rayonunun Qənidərə kəndində doğulub. Birinci Qarabağ müharibəsində Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşüb. 1993-cü il aprel ayının 1-də şəhidlik zirvəsinə ucalıb və itkin düşmüş sayılıb.

## Ağdaş



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan İmaməddin Əliağa oğlu Əliyevin meyitinin qalıqları Ağdaş rayonuna gətirilib. O, Birinci Fəxri xiyabanda naməlum şəhid kimi dəfn olunmuşdu.

AZƏRTAC xəbər verir ki, şəhidin nəşi bu gün rayonun Pirəzə kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Vida mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi kənd qəbiristanlığında, atasının məzarı yanında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı yaylım atəşi açılıb.

Qeyd edək ki, İmaməddin Əliağa oğlu Əliyev 1992-ci ildə Ağdərə istiqamətində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.


Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 16.07.2024-cü il tarixi, gün ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



"PANO" ASC səhmdarının nəzərinə

15.07.2024-cü il tarixdə "PANO" ASC-nin yığıncağı keçiriləcək. Yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcək:

1. Qiymətli kağızların dəyərinin azaldılması.
2. Dövlət reyestrindən çıxarışdan nizamnamə kapitalının məbləğinin dəyişdirilməsi üçün lazımi işlərin görülməsi.
3. Kapitalın azaldılması ilə bağlı Azərbacan Respublikasının Mərkəzi Bankına müraciət edilməsi.

**Ünvan: Bakı şəhəri, Suraxanı qəsəbəsi, Əmircan ŞTQ, İ.Məmmədov 127 A**

***"PANO" ASC***



OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*



Bankın əsas vasitələrinin inventarlarının satışı haqqında elan

Pakistan Milli Bankının Bakı filialı istifadə edilmiş əsas vəsaitlərin satışını elan edir və maraqlı tərəflərdən öz təklifləri ilə bağlı sorğu və yoxlama üçün bizimlə əlaqə saxlamalarını tələb edir.

**Satış üçün mövcud avadanlıqlar:**

1. Kompüter avadanlıqları və kompüter mebelləri
2. Ofis avadanlıqları və ofis mebelləri

**Şərtlər və Qaydalar:**

1. Əmlaklar mövcud vəziyyətdə olduğu kimi satışa çıxarılır.
2. Maraqlanan şəxslər (şirkətlər/fiziki şəxslər) 16 iyul 2024-cü il tarixdən 23 iyul 2024-cü il tarixədək iş günləri, saat 09.00-dan 17.00-dək aşağıdakı ünvanda bizə müraciət edə bilərlər. Əşyaların tam siyahısı, təfərrüatları əldə etmək və yoxlanılması üçün Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi 20, m.12 ünvanına yaxınlaşmağınız mütləqdir.

Əlaqələndirici şəxs: Anar Hüseynov, tel. +994 50 310 94 17.

3. Qapalı tender təkliflərinin yoxlanılması və təqdim edilməsi üçün son tarix 23 iyul 2024-cü il, saat 17.00-a qədərdir.
4. Tender təkliflərinə 24 iyul 2024-cü il tarixdə baxılacaq. Bank tender təkliflərinin açıldığı tarixdən etibarən 5 (beş) gün ərzində qalib iddiaçıya məlumat verəcəkdir.
5. Qazanan iddiaçı Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq vergi, dövlət rüsumu, satış vergisi, avans vergisi və/və ya hər hansı digər müvafiq rüsum/vergi kimi bütün xərcləri öz üzərinə götürəcəkdir.
6. Alqı-satqı müqaviləsi bütün müvafiq hüquqi rəsmiləşdirmələr aparıldıqdan sonra qalib gələn iddiaçının və/və ya onun səlahiyyətli nümayəndəsinin adına bağlanacaqdır.
7. Bank səbəb göstərmədən hər hansı/bütün təkliflərdən imtina etmək hüququnu özündə saxlayır.

**Ünvan: Bakı şəhəri, Xətai rayonu, Afiyəddin Cəlilov küçəsi 20, m.12**
**Email: anar.huseynov@nbp-baku.az**
**sheikh.ahtsham@nbp-baku.az**
**Tel.+994 12 4643052**

***Şeyx Ahtşam ƏHMƏD,***
***Baş menecer***
***Pakistan Milli Bankı***
***Bakı filialı***


# "Makron dağıdıcıdır"

## Fransadakı siyasi böhran daha ağır rejim böhranına çevrilə bilər

**Emmanul Makronun yaratdığı "İntibah" Partiyasının keçmiş üzvü, Milli Assambleyanın keçmiş deputatı Le Jandr Fransa prezidentini siyasi böhranda günahlandırıb.**

"Makron dağıdıcıdır" deyən sabiq deputat dövlət təsisatlarının yenidən qurulması və dövlətdə islahatların aparılması üçün ölkə rəhbərini müəyyən müddət ərzində siyasi qüvvələri birləşdirərək koalisiya yaratmağa çağırıb.

Onun fikrincə, ən ağır zaman gələnə qədər ölkə böhrandan-böhrana keçəcək. Həmin an, 2027-ci ildə və ya ondan əvvəl Yelisey Sarayında Marin Le Pen peyda olacaq.

Le Jandr həmçinin Milli Assambleyanın buraxılmasını mənasız qərar adlandırıb və ölkəni bürüyən siyasi böhranın rejim böhranına çevrilə biləcəyi riski barədə xəbərdarlıq edib.

Bundan əvvəl iyulun 11-də Emmanuel Makronun parlament seçkilərinin nəticələrindən sonra vətəndaşlara ünvanladığı məktubla bağlı ölkə liderinin siyasətindən danışan fransalı senator, Senatdakı respublikaçılar fraksiyasının prezidenti Bruno Retayo onu özünə inamda ittiham edib və hakimiyyəti inhisara almağı dayandırmağa çağırıb: "Bu məktub Makronun üslubuna çox uyğundur - o, özündən heç şübhələnmir. Və bu, "fransızlara məktub" adlanır, baxmayaraq ki, əslində bu, siyasi partiyalara ünvanlanmış məktubdur. Mən onun fransız xalqına müraciət etməsini və seçkilərin hər iki mərhələsindəki nəticələrdən dərs almasını istərdim".

Siyasətçi qeyd edib ki, artıq seçkilərin birinci turunda fransızlar Makronun xatırlamadığı istəklərini - nəzarət edilən immiqrasiya, sabitlik və alıcılıq qabiliyyətinin artırılması ilə bağlı fikirlərini açıq şəkildə ifadə ediblər.

"Yenilməyən Fransa" Partiyasının üzvü Matilda Pano da Makronun müraciətini şərh edib: "Biz ağlasığmaz vəziyyətdəyik - prezident bir növ qanunvericiliyi ələ keçirir".

O, prezidenti hakimiyyətin inhisarını dayandırmağa və öz məğlubiyyətini, habelə solçu düşərgənin qələbəsini etiraf etməyə çağırıb.

Makronun fransızlara məktubunu bir gün əvvəl ölkənin bir sıra regional media orqanları, o cümlədən "Ouest France" qəzeti dərc edib. Mətndə o, Fransada keçirilən parlament seçkilərində siyasi qüvvələrin heç biri kifayət qədər səs çoxluğu əldə etmədiyi üçün qalibin olmadığı fikrini ifadə edib.

Fransa lideri "institusional sabitliyin təmin edilməsi" üçün tərəflərdən ümumi dəyərlər və aydın proqram əsasında belə bir çoxluq qurmağı tələb edib və baş nazirin təyinatı ilə bağlı bu əsasda qərar qəbul edəcəyinə söz verib. Eyni zamanda Makron bildirib ki, Fransanın hazırkı hökuməti hələlik öz vəzifələrini yerinə yetirməyə davam edəcək.

Bundan əvvəl Fransanın keçmiş baş naziri Eduard Filipp mərkəz və sağ mərkəzçi deputatları yeni parlamentdə nisbi çoxluq yaratmaq üçün birləşməyə çağırıb. O, hazırda bunu bacaracaq blokun yaradılmasının mümkün olduğunu bildirib.

Xatırladaq ki, Fransada iyun və iyul aylarında parlament seçkiləri keçirilib. Nəticədə solçu partiyaların "Yeni Xalq Cəbhəsi" koalisiyası qalib gələrək Milli Assambleyada 182 yer qazanıb. "Birgə" prezident koalisiyası 168 yerə, millətçi Marin Le Penin "Milli Birlik" partiyasının başçılıq etdiyi sağçı koalisiya 143 yerə yiyələnib. Seçkilərin nəticələrindən sonra Makrondan məğlubiyyətini etiraf etmək tələb olunub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə Tofiqə-Nurani Qasımovaya anası

**DİLBƏR AXUNDZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3287
Sifariş 1515

Qiyməti 60 qəpik